İsfəhan **Qaimiyyə** kompüter araşdırmalar mərkəzi

# Qaimiyyə




www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir

# CƏMIYYƏTDƏ KIŞI-QADIN MÜNASIBƏTLƏRININ ŞƏRİ HÖKMLƏRİ



Seyyid Məhəmməd Məsud Məsumi

بسم الله الرحمن الرحیم

# CƏMİYYƏTDƏ KİŞİ–QADIN MÜNASİBƏTLƏRİNİN ŞƏRİ HÖKMLƏRİ

:Müəllif

Seyyid Məhəmməd Məsud Məsumi

:Çap nəşriyyat

Fəcri Quran

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat


Mündəricat ----- ۵
CƏMİYYƏTDƏ KİŞİ-QADIN MÜNASİBƏTLƏRİNİN ŞƏRİ HÖKMLƏRİ ----- ۸
KİTAB HAQQINDA ----- ۸
ÖN SÖZ ----- ۸
!DİQQƏTLİ OL ----- ۱۰
BAXMAĞIN HÖKMLƏRİ ----- ۱۲
KİŞİNİN BAXMAĞI ----- ۱۲
KİŞİNİN KİŞİYƏ BAXMASININ HÖKMLƏRİ ----- ۱۲
KİŞİNİN MƏHRƏM QADINLARA BAXMASI ----- ۱۶
KİŞİNİN NAMƏHRƏM QADINLARA BAXMASI ----- ۲۰
ÜMUMİ BİR QANUN ----- ۲۷
b) QEYRİ-MÜSƏLMAN QADINLAR ----- ۳۸
KİŞİNİN UŞAQLARA BAXMASI ----- ۴۱
QADININ BAXMASI ----- ۴۸
QADININ BAŞQA QADINLARA BAXMASI ----- ۴۸
QADININ MƏHRƏM KİŞİLƏRƏ BAXMASI ----- ۵۱
QADININ NAMƏHRƏMƏ KİŞİLƏRƏ BAXIŞI ----- ۵۳
QADININ UŞAQLARA BAXMASI ----- ۵۹
ŞƏKK HALINDA BAXMAĞIN HÖKMÜ ----- ۶۳
FOTO ŞƏKLƏ BAXMAQ ----- ۶۶
KİŞİNİN NAMƏHRƏM QADININ ŞƏKLİNƏ BAXMASI ----- ۶۶
QADININ KİŞİLƏRİN ŞƏKLİNƏ BAXMASI ----- ۷۳
KİNOYA BAXMAQ ----- ۷۵
PALTAR VƏ ZİNƏT ƏŞYALARININ HÖKMLƏRİ ----- ۸۲

KİŞİ ÜÇÜN HARAM OLAN PALTARLAR VƏ ƏŞYALAR ---- ٨٢
KİŞİNİN MƏHRƏMLƏR VƏ BAŞQA KİŞİLƏR QARŞISINDAKI GEYİMİ ---- ٩٢
KİŞİNİN NAMƏHRƏM QADINDAN ÖRTÜLMƏSİ ---- ٩٧
KİŞİLƏRİN UŞAQLARDAN ÖRTÜNMƏSİ ---- ١٠١
QADININ ÖRPƏYİNİN HÖKMLƏRİ ---- ١٠٢
QADININ NAMƏHRƏMDƏN QORUNMASI ---- ١٠٢
ÇADRALARIN HÖKMLƏRİ ---- ١١۴
ZİNƏTİN HÖKMLƏRİ ---- ١١٩
QADININ QADINDAN ÖRTÜLMƏSİ ---- ١٣٢
QADININ UŞAQLARDAN ÖRTÜLMƏSİ ---- ١٣۵
QADIN VƏ KİŞİLƏR ÜÇÜN GEYİLMƏSİ CAİZ OLMAYAN PALTARLAR ---- ١٣٨
١-ŞÖHRƏT LİBASİ ---- ١٣٨
٢-XÜSUSİ PALTAR ---- ١۴٠
٣-TƏHRİKEDİCİ LİBAS ---- ١۴٨
۴-QƏSBİ PALTAR ---- ١۵٠
۵-KAFIRLƏRƏ MƏXSUS OLAN PALTARLAR ---- ١۵۴
CƏMIYYƏTDƏKI MÜNASIBƏTLƏRIN HÖKMLƏRI ---- ١۵٧
SÖHBƏT ETMƏYIN HÖKMLƏRI ---- ١۵٧
DIQQƏT YETIRILMƏLI MƏSƏLƏLƏR ---- ١۶١
DIQQƏTLI OLMAQ LAZIMDIR ---- ١۶٣
TƏMASLARIN HÖKMLƏRI ---- ١٧٠
ÖPMƏYİN HÖKMLƏRİ ---- ١٧٧
ÜMUMİ BİR QANUN ---- ١٨٠
İSTİMNA ---- ١٨١
MƏCLİSLƏRİN, QONAQLIQLARIN, GEDİŞ-GƏLİŞLƏRİN HÖKMLƏRİ ---- ١٨۴
ÖZÜNÜ GÖSTƏRMƏYİN HÖKMLƏRİ ---- ١٨٨

ƏQD VƏ TOY MƏRASİMİNİN HÖKMLƏRİ ----- ۱۹۰
TƏHQİQAT APARMAĞIN HÖKMLƏRİ ----- ۱۹۳
İŞARƏ ----- ۱۹۳
BİRİNCİ ŞƏRTƏ ƏSASƏN ----- ۱۹۵
İKİNCİ ŞƏRTƏ ƏSASƏN ----- ۱۹۷
ÜÇÜNCÜ ŞƏRTƏ ƏSASƏN ----- ۱۹۷
İSTİXARƏNİN HÖKMLƏRİ ----- ۲۰۰
NİŞANLI OLMAĞIN HÖKMLƏRİ ----- ۲۰۲
DAİMİ ƏQDDƏN QABAQ MÜVƏQQƏTİ ƏQD SİĞƏSİ ----- ۲۰۲
ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ ----- ۲۰۶
DƏVƏT ETMƏYİN HÖKMLƏRİ ----- ۲۱۲
ƏQD VƏ TOY MƏCLİSİNİN MÜQƏDDİMƏ İŞLƏRİNƏ TƏDARÜK GÖRÜLMƏSİNİN HÖKMÜ ----- ۲۲۲
ÜMUMİ BİR QANUN ----- ۲۲۲
ƏQD VƏ TOY MƏCLİSLƏRİNİN HÖKMLƏRİ ----- ۲۲۴
RƏQS ----- ۲۲۴
MUSİQİNİN HÖKMLƏRİ ----- ۲۳۴
ÜMUMİ BİR QANUN ----- ۲۴۱
AVAZ OXUMAQ ----- ۲۴۵
KİŞİLƏRƏ AİD OLAN ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ ----- ۲۵۶
ÜMUMİ MƏSƏLƏLƏR ----- ۲۶۰
QADINLARA MƏXSUS OLAN ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ ----- ۲۶۸
MÜXTƏLIF MƏSƏLƏLƏR ----- ۲۷۶
DIQQƏTLI OLMAQ ----- ۲۸۰
BƏZİ ŞƏRİ İSTİLAHLARIN İZAHI ----- ۲۸۹
MÜNDƏRICAT ----- ۲۹۲
Haqqında mərkəzi ----- ۲۹۶

# CƏMİYYƏTDƏ KİŞİ–QADIN MÜNASİBƏTLƏRİNİN ŞƏRİ HÖKMLƏRİ

## KİTAB HAQQINDA

Kitabın adı:Cəmiyyətdə kişi–qadın münasibətlərinin şəri hökmləri

Müəllif:Seyyid Məhəmməd Məsud Məsumi

Naşir:Fəcri Quran

Çap tarixi:۲۰۰۵

Səhifələrin sayı:۱۶۴

Çap növbəsi:Birinci

Tirajı:۵۰۰۰

səh:۱

## ÖN SÖZ

!Bismillahir-Rəhmanir-Rəhim

Əlinizdəki bu kitab şəri hökmlər məcmuəsinə tam başqa bir cəhətdən nəzər yetirir və İslamda qadın və kişi əlaqələrinin hökmünü bəyan edir. Yeni qarşıya çıxan məsələlərə nəzər yetirməklə bu məcmuənin yazılması zəruri nəzərə çarpır. Bunlar gündəlik və ən çox qarşıya çıxan məsələlər olduğuna və təəssüflə indiyə qədər tənzim olunmuş şəkildə bir yerə yığılmadığına görə qərara aldıq ki, bu hökmlərin hamısını kamil şəkildə bir yerə yığmaqla İslam cəmiyyətində dini göstərişlərin icrası yolunda təsirli tədbirlər görmüş olaq. Əlbəttə, etiraf etməliyik ki, bu məsələlər kitabların müxtəlif bölmələrində pərakəndə vəziyyətdə mövcud idi, bununla belə, mövcud olan miqdar qarşıya çıxan yeni suallara cavab verməməkdən əlavə, üstəlik həmin miqdarın əldə edilməsi .ümumxalq camaat üçün çox çətin nəzərə çarpır

**!DİQQƏTLİ OL**

İrəli çəkilən fətvalar həzrət Ayətullah İmam Xomeyni cənablarının fiqhi nəzərləri ⁕ .əsasında tənzim olunmuşrur

Bu məcmuənin əsl mətni İmam Xomeyni (rəhmətullahi əleyh)-in fətvası əsasında ⁕ tənzim olunmuş və nəzər ixtilafı qarşıya çıxdıqda, digər mərcəi-təqlidlərin fətvaları məsələnin nömrəsini və mənbəyini qeyd etməklə aşağıda yazılmışdır. Nəzər ixtilafı olmayan hallarda yalnız digər mərcəi-təqlidlərin kitablarındakı məsələnin nömrəsi .verilməklə kifayətlənmişdir

Hər bir məsələdə dəyərli mərcəi-təqlidlərin nəzərləri asan şəkildə bəyan edilmişdir. ⁕ Belə ki, ehtiyat-vacib[۱] hallarında digər mərcəi-təqlidlərin həmin məsələ barəsindəki .fətvasına müraciət etmək və onların arasında ələm olanın fətvasını seçmək olar

Bu məcmuədə çalışmışıq ki, hər bir məsələ üçün əziz mərcəi-təqlidlərin nəşr olunmuş ⁕ fiqhi risalələrinin hamısına istinad olunsun, amma qeyd olunan məsələlərin tamamilə [düzgünlüyünə xatircəm olmaq üçün hər bir müctehidin[۲

dəftərxanasında istiftaat[۳] bölməsindəki şuradan üç nəfərin tərəfindən imza da .alınmışdır

Müctehidlərin nəzərlərini daha asan əldə etmək məqsədilə onların fətva, yaxud ❊ məsələ şəklində irəli sürdükləri məsələlərdən bəzilərini sual-cavab şəklində bəyan etmişik. Həmçinin mümkündür ki, bir istifta onun bütün yönlərinə nəzər yetirməklə, .xüsusi bir məsələ şəklində də irəli çəkilmiş olsun

Bu məcmuədə nəticədə ünvanı ilə irəli çəkilənlər məsələnin təfərrüatıdır ki, hər bir ❊ məsələnin ardınca gəlir və onların hər birinin səhih olması da, yuxarıda qeyd edildiyi kimi, mərcəi-təqlidlərin dəftərxanasında istifta şurasında üç nəfərin təsdiqi ilə .imzalanmışdır

.Seyyid Məhəmməd Məsud Məsumi, ۱۵ Şəban, ۱۴۱۴-cü il

## BAXMAĞIN HÖKMLƏRİ

### KİŞİNİN BAXMAĞI

### KİŞİNİN KİŞİYƏ BAXMASININ HÖKMLƏRİ

Məsələ ١: Kişilər başqa kişilərin övrəteyni istisna olmaqla, bir-birlərinin bütün bədənlərinə baxa bilərlər, bu şərtlə ki, ləzzət və reybə qəsdi olmasın.

İmam, Fazil və Məkarim: Ürvənin Nikah bölməsi, məsələ: ٢٨, yenə orada, ١-ci cild, səfr və satir bölməsi, səh.٥۴٩.

İmam: Təhrir, Nikah, məsələ: ١۶, Tovzihul-məsail, məsələ: ٢۴٣٨.

Bəhcət: Tovzihul-məsail, məsələ: ١٩۴٠.

Təbrizi: Tovzihul-məsail, məsələ: ٢۴۴۵ və ٢۴۴٧.

Xamenei: İstifta.

Sistani: Minhacus-salehin, nikah, məsələ: ١٢; Tovzihul-məsail, məsələ: ٢۴۴٧.

Fazil: Tovzihul-məsail, məsələ: ٢٠٨٠.

Məkarim: Tovzihul-məsail, məsələ: ٢٨۵.

* NƏTİCƏDƏ: Kişinin başqa bir kişinin hər bir yerinə, hətta üzünə, əllərinə ləzzət və reybə qəsdilə baxması haramdır.

Həmçinin kişilər başqa kişilərin övrəteyninə baxa bilməzlər, istər ləzzət və reybə qəsdilə olsun, istərsə də olmasın.

Diqqət!

Əgər bir insan fəsada düşəcəyindən qorxursa ona reybə deyilir.

Məsələ ٢: Əgər bir kişi başqa bir kişinin bədəninə baxacağı surətdə, günaha düşəcəyindən qorxursa, onun bədəninə baxa bilməz.

.İmam, Bəhcət, Təbrizi, Sistani, Fazil, Məkarim: Əvvəlki məsələnin mənbələri

?Məsələ (Sual) ۳: Övrəteyn dedikdə məqsəd nədir

səh:۵

Cavab: Kişilərdə qubula (idrarın xaric olduğu məcra və xayalara) və dubura, qadınlarda .isə qubul (fərcin hamısı) və dubura (ğaitin xaric olduğu yer) deyilir

.İmam, Fazil, Məkarim: Ürvə, sətr və satir, səh.٥٥٠

.İmam: Təhrir, nikah, məsələ: ١۶

.Bəhcət və Xamenei: İstifta

.Təbrizi: Siratun-nəcat, ١۴٨٨-ci sualdan istifadə etməklə

.Sistani: Minhacus-salehin, nikah, məsələ: ١٢; Əhkamul-xəlvət, ٥٥-ci məsələdən əvvəli

:NƏTİCƏDƏ ※

İnsanın arxasında olan əzələ yerləri (yanı) övrəteyndən sayılmır və ona baxmağın .işkalı yoxdur, baxmayaraq ki, ehtiyat-müstəhəb onu tərk etməkdir

Məsələ (Sual) ۴: Baseynlərdə (hovuzlarda), hamamlarda, dəniz sahillərində kişilər plavka (şort) geyinirlər ki, bədənlərinin dərisi görünməsə də, övrəteynin həcmi ?tamamilə aşkar olur, kişilərin onlara baxması caizdirmi

Cavab: Örtüyə malik olmaq dedikdə məqsəd, bədənin dərisinin görünməməsidir. Əgər .bunun ardınca bir fəsad gəlməzsə, ona baxmağın işkalı yoxdur

İmam, Təbrizi, Xamenei, Sistani, Fazil: İstifta

.Bəhcət: Əgər fitnə-fəsada məruz qalarsa, caiz deyildir: İstifta

.Məkarim: Əgər həcmi tamamilə görünərsə, ona baxmaq işkallıdır. İstifta

Məsələ ٥: Atalar həddi-büluğa çatmış oğlanlarının övrəteyninə baxa bilməzlər. (İstər hamamda, istərsə də başqa yerlərdə.) Ehtiyat-vacibə görə hətta həddi-büluğdan .qabaq da (müməyyiz olan zamanlarda) onların övrətinə baxmamalıdırlar

İmam, Xamenei, Fazil, Məkarim: Ürvə, nikah, məsələ: ٢٨-dən istifadə etməklə. ١-ci cild, .sətr və satir, səh.٥۴٩

.İmam: Təhrir, nikah, məsələ: ۱۶; Tovzihul-məsail, məsələ: ۲۴۳۶

.Bəhcət və Təbrizi: Müməyyiz oğlan uşağının övrətinə baxmaq haramdır. İstifta

.Bəhcət: Tovzihul-məsail, məsələ: ۱۹۳۸

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۲۴۴۵

Sistani: Minhacus-salehin, təharət kitabı, ۵۵-ci məsələdən əvvəl, Nikah, ۱۲ və ۲۰-ci məsələlərdən istifadə etməklə.

Fazil: Tovzihul-məsail, ۲۵۰۶-۲۵۰۸-məsələlərdən istifadə etməklə.

Məkarim: Tovzihul-məsail, məsələ: ۲۰۸۳.

Məsələ ۶: Zərurət halı istisna olmaqla, həkimlərin başqa kişilərin övrəteyninə baxması haramdır.

İmam, Xamenei, Sistani, Fazil, Məkarim: Əvvəlki məsələlərin mənbələrindən istifadə etməklə.

Təbrizi: Tovzihul-məsail, ۲۴۴۵ və ۲۴۵۱-ci məsələlərdən istifadə etməklə.

Məkarim: Tovzihul-məsail, ۲۰۸۵-ci məsələdən istifadə etməklə.

Bəhcət: Əgər kişi həkimlərinin başqa kişinin övrəteyninə müalicə etmək məqsədilə baxmasının işkalı yoxdur. Tovzihul-məsail, ۱۹۳۸, ۱۹۴۲ və İstiftadan istifadə etməklə.

❊ NƏTİCƏDƏ:

Öz həyat yoldaşlarının hamiləliyinin qarşısını almaq məqsədilə kişilərin özlərinin spermatozoidi nəql etdirən kanallarını bağlamaq üçün həkimin yanına getmələri icazəli deyildir. Amma, məninin xaric olma kanallarını bağlamaq insanın daimi olaraq sonsuz olmasına səbəb olmazsa, eybi yoxdur, lakin bu əməl başqasının onun övrəteyninə baxmasını gərəkli etdiyindən, həmçinin başqasının onun övrəteyninə əl vurmasına, toxunmasına səbəb olduğundan bu iş haramdır. Əgər həkimin onun övrətinə baxmasını və toxunmasını lazım tutacaq bir əməl ilə yanaşı olmazsa, eybi yoxdur., yaxud əgər onun həyat yoldaşı həkim olsa, bu yolla hamiləliyin qarşısını ala bilər.

### KİŞİNİN MƏHRƏM QADINLARA BAXMASI

Məsələ ۷: Kişilər öz məhrəm qadınlarının övrəteyndən başqa bədəninin hər bir yerinə baxa bilərlər, bu şərtlə ki, bu baxış ləzzət alma məqsədilə olmasın. Həmçinin onların

(.günaha düşmə qorxusu da olmasın. (Həyat yoldaşı bu hökmdən istisna olunur

.İmam, Fazil: Ürvə, nikah, məsələ: ٣٢, sətr və satir, ١-ci cild, səh.٥۴٩

.İmam: Təhrir nikah, məsələ, ١٧; Tovzihul-məsail, məsələ: ٢٣۴٧

.Bəhcət: Tovzihul-məsail, məsələ: ١٩٣٩

.Xamenei: İstifta

.Sistani: Minhacus-salehin, nikah, məsələ: ١٣; Tovzihul-məsail, məsələ: ٢۴۴۶

.Fazil: Tovzihul-məsail, məsələ: ٢٥٠٥

.Təbrizi və Məkarim: İstifta

Təbrizi: Kişilərin öz məhrəmlərinə cinsi ləzzətlə yanaşı olan baxışları caiz deyildir və ehtiyat-vacib budur ki, göbəkdən dizə qədər hissələrə baxmaq tərk olunsun, hətta ləzzət alma qəsdi olmasa belə. İstifta

Məkarim: Kişilər öz məhrəmlərinin adətən bir-birindən örtmədikləri miqdara baxa .bilərlər, məsələn, baş, boyun, sinənin bir miqdarı, əl və ayağın bir miqdarı. İstifta

:NƏTİCƏDƏ ❊

Kişilər öz məhrəmlərindən qızlarının, analarının, bacılarının və başqa məhrəmlərinin .övrəteyninə baxa bilməz, hətta ləzzət və reybə qəsdi olmasa belə

Həmçinin, ehtiyat-vacibə görə həddi-büluğa çatmamış, amma müməyyiz olan uşağın .övrəteyninə baxmaq caiz deyildir

Bəhcət: Həddi-büluğa çatmamış, amma müməyyiz olan uşağın övrəteyninə baxmaq .haramdır. Tovzihul-məsail, ١٩٣٨ və ١٩٤٣-cü məsələlərdən istifadə etməklə

Məsələ ٨: Ehtiyat-müstəhəb kişilərin öz məhrəm qadınlarına dizdən göbəyə qədər olan .hissəyə baxışının tərk olunmasıdır

.İmam, Fazil: Ürvə, sətr və satir, ١-ci məsələdən qabaq

Bəhcət, Təbrizi, Sistani və Məkarim: Bir-birinə məhrəm olan qadın və kişi əgər ləzzət .qəsdi olmazsa, övrətdən başqa bir-birinin bədənlərinin hər yerinə baxa bilərlər

.Bəhcət: Tovzihul-məsail, məsələ: ١٩٣٩

.Sistani: İstifta

Təbrizi: Əvvəlki məsələdə də deyildiyi kimi bu, ehtiyat-vacib yönlüdür və ona riayət .(etmək lazımdır (zəruridir

Naməhrəm qadınlar ya müsəlmandır, ya da qeyri-müsəlman. Müsəlman olduqları .halda, ya öz hicablarına tamamilə riayət edirlər, yaxud da etmirlər

.a) Öz hicabına tamamilə riayət edən müsəlman qadın

Məsələ ۹: Əgər müsəlman bir qadın öz hicabına tamamilə riayət edərsə, onun əlinə və :üzünə baxmaq kişi üçün aşağıdakı şərtlərlə işkalsızdır

.Əli və üzü zinətləndirilməmiş olsun-۱

.Baxış ləzzət və reybə qəsdi ilə olmasın-۲

İmam: Ürvə, nikah, məsələ: ۳۱; Təhrir, nikah, məsələ: ۱۸; İstifta və Tovzihul-məsail, .məsələ: ۲۴۳۳

Xamenei və Fazil: İstifta

:Bəhcət, Təbrizi, Sistani və Məkarim

Bəhcət: Baxmayaraq ki, bunu tərk etməkdə ehtiyata əməl etmək yaxşıdır (ehtiyat-.müstəhəbdir). İstifta

Təbrizi: Əllərdə və üzdə olan zinət əgər adi üzük qəbilindən və üzün islah olunması, eləcə də qoca qadınların zinətində adi olan sürmə qəbilindən olsa, onu örtmək qadın üçün vacib deyil, kişinin də ona baxması, əgər ləzzət məqsədilə olmazsa, eybi yoxdur. .İstifta

Sistani: Ümumi halda, əgər naməhrəm qadın öz hicabına riayət edərsə, yaxud əgər riayət etməsə də, onu hicaba əmr etdikləri təqdirdə riayət edərsə, onun əlinə və üzünə baxmaq ləzzət və reybə olmadan işkalsızdır. Baxmayaraq ki, ehtiyat-.müstəhəbbə görə, daha yaxşı olar ki, onun əlinə və üzünə baxmaqdan çəkinilsin

.Minhacus-salehin, nikah, məsələ: ۱۴ və ۲۶; Tovzihul-məsail, ۲۴۴۲-۲۴۴۳-cü məsələlər

.Məkarim: Yüngülvari zinətlərin eybi yoxdur. İstifta

:NƏTİCƏDƏ ❊

Kişilər öz hicablarına kamil şəkildə riayət etməyən qadınların üzünə və əllərinə baxa bilməzlər, misal üçün, bir

qadının saçları azacıq miqdarda görünsə, yaxud qolu bir qədər qısa olan paltar geymiş .olsa, yaxud biləyi örtülməmiş olsa

Məsələ ١٠: Əlində üzüyü, yaxud bilərziyi olan naməhrəm qadının əlinə baxmaq, yaxud öz dırnaqlarını uzadan, yaxud onu laklayan, yaxud hər hansı bir halda zinətləndirmiş olan qadının əlinə baxmaq haramdır, istər naməhrəm qadın kişinin yaxın .adamlarından olsun, yaxud da yad adamlardan

İmam, Bəhcət, Fazil: Əvvəlki məsələnin mənbələrindən və İstiftadan da istifadə .etməklə

:Təbrizi, Xamenei, Sistani və Məkarim

Təbrizi: Əgər naməhrəm qadın əlinə adi camaat arasında olan üzüklərdən taxmış olsa, onun əlinə baxmağın eybi yoxdur. Lakin sair hallarda əgər əldə zinət olsa, ona baxmaq .caiz deyildir. İstifta

Xamenei: Gözün tutmadığı və zinətlənmə hesab edilmədiyi yerlərə baxmağın işkalı .yoxdur. İstifta

Sistani: Üzüyə və bilərziyə baxmağın işkalı yoxdur, lakin əgər digər zinətlər olsa, .baxmaq caiz deyildir. İstifta

Məkarim: Əgər zinət və bəzənmə yüngülvari olsa və ləzzət qəsdi də olmasa, işkalı .yoxdur. İstifta

:Diqqət

Mallarının alıcısı əksər hallarda qadınlar olan satıcılar, misal üçün zərgərlər, qadın paltarları satanlar, zinət əşyaları, kosmetika maddələri və əşyaları satanlar və s. əsas etibarı ilə bu günahla qarşılaşırlarsa və başqalarına nisbətən daha artıq şəri qayda-.qanunlara riayət etməlidirlər

Məsələ ١١: Naməhrəm qadın hər məqsədlə özünə zinət vermiş olsa, ona baxmaq caiz deyildir, hətta əgər üzük, bilərzik, boyunbağı və sair kimi şeyləri yoxlamaq üçün olsa .da belə

İmam, Bəhcət, Xamenei, Fazil: İstifta

:Təbrizi, Sistani və Məkarim

Təbrizi: Üzdə və əllərdə olan zinət əgər adi üzük qəbilindən, üzdə olan zinət də üzün islah olunması və sürmə də hətta qoca qadınlar arasında adət olan sürmə qəbilindən olarsa, onlara baxmaq ləzzət qəsdi olmadan işkalsızdır, lakin zinətin digər

hallarında, o cümlədən, bilərzik və sair kimi şeylərdə naməhrəmdən örtülməlidir, .naməhrəm də ona baxa bilməz. İstifta

Sistani: Üzdə və əllərdə olan zinət əgər adi camaat arasında olan üzük, yaxud bilərzik qəbilindən olarsa, üzün islah olunması şəklində olarsa, sürmə də qoca qadınlar arasında adət olan sürmələrdən olarsa, ona ləzzət qəsdi olmadan baxmaq işkalsızdır, lakin digər hallarda naməhrəmdən örtülməlidir, naməhrəm də ona baxa bilməz. .İstifta

Məkarim: Əgər zinət və bəzək yüngülvari olsa və ləzzət məqsədi də güdülməzsə, eybi yoxdur. İstifta

Məsələ (Sual) ١٢: Müalicə məqamında kişi əlini naməhrəm qadının bədəninə vura ?bilərmi

:Cavab

Fazil: Əgər kişi naməhrəm qadını müalicə etmək üçün baxmağa, yaxud əlini onun bədəninə vurmağa məcbur olsa eybi yoxdur. Amma əgər baxmaqla, nəzər salmaqla müalicə edə bilərsə əlini vurmamalı; əl vurmaqla müalicə edə bilərsə, baxmamalıdır. .Tovzihul-məsail, məsələ ٢٥٠٧

Məsələ (Sual) ١٣: Kifayət qədər hicaba riayət etməyən naməhrəm müsəlman qadınların əlinə, yaxud ayağına, yaxud ayağının üstünə, yaxud ayağının dabanına, ?yaxud ayağının sağ hissəsinə baxmaq reybə və ləzzət qəsdi olmadan caizdirmi

Cavab: Xeyr, caiz deyildir. Ümumi halda kişilər naməhrəm qadının bədəninin əl və .üzdən başqa heç bir yerinə baxa bilməzlər

İmam, Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, ١٩٣١-ci məsələdən istifadə etməklə

.Fazil: Tovzihul-məsailin ٢٥٠١-ci məsələsindən istifadə etməklə

:Təbrizi, Sistani və Məkarim

Təbrizi: İki ayağa baxmaq (ayağın altı, üstü çıxıntıya qədər) ehtiyata görə caiz deyildir. .İstifta

Sistani: Qadın, öz hicabını riayət edən şəxslərdən olsa, yaxud onu hicaba əmr etdikləri halda, ona etina edirsə, qeyd olunan yerlərə baxmaq caiz deyil, əks halda isə işkalı .yoxdur

Minhacus-salehin, nikah, ۱۴ və ۲۶-cı məsələlərdən istifadə etməklə; Tovzihul-məsail, ۲۴۴۲ və ۲۴۴۳-cü məsələlər.

Məkarim: Yaxşı olar ki, buna baxılmasın (ehtiyat-müstəhəb). İstifta.

Məsələ ۱۴: Əgər kişi naməhrəm qadına baxacağı surətdə günaha düşəcəyindən qorxursa, gərək ona baxmasın.

İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ: ۳۱.

Xamenei: İstifta

Sistani: Minhacus-salehin, nikah, ۱۴ və ۲۶-cı məsələlərdən istifadə etməklə; Tovzihul-məsail, məsələ: ۲۴۴۲-۲۴۴۳.

Bəhcət: Baxmaqdan çəkinsin. İstifta.

Məsələ ۱۵: Naməhrəm şəxsə baxmaq ləzzət və şəhvət məqsədilə haramdır, hətta əllərə və üzə, yaxud bədəninin həcminə olsa da belə.

İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ: ۳۱.

Bəhcət: Tovzihul-məsail, məsələ: ۱۹۳۱.

Təbrizi: Tovzihul-məsail, məsələ: ۲۴۴۲.

Xamenei: İstifta

Sistani: Tovzihul-məsail, ۲۴۴۲-۲۴۴۳-cü məsələlərdən istifadə etməklə; Minhacus-salehin, nikah, məsələ: ۱۴.

Fazil: Tovzihul-məsail, məsələ: ۲۵۰۱.

Məsələ ١۶: Hər şeyə, yaxud hər bir şəxsə ləzzət qəsdilə baxmaq, yaxud fəsada düşmək qorxusu olduğu zaman baxmaq haramdır (həyat yoldaşı istisna olmaqla). Hətta məhrəm şəxsə baxış da olsa belə. İstər qadına baxış olsun, istərsə də kişiyə, istər heyvana olsun, istər cansızlara, istər şəkilə olsun, istərsə də kinoya, istər heykələ olsun, istərsə də başqa bir şeyə. Hətta insanın güzgüdə öz bədəninə, yaxud başqa .yerlərə şəhvətçilik məqsədilə baxması haramdır

İmam, Bəhcət, Fazil: İstifta

.İmam: Tovzihul-məsail, müxtəlif məsələlər bölməsindən istifadə etməklə, səh.٢٨

Fazil: İstifta

:Təbrizi, Xamenei və Məkarim

Sual: İnsanın şəhvət hisslərini təhrik edən hər bir şeyə baxmaq haramdırmı, hətta ?insan öz bədəninə baxsa da belə

Təbrizi: Şəxsin öz bədəninə sadəcə baxışı haram deyildir, amma əgər şəhvətinin təhrik .olunmasına səbəb olarsa, caiz deyildir. İstifta

Xamenei: İnsanın cinsi qərizəsinin (instinktinin) təhrik olunmasına səbəb olan hər bir .şey haramdır, yalnız ər-arvad arasında istisna olunur. İstifta

Məkarim: Bu hökm həm insana, həm də heyvana şamildir, bunlardan başqa şeylədə əgər fəsada səbəb olacaqsa, caiz deyildir. İstifta

Məsələ ١٧: Həkim insana məhrəm deyildir, buna görə də (zərurət halından başqa hallarda) hətta müalicə məqsədilə olsa belə, naməhrəm qadının bədəninə baxa bil.. .məz

.İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ: ٣١

.İmam: Təhrir, nikah, məsələ: ٢٢

.Bəhcət: Tovzihul-məsail, ۱۹۴۱ və ۱۹۴۲-ci məsələlərdən istifadə etməklə

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۲۴۵۱

Xamenei: İstifta

Sistani: Minhacus-salehin, nikah, ۱۴ və ۲۰-ci məsələlərdən istifadə etməklə; Tovzihul-məsail, məsələ: ۲۴۴۲ və ۲۴۵۰.

.Fazil: Tovzihul-məsail, ۲۵۰۶-۲۵۰۷-۲۵۰۸-ci məsələlərdən istifadə etməklə

.Məkarim: Tovzihul-məsail, məsələ: ٢٠٨٩

Məsələ ١٨: Əgər həkim zərurət halında naməhrəm şəxsin bədəninin bir üzvünə baxmağa məcbur olsa, bu zaman zərurətin tələb etdiyi miqdarla kifayətlənməlidir və o üzvdən başqa bir şeyə baxmamalıdır, əgər mümkündürsə, paltarın üstündən müayinə .etməlidir

İmam, Bəhcət, Təbrizi, Sistani, Xamenei, Fazil və Məkarim: Əvvəlki məsələnin .mənbələrindən istifadə etməklə

.İmam: Təhrir, nikah, məsələ: ٢٢; Tovzihul-məsail, məsələ: ٢٤٤١

Məsələ ١٩: Kişilər müsəlman naməhrəm qadına iynə vura bilməzlər; çünki bu əməl qadına baxmağa və ya əl vurmağa səbəb olacaqdır, hətta əgər iynəni onun damarına vursa da belə. Əlbəttə, əgər zərurət məqamı olsa və iynəni vurmaq üçün başqa heç bir .məhrəm şəxs olmazsa, işkalı yoxdur

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: Əvvəlki məsələnin .mənbələrindən istifadə etməklə

Məsələ ٢٠: Rentgen şəkilləri, radioloji şəkillər çəkmək əgər naməhrəmin bədəninə baxmağa səbəb olarsa, laboratoriyada analiz olunmaq üçün qan götürmək, sonoq-rafiya, yaxud başqa hər hansı bir həkim əməliyyatı bu sahədə mütəxəssis olan qadın həkiminə müraciət etmək mümkün olan vaxta qədər – bütün bu işlərin naməhrəm kişi .tərəfindən yerinə yetirilməsi haramdır

.İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ: ٣٥

İmam və Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, ١٩٤١ və ١٩٤٢-ci məsələlərdən istifadə etməklə

.Təbrizi: Tovzihul-məsail, ٢٤٥١-ci məsələdən istifadə etməklə

:Sistani

Sistani: Əlbəttə, naməhrəm qadının bədəninə baxmağın caiz olduğu yerlər istisna olunur (bu mətləbin ətraflı izahı və baxışın caiz olan yerləri baxış bölməsində qeyd olunub.

Minhacus-salehin, ۱۶ və ۲۶-cı məsələlərdən istifadə etməklə; Tovzihul-məsail, ۲۴۴۲ və ۲۴۴۳-cü məsələlərdən istifadə etməklə.

Məsələ (Sual) ۲۱: Bazarlarda, ümumi yerlərdə və ya insanın evində təsadüfi olaraq gözü elə naməhrəmlərə düşür ki, ya özlərini bəzəmişlər, ya da öz hicablarına kamil şəkildə riayət etmirlər. Bu cür baxışların hökmü nədir?

Cavab: Haram olan baxış (naməhrəmə) baxmaqdır, sadəcə gözün düşməsi yox. Buna görə də insanın təsadüfi olaraq gördüyü şeylərin işkalı yoxdur, lakin dərhal öz nəzərini .ondan döndərməlidir ki, baxmaq hökmü yaranmasın

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani: İstifta

.Fazil: Cameul-məsail, ۲-ci cild, Sual: ۱۰۶۵

Sistani və Məkarim: Əlbəttə, nəhy olunduqları təqdirdə qəbul etməyən qadınlara gəldikdə isə, ləzzət qəsdi və harama düşmək qorxusu olmadan baxmağın işkalı .yoxdur

Məsələ ۲۲: Bir şəxsin gözü hicabı olmayan naməhrəm şəxsə düşməsi məqsədilə bir .yerə getməsi haramdır

İmam, Təbrizi, Xamenei: İstifta

Bəhcət, Sistani və Fazil: Getməyin eybi yoxdur, lakin naməhrəmə baxmaqdan .çəkinməlidir. İstifta

Məsələ (Sual) ۲۳: Kafir qadınların bədəninin, adətən örtmədikləri yerlərinə baxmağın ?hökmü nədir

:Cavab

Fazil: Əgər insan kafir qadınların bədənlərini adətən örtmədiyi yerlərə ləzzət qəsdi olmadan baxsa, harama düşəcəyindən qorxmayacağı halda eybi yoxdur. Tovzihul-.məsail, ۲۵۰۲

Buna əsasən, əgər bir şəxs naməhrəmə gözü düşsün deyə, xüsusi bir zamanda bir ⁕ yerdən keçsə, yaxud gözü naməhrəmə düşməsi üçün naməhrəmlərin çox gediş-gəliş etdiyi yerdə bir işi görmək istəsə, yaxud misal üçün, naməhrəmlərin çoxunun olduğu avtobusa minsə, yaxud əyləncə və idman üçün daha çox naməhrəm qadınların toplaşdığı yerə getsə və s. bir sözlə, əgər əsas etibarı ilə gözünün naməhrəmə .düşməsi üçün bir işi seçsə, bu iş caiz deyil və bundan uzaqlaşmaq vacibdir

Məsələ ۲۴: Bir yerdə hicaba riayət etməyən, yaxud ümumiyyətlə hicabı olmayan qadınların olduğunu bilə-bilə, gözü naməhrəmə düşsün deyə, kişinin o yerə getməsi .haramdır

İmam, Təbrizi, Xamenei və Məkarim: İstifta

:Bəhcət, Sistani və Fazil

səh:۱۵

Bəhcət, Sistani və Fazil: Onun getməyinin eybi yoxdur, lakin naməhrəmə baxmaqdan .çəkinməlidir

.İstifta

:NƏTİCƏDƏ ❊

Gözün naməhrəmə düşməsi üçün damın üstünə çıxmaq, yaxud pəncərənin ağzında dayanmaq, yaxud otağa və aşpazxanaya daxil olmaq, yaxud naməhrəm şəxsin olduğunu yəqin etdiyi halda, naməhrəmi görməkdən ötrü ora getsə, yaxud bir anlığa da olsa belə, qapının və pəncərənin arasından, yaxud pərdənin arxasından otağın .daxilinə baxmaq və bu kimi halların hamısı haramdır

Məsələ ٢٥: Kənd və səhrada yaşayan və kamil hicaba adət etməyən qadınların gediş-gəliş etdiyi bazarlara gedib-gəlməyin, insan baxışının onlara düşəcəyini dəqiq bilsə də .belə, eybi yoxdur. Eləcə də onlarla müamilə etməyin eybi yoxdur

.İmam, Fazil və Məkarim: Ürvə, nikah, məsələ: ٢٧

Təbrizi və Xamenei: İstifta

Bəhcət: Əzhər (ən zahir) nəzərə görə, səhrada yaşayan qadınlara və onlardan qeyrilərinə (misal üçün, kənddə yaşayan və islami örpəyə adət etməyən qadınlara) ləzzət qəsdi olmadan (bu kimi yerlərdə gediş-gəliş etmək və onlarla al-ver etmək) caizdir. Amma harama düşmə qorxusu olan hallar istisna olunur, yəni bu şərtlə ki, harama düşmə qorxusu olmasın.) Buna əsasən, onlarla al-ver etmək və sair .ehtiyacları təmin etmək caizdir. Tovzihul-məsail, məsələ: ١٩٣٥

Sistani: Mübtəzilə (hicabsız, yaxud kamil hicaba riayət etməyən) qadınlara baxmağın – əgər bir kəs onlara hicabı əmr etsə, etina etməzlərsə – işkalı yoxdur, bu şərtlə ki, ləzzət qəsdi və haram düşmə qorxusu olmasın. Bu hökmdə kafir qadınları ilə digər qadınlar arasında (müsəlman qadınları, səhrada yaşayan qadınlar və s.) heç bir fərq yoxdur. Həmçinin onların əlləri və üzü ilə adətən örtülməyən sair bədən üzvləri .arasında heç bir fərq yoxdur

.Minhacus-salehin, nikah, məsələ: ۲۶; Tovzihul-məsail, məsələ: ۲۴۴۳

Məsələ ٢۶: Naməhrəm qoca qadınların dirsəyə qədər əllərinə, başlarının tükünün bir miqdarına, dizə qədər ayaqlarına, çənələrinin altına və boyunlarına baxmağın işkalı .yoxdur

.İmam, Fazil: Ürvə, nikah, məsələ: ٣۵

Sistani: İstifta

.Təbrizi: Siratun-nəcat, ٨٩٠-cı sualdan istifadə etməklə

Bəhcət: Qoca qarının bədəninə baxmağın, ləzzət qəsdi omaldan işkalı yoxdur. .Tovzihul-məsail, məsələ: ١٩۴٣

Xamenei: Ərə getməsinə heç bir ümidi olmayan qoca qadınların saçına baxmağın işkalı .yoxdur. İstifta

Məsələ ٢٧: Baxılması caiz olmayan hər kəsə şüşənin arxasından, yaxud güzgüdə, .yaxud duru suda, yaxud onun əksini göstərən hər bir şeydə baxmaq caiz deyildir

.İmam, Fazil və Məkarim: Ürvə, sətr və satir, ٢-ci məsələdən istifadə etməklə

İmam, Bəhcət və Xamenei: İstifta

.Təbrizi: Tovzihul-məsail, məsələ: ٢۴٠۵

Sistani: Minahacus-salehin, əhkamul-xəlvət, ۵۵-ci məsələdən əvvəl, nikah, ١٢ və ٢٠-ci .məsələlərdən istifadə etməklə

Məsələ (Sual) ٢٨: Kişilərin, ləzzət qəsdi olmadan çox çirkin olan qadınlara baxması (.caizdirmi? (Əlbəttə, əgər öz hicablarına riayət etməmiş olsalar

Təbrizi: Ehtiyat-vacibə görə gərək baxmasınlar. Çünki əgər qadın qoca olmazsa, kişi .ləzzət qəsdi olmadan ona baxacağına əmin ola bilməz. Siratun-nəcat, ٨٩١-ci sual

Bəhcət və Sistani: Naməhrəmə baxmağın (haram olmasında) gözəl ilə çirkin arasında .heç bir fərq yoxdur. İstifta

.İmam, Fazil, Məkarim: Ürvə, Nikah, ۳۱-ci məsəldən istifadə etməklə

.İmam: Təhrir, Nikah, ۱۸-ci məsələdən və istiftadan istifadə etməklə

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۱-ci məsələdən istifadə etməklə

Xamenei: İstifta

Məsələ ۲۹: Naməhrəm qadının bədəninə baxmaq haramdır, hətta o qadın başa düşsə də, başa düşməsə də, istər kor olsun, istər görən, istər naməhrəm onun qohumların-dan olsun (qardaşı arvadı, əmi arvadı, xala qızı və s. kimi), yaxud yad olsun, hətta əgər reybə və ləzzət qəsdi olmadan baxsa belə, onun baxışı haramdır (üz və əllərin hökmü .(deyilmişdir

.İmam, Fazil və Məkarim: Ürvə, nikah, ٣١-ci məsələdən istifadə etməklə

.İmam: Təhrir, nikah, ١٨-ci məsələ və İstiftadan istifadə etməklə

.Bəhcət: Tovzihul-məsail, ١٩٣١-ci məsələdən istifadə etmələ

Xamenei: İstifta

Sistani: Naməhrəmə baxmağın hökmü deyildi və yuxarıdakı halların heç birində fərq .yoxdur. İstifta

.Məsələ ٣٠: Sünnü qadınlarının hökmü müsəlman qadının hökmü kimidir

İmam, Xamenei, Fazil, Məkarim: İstifta

## b) QEYRİ–MÜSƏLMAN QADINLAR

Məsələ ٣١: Qeyri-müsəlman olan naməhrəm qadınlarının – istər kitab əhli, istərsə də kafirlərin bədəninin müəyyən yerlərinə – adətən örtmədiyi yerlərə baxmağın işkalı yoxdur, bu şərtlə ki, ləzzət və reybə qəsdi ilə olmasın. Lakin vacib ehtiyata görə, kişi .onların adət üzrə örtdükləri yerə baxmamalıdır

.İmam, Fazil və Məkarim: Ürvə, nikah, məsələ: ٢٧

.İmam: Təhrir, nikah, məsələ: ٢٧; Tovzihul-məsail, məsələ: ٢٤٤٨

.Təbrizi: Tovzihul-məsail, məsələ: ٢٤٤٣

.Fazil: Tovzihul-məsail, məsələ: ٢٥٠٢

Bəhcət: Zimmə əhlinin[٤] qadınları və doğulduğu zamandan küfrə hökm olunan kafir qadınlar və onların adətən örtmədikləri yerlərə ləzzət qəsdi olmadan baxmaq – harama düşmək qorxsu olmazsa – caizdir. Amma onların adət üzrə örtdükləri yerə .baxmaq caiz deyildir. Camiul-məsail, ٣-cü cild, səh.٣٧; Tovzihul-məsail, məsələ: ١٩٣٥

Xamenei: Qeyri-müsəlman qadınların bədəninə – örtülməsi adət olmayan miqdarda – .ləzzət qəsdi olmadan baxmağın işkalı yoxdur. İstifta

Sistani: Hicaba əmr edildikləri surətdə etina etməyən hicabsız qadınların bədəninə baxmağın işkalı yoxdur, bu şərtlə ki, insanın ləzzət qəsdi olmasın və harama düşmək ehtimalı verilməsin. Bu hökmdə kafir qadınlarla digər qadınlar arasında (müsəlman, məsihi, yəhudi və s.) heç bir fərq yoxdur, eləcə də onların əlləri və üzü ilə örtülməsi .adət olunmayan yerləri arasında fərq yoxdur

.Tovzihul-məsail, məsələ: ٢٤٤٣

İzah: Qeyri-müsəlman naməhrəm qadınları onların öz aralarındakı qadınların adət üzrə örtdüyündən özlərini az örtərlərsə, ehtiyat-vacibə görə ona baxmaq olmaz. Misal üçün, şəhvət və ləzzət məqsədilə xüsusi paltar geyinmiş olsalar. Deməli, qeyri-müsəlman qadınlarının adətən örtmədikləri yerlərə – saçlar, əllər, dizə qədər ayaqlar .və bədənlərinin digər yerlərə baxmağın işkalı yoxdur

.Məsələ ٣٢: Kafirin övrəteyninə baxmaq, ehtiyat-vacibə görə caiz deyildir

.Sistani: Minhacus-salehin, nikah, məsələ: ٣٢; Tovzihul-məsail, məsələ: ٢۴۴۵

.Bəhcət: Kafirin övrəteyninə baxmaq haramdır

Məsələ ٣٣: Əgər insan qeyri-müsəlman naməhrəmə baxacağı təqdirdə, fəsada düşəcəyindən qorxsa, onda ona baxmamalıdır.

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: Əvvəlki məsələnin mənbələrindən istifadə etməklə.

.İmam: Tovzihul-məsail, ٢۴٣۴-cü məsələdən istifadə etməklə

## KİŞİNİN UŞAQLARA BAXMASI

Məsələ ۳۴: Əgər uşaq oğlan olarsa, onun bədəninə baxmaq müməyyiz olduğu vaxtdan əvvəl işkalı yoxdur, bu şərtlə ki, ləzzət və reybə qəsdi olmasın. Amma müməyyiz .həddinə çatdıqdan sonra, ehtiyat-vacibə görə, onun övrəteyninə baxmaq caiz deyildir

İmam, Fazil və Məkarim: Ürvə, sətr və satir, ۴-cü məsələdən qabaqkı məsələlərdən .istifadə etməklə

.İmam: Təhrir, nikah, məsələ: ۲۴; Tovzihul-məsail, məsələ: ۲۴۳۶

Təbrizi və Xamenei: İstifta

.Sistani: Minhacus-salehin, məsələ: ۱۲; Tovzihul-məsail, məsələ: ۲۴۴۵

.Fazil: Tovzihul-məsail, məsələ: ۲۴۰۵

Bəhcət: Hətta həddi-büluğa çatmayan müməyyiz oğlan uşağının övrəteyninə baxmaq .haramdır, hətta ləzzət qəsdi olmasa belə

.Tovzihul-məsail, ۱۹۳۸ və ۱۹۴۳-cü məsələlərdən istifadə etməklə

:NƏTİCƏDƏ ۞

Atalar ehtiyatlı olmalı və bilməlidirlər ki, hamamlarda, yaxud başqa yerlərdə özlərinin .müməyyiz olan övladlarının övrətinə baxmasınlar

?Məsələ (Sual) ۳۵: Müməyyiz yaşı hansı yaşdır

Cavab: Kişi ilə qadının öz aralarında başa düşdüyü şeyləri onlar da başa düşdüyü .həddə deyilir

İmam: İstifta

Bəhcət, Sistani və Məkarim: Uşağın, kişi və qadının arasında baş verən işlərin yaxşı və .pis olduğunu dərk etdiyi yaş həddidir

.Bəhcət və Fazil: Uşağın yaxşı və pisi bir-birindən ayırd etdiyi yaş həddidir

.Bəhcət: Tovzihul-məsail, ١٩٣٨-ci məsələdən istifadə etməklə

.Fazil: İstifta

Sistani və Məkarim: Uşağın həddi-büluğa çatmadığı, lakin yaxşı ilə pisi ayırd etdiyi yaşdır və ehtimal verilir ki, onun naməhrəmə baxması şəhvətin təhrik olunmasına .səbəb olsun

.Sistani: Tovzihul-məsail, ٢۴۴۴-cü məsələdən istifadə etməklə

.Məkarim: Tovzihul-məsail, ۲۰۸۲-ci məsələdən istifadə etməklə

Məsələ ۳۶: Əgər uşaq insana məhrəm olan qız olarsa, məsələn insanın öz qızı, bacısı, qardaşının qızı, bacısının qızı və s. müməyyizlik həddindən qabaq onun bədəninə baxmağın işkalı yoxdur, amma ondan sonra, ehtiyat-vacibə görə, onun övrəteyninə .baxmaq olmaz

İmam, Fazil və Məkarim: Ürvə, sətr və satir, ۴-cü məsələdən qabaqkılardan istifadə .etməklə

.Fazil: Tovzihul-məsail, məsələ: ۲۵۰۴

.Sistani: Minhacus-salehin, nikah, məsələ: ۱۲; Tovzihul-məsail, məsələ: ۲۴۴۵

Bəhcət, Təbrizi: Həddi-büluğdan qabaq müməyyiz qızın övrəteyninə baxmaq hətta .ləzzət qəsdi olmadan belə, haramdır

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۸ və ۱۹۴۳-cü məsələlərdən istifadə etməklə

.Təbrizi: İstifta

Xamenei: Hətta müməyyiz və məhrəm olan qız uşağının da övrəteyninə baxmaq caiz deyildir. Baxmayaraq ki, ləzzət və reybə qəsdi olmadıqda müməyyizlik yaşından əvvəl ona baxmağın işkalı yoxdur. İstifta

Məsələ ۳۷: Əgər qız insana naməhrəm olan müməyyiz həddində olarsa, ehtiyat-vacibə .görə, kişi qızların adətən örtükləri yerlərə baxmamalıdır

.İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۳ və ۲۴۳۶; Təhrir, nikah, məsələ: ۲۵, nəzər məsələsi

.Məkarim: Tovzihul-məsail, məsələ: ۲۰۸۱

:Bəhcət, Təbrizi, Xamenei, Sistani və Fazil

Sual: Həddi-büluğa çatmayan qız uşağının bədəninə baxmaq Tovzihul-məsailin ۲۴۴۷-ci məsələsində reybə olmadığı təqdirdə caiz hesab olunmuşdur, lakin həmin risalənin ۵۷۸-ci səhifəsində yalnız adətən örtülməyən yerlərə baxmaq caiz hesab edilmişdir.

?Bunlardan hansı səhihdir və hansına əməl olunmalıdır

.Təhrirul-vəsilənin nikah kitabına baxın

.İzah: Bu məsələdə Xamenei ilə İmam Xomeyninin nəzərində heç bir fərq yoxdur

Bəhcət: Ehtiyat-vacibə görə kişinin, doqquz yaşı tamam olmayan, lakin yaxşı ilə pisi ayırd edə bilən (müməyyiz) qız

uşağının saçına və bədəninə baxması caiz deyildir, baxmayaraq ki, ləzzət qəsdi .yoxdur

.Tovzihul-məsail, məsələ: ۱۹۳۲

Təbrizi: Zərurət halı istisna olunmaqla, müməyyiz uşağın övrəteyninə baxmaq caiz .deyildir. İstifta

Xamenei: Kişinin naməhrəm qız uşağının bədəninə baxması həddi-büluğa çatmayıncaya qədər ləzzət və reybə üzündən olmadıqda, işkalı yoxdur. Əlbəttə, .övrəteyn istisna olunur ki, müməyyizlik həddində ona baxma caiz deyildir. İstifta

Sistani: Həddi-büluğa çatmayan qızın bədəninə baxmaq ləzzət və reybə qəsdi olmadan işkalı yoxdur. (Övrəteynin hökmü istisna olunur ki, onun hökmü yuxarıda deyildi.) Baxmayaraq ki, ehtiyat-müstəhəbbə görə yaxşı olar ki, qızların adətən adi .paltarların vasitəsilə örtdükləri yerlərə baxılmasın

.Minhacus-salehin, nikah, məsələ: ۲۳

Fazil: Həddi-büluğa çatmayan qızın bədəninə və saçlarına baxmaq əgər ləzzət qəsdilə olmazsa və insanın şəhvətini təhrik etməzsə, eləcə də ona baxmağın vasitəsilə insanın .harama düşəcəyindən qorxusu olmazsa, eybi yoxdur

.Tovzihul-məsail, məsələ: ۱۹۳۲

:NƏTİCƏDƏ ❊

Naməhrəm olan həddi-büluğa çatmamış qız uşağının saçlarına, əlinə, dizə qədər ayaqlarına, boynuna və üzünə baxmağın bu şərtlə işkalı yoxdur ki, ləzzət və reybə .qəsdi olmasın

Məsələ (Sual) ۳۸: Onların bədəninin başqa yerlərinə, o cümlədən bud, qarın, övrəteyn, .sinə və sair kimi yerlərə baxmaq ehtiyat vacibə görə caiz deyildir

.İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۳ və ۲۴۳۶; Təhrir, nikah, məsələ: ۲۵

Fazil: İstifta

.Məkarim: Tovzihul-məsailin ۲-۸۱-ci məsələsindən istifadə etməklə

:Bəhcət, Xamenei və Sistani

Bəhcət: Müməyyiz qızın bədəninə baxmaq ehtiyat-vacibə görə, caiz deyildir, amma .onun övrəteyninə baxmaq haramdır

.Tovzihul-məsail, məsələ: ۱۹۴۳–۱۹۴۸ və ۱۹۳۲-ci məsələlərdən istifadə etməklə

səh:۲۳

Xamenei: Övrəteynə, müməyyizlik həddə olduqda baxmaq caiz deyildir və onun bədəninə baxmaq həddi-büluğa çatmazdan qabaq ləzzət və reybə qəsdi olmazsa, .işkalı yoxdur. İstifta

Sistani: Ehtiyat-müstəhəbbə görə, yaxşı olar ki, müməyyiz qız uşağının bədəninə .baxılmasın, lakin onun övrəteyninə baxmaq ehtiyat-vacibə görə, caiz deyildir

Minhacus-salehin, nikah, məsələ: ۱۲ və ۲۳; Tovzihul-məsail, məsələ: ۲۵۴۵-dən istifadə .etməklə

## QADININ BAXMASI

### QADININ BAŞQA QADINLARA BAXMASI

Məsələ ۳۹: Qadınlar övrəteyn istisna olmaqla, digər qadınların bədəninin hər bir yerinə baxa bilərlər, bu şərtlə ki, ləzzət və reybə qəsdi olmasın.

İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ: ۲۸; Ürvə, sətr və satir, ۱-ci məsələdən qabaq istifadə edilməklə.

İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۶.

Bəhcət: Tovzihul-məsail, məsələ: ۱۹۴۰.

Təbrizi: Tovzihul-məsail, ۲۴۴۵ və ۲۴۴۷-ci məsələlərdən istifadə etməklə.

Xamenei: İstifta

Sistani: Minhacus-salehin, nikah, məsələ: ۱۲.

Fazil: Tovzihul-məsail, məsələ: ۲۵۰۶.

Məkarim: Tovzihul-məsail, məsələ: ۲۰۸۵.

⁕ NƏTİCƏDƏ:

Hamamlarda, hovuzlarda (baseynlərdə), idman salonlarında, airobika, dərzi salonlarında və s. kimi yerlərdə qadın başqa qadının bədəninə, yaxud da onun üzünə və əllərinə ləzzət qəsdi ilə baxsa, yaxud fəsada düşmək qorxusu olsa, onun bu cür baxışı caiz deyildir, istər baxan şəxs o qadını tanısın, istərsə də tanımasın, istər o qadın cavan olsun, istərsə də qoca, istər gözəl olsun, istərsə də çirkin.

İmam, Xamenei, Sistani, Fazil: Əvvəlki məsələnin mənbələrindən istifadə etməklə.

İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۸.

Məsələ (Sual) ۴۰: Qadınların övrəteyninə baxmaq başqa qadınlar üçün də haramdır, yalnız zərurət halı istisna olunur.

.İmam, Fazil və Məkarim: Ürvə, sətr və satir, ۱-ci məsələdən qabaqkı

.İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۶

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۸ və ۱۹۴۲-ci məsələlərdən istifadə etməklə

.Təbrizi: Tovzihul-məsail, ۲۴۴۵-ci məsələdən istifadə etməklə

Xamenei: İstifta

Sistani: Tovzihul-məsail, ۲۴۴۵ və ۲۴۵۰-ci məsələlərdən istifadə etməklə; Minhacus-salehin, nikah, məsələ: ۱۲ və ۲۰.

:NƏTİCƏDƏ ❊

səh:۲۵

Uşaqlığın yollarının bağlanmasında istifadə olunan aparatlardan istifadə etmək, kanalların bağlanması və s. kimi əməllərdən istifadə olunması hamiləliyin qarşısını almaq məqsədi ilə olduqda və övrətə baxmağa səbəb olarsa, haramdır. Yalnız zərurət məqamı istisna olunur. Hamiləliyin özünün qarşısını almaq, əgər başqasının insanın övrətinə nəzər salmasına səbəb olmayacaqsa, işkalı yoxdur. Bu şərtlə ki, bu iş qadını .əbədi olaraq sonsuz etməsin və istədiyi hər vaxt hamilə ola bilsin

Məsələn: Bir qadının həyat yoldaşı həkim olsa və bu üslublarından istifadə etməklə .həyat yoldaşının hamiləliyinin qarşısını ala bilsə, işkalı yoxdur

:Diqqət

Hamiləliyin qarşısının alınması əgər haram işə səbəb olmazsa, eybi yoxdur, əgər haram işə səbəb oarsa, caiz deyildir və diqqət yetirmək lazımdır ki, hamiləliyin qarşısının alınma üslublardan bəziləri aşağıda qeyd olunan üç haram işə gətirib çıxarır :ki, sonrakı bölmələrdə qeyd olunacaqdır

Zərurət məqamından başqa hallarda qadının başqa qadının övrətinə baxmasına-۱ .səbəb olmaq

Zərurət məqamından başqa hallarda həkim üçün övrəti açmaq (örpək bölməsində-۲ .(qeyd olunacaqdır

Zərurət məqamından başqa hallarda övrətə toxunmaq (təmaslar bölməsində qeyd-۳ .(olunacaqdır

Məsələ (Sual) ۴۱: Salam, siz AY-YU-Dİ-dən istifadə etməyin caiz olması ilə əlaqədar cavabınızda belə qeyd etmisiniz: Əgər bu cihazdan istifadə etmək (Ay-Yu-Di) haram toxunmağa, yaxud nəzərə səbəb olarsa, caiz deyildir. Buyurun görək qadının bətninə AY-YU-Dİ qoymaq həkimlə əlaqədar işlərdən sayılırmı və həkim, yaxud qadın maması və zərurət halında kişi həkimi bu əməli yerinə yetirə bilərmi? Necə ki, sair xəstəliklərdə adi qaydadır, yaxud bu məsələ həkimlərdən qeyrisinə aid olan işlərdəndirmi, belə ki, ?yalnız ərinin vasitəsilə bu cihaz qoyula bilər

Cavab: Bu əməlin özü əgər uşağın saldırılmasına, yaxud ananın sonsuz olmasına səbəb olmazsa, işkalı yoxdur və toxunmaq və nəzər etməyin haramlığı da öz hökmündə qalır, bu barədə heç bir zərurət yoxdur, çünki digər yollarla hamiləliyin .qarşısını almaq olar

İmam: İstifta

.Bəhcət: Tovzihul-məsail, müxətəlif məsələlərin ۱۱-cisindən istifadə etməklə

.Təbrizi: Siratun-nəcat, ۸۷۳ və ۸۷۴-cü suallardan istifadə etməklə

.Fazil: Cameul-məsail, ۲-ci cild, ۱۰۳۷-ci sualdan istifadə etməklə

:Xamenei, Sistani və Məkarim

Xamenei: Bu əməlin öz-özlüyündə işkalı yoxdur və toxunmağın və nəzər etməyin haramlığı öz qüvvəsində qalır və bu barədə heç bir zərurət yoxdur. Çünki başqa .yollarla hamiləliyin qarşısını almaq olar. İstifta

Sistani: Caizdir ki, qadın hamiləliyin qarşısını alan AY-YU-Dİ cihazından və başqa şeylərdən, mühüm zərəri olmayacağı təqdirdə, istifadə etsin. Lakin bu cihazın qoyulması, onun bədəninə və toxunulması caiz olmayan müəyyən bir hissəsinə baxmağı və ya toxunmağı lazım tutmamalıdır. Buna əsasən caiz deyildir ki, ərdən başqası bu işi yerinə yetirsin, yalnız zərurət halı istisna olunur. Məsələn: Qadının hamilə olması zərərli olarsa, yaxud adətən dözüləsi mümkün olmayan məşəqqətə və ağrıya səbəb olarsa. Başqa yollarla müyəssər olmazsa, yaxud o yollar zərər, yaxud çətinliyə səbəb olarsa. Bu, o haldadadır ki, həmin dəstgahın nütfəni bağlandıqdan sonra onu siqt etməsi (aradan aparması) məlum olmazsa, əks halda, ehtiyata əsasən bu iş tərk olunmalıdır

.Tovzihul-məsail, əlavələrdə ۷۱-ci məsələ

Məkarim: Əgər zərurət olsa, həkim müalicəsinin sair hallarının hökmünə malikdir. .İstifta

## QADININ MƏHRƏM KİŞİLƏRƏ BAXMASI

Məsələ ۴۲: Qadın, övrəteyn istisna olmaqla özünə məhrəm olan kişilərin bədəninə baxa bilər, bu şərtlə ki, ləzzət və reybə qəsdilə olmasın (həyat yoldaşı bundan istisna olunur ki, onda heç bir şərt yoxdur).

.İmam və Fazil: Ürvə, sətr və satir, ۱-ci məsəblədən qabaq, nikah, məsələ: ۳۲

.Bəhcət: Tovzihul-məsail, məsələ: ۱۹۳۹

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۲۴۴۶

Xamenei: İstifta

.Sistani: Minhacus-salehin, nikah, məsələ: ۱۳; Tovzihul-məsail, məsələ: ۲۴۴۶

.Fazil: Tovzihul-məsail, məsələ: ۲۵۰۵

Məkarim: Bir-birinə məhrəm olan kişi və qadın (bacı və qardaş kimi) bir-birinin bədəninə məhrəm arasında adi olan miqdarda baxa bilərlər. Bundan qeyri hallarda .ehtiyat budur ki, baxmasınlar

Tovzihul-məsail, məsələ: ۲۰۸۲; Ürvə, sətr və satir, ۱-ci məsələdən qabaq, nikah, .məsələ: ۳۲

:NƏTİCƏDƏ ❊

Ləzzət və reybə qəsdilə məhrəmlərin, o cümlədən kürəkən, oğul, qardaş, qardaş oğlu və sairənin bədəninin hər bir yerinə baxmaq caiz deyildir və bu işdən ictinab .olunmalıdır

Məsələ ۴۳: Örtüyün üstündən övrəteynin həcminə baxmaq öz ardınca fəsad .gətirməzsə, baxış da ləzzət məqsədi daşımazsa, işkalı yoxdur

İmam, Təbrizi, Sistani, Xamenei, Fazil: İstifta

Bəhcət: Əgər naməhrəmi təhrik edib həyəcanlandırmazsa, işkalı yoxdur. İstiftadan .istifadə etməklə

Məkarim: Əgər həcmi tamamilə aşkar olsa, ehtiyat-vacib ona baxışı tərk etməkdir. .İstifta

## QADININ NAMƏHRƏMƏ KİŞİLƏRƏ BAXIŞI

Məsələ ۴۴: Qadının naməhrəm kişilərin bədəninə baxması üzü, əlləri və kişilərin adətən .örtmədiyi miqdar istisna olunmaqla, digər yerlərinə baxmaq haramdır

İmam: Ürvə, nikah, ۳۱-ci məsələdən istifadə etməklə; Təhrir, nikah, məsələ ۱۹; Tovzihul-məsail, ۲۴۳۳-cü məsələ; İstifta

Xamenei: İstifta

.Məkarim: Tovzihul-məsail, məsələ: ۲۰۸۰

Bəhcət: Qadının naməhrəm kişinin bədəninə baxması ehtiyat-vacibə görə haramdır. Amma qadının naməhrəm kişinin

bədəninin bəzi yerlərinə – başı kimi əksər hallarda görünən yerlərə baxmasının caizliyi işkallı deyildir, amma əgər bu baxış məsiyətə səbəb olarsa, bu istisnadır. Tovzihul-məsail, məsələ: ١٩٣٣.

Təbrizi: Qadınların naməhrəm kişilərin bədəninə – kişilərin adətən örtmədikləri hissələrə, o cümlədən baş, boyun, əllər baxması ləzzət məqsədilə olmazsa, eybi yoxdur. Ehtiyata əsasən ondan qeyri yerlərə baxılmasın, hətta ləzzət məqsədi ilə olmasa da belə. Minhacus-salehin, nikah kitabı.

Sistani: Qadının naməhrəm kişinin bədəninə şəhvət və harama düşmək qorxusu ilə olduğu halda baxması haramdır, hətta ehtiyat-vacibə görə gərək bunlarsız da baxmasın, yalnız bədənin adətən kişilər tərəfindən örtülməyən hissəsi, o cümlədən, baş, əllər, ayağın saqı (dizdən aşağı) istisna olunur ki, qadın bunlara şəhvətsiz və harama düşmə qorxusu olmadan baxsa, işkalı yoxdur. Tovzihul-məsail, məsələ: ٢۴۴٢.

Fazil: Qadının naməhrəm kişinin bədəninə baxması – üzü və əlləri istisna olmaqla – haramdır.

Ürvə, nikah, məsələ: ٣١; Tovzihul-məsail, məsələ: ٢۵٠١.

* NƏTİCƏDƏ:

Naməhrəm kişilərin başının saçı, üzü, biləyə qədər əlləri, çıxıntıya qədər ayaqları və boynuna baxmağın qadınlar üçün işkalı yoxdur, bu şərtlə ki, ləzzət və reybə qəsdi ilə olmasın. Həmçinin qadınlar kişilərin kifayət qədər örtüyü olmadığı idman yarışlarında üzgüçülük, güləş, ağırlıq qaldırma, futbol və sair kimi yerlərdə, idman salonlarına gedə bilməzlər.

Məsələ ۴۵: Münasib olmayan paltar geydikləri halda naməhrəm kişilərin biləklərinə, yaxud sinələrinə, yaxud digər yerlərinə baxmaq – belə ki, qısa qollu paltar geymiş olsalar, yaxud öz yaxalarını açıq qoysalar, yaxud bədəni göstərən nazik paltar geyinsələr və s. (kişilər adətən belə şeylər geyinir – hətta əgər (bu baxış) ləzzət və reybə qəsdi olmazsa, haramdır.

İmam, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: Əvvəlki məsələnin mənbəsindən

.istifadə etməklə

.Bəhcət: Ehtiyat-vacibə görə caiz deyildir

.Tovzihul-məsail, ١٩٣٣-cü məsələdən istifadə etməklə

Məsələ (Sual) ۴۶: Bəzi mömin kişilər məktəblərdə, yaxud başqa yerlərdə müsəlman qadınlara dərs verir və təbii olaraq kişi dərsi lövhədə yazmaq məcburiyyətində qalır, qadınlar da adət üzrə ustadın üzünə və əllərinə baxırlar. Əlbəttə, ləzzət və reybə qəsdi ?olmadan. Onların belə baxışları caizdirmi

Cavab: Kişilərin adət üzrə örtmədikləri yerlərə, o cümlədən üzünə, əllərinə və başqa .yerlərinə ləzzət və reybə qəsdi olmadan baxmalarının işkalı yoxdur

.İmam, Fazil, Məkarim: Ürvə, nikah, ۵١-ci məsələdən istifadə etməklə

İmam: Təhrir, nikah, ١٩-cu məsələdən istifadə etməklə; Tovzihul-məsail, məsələ: ٢۴٣٣; İstifta

Təbrizi, Xamenei, Sistani: İstifta

.Sistani: Tovzihul-məsail, ٢۴۴٢-ci məsələdən istifadə etməklə

Bəhcət: Qadının naməhrəm kişinin bədəninə baxması ehtiyat-vacibə görə haramdır. Amma qadının naməhrəm kişinin əksər hallarda açıq olan bədən yerlərinə, o cümlədən baş, bunun və s. baxmasının caizliyi mümkündür, amma bu cür baxmaq məsiyətə .səbəb olsa, caiz deyildir

Məsələ ۴٧: Qadınların naməhrəm kişilərin bədəninin həcminə paltar altından baxmaları, əgər öz ardınca fəsad gətirməzsə, ləzzət və reybə qəsdi olmazsa, işkalı .yoxdur

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

Məsələ (Sual) ۴٨: Qadınlar ləzzət qəsdi olmadan iynə vurdurmaq, yaxud digər həkim ?işlərini yerinə yetirmək üçün naməhrəm kişinin bədəninə baxa bilərmi

.Cavab: Zərurət məqamı istisna olmaqla caiz deyildir

.İmam, Təbrizi, Fazil və Məkarim: Ürvə, nikah, ٣۵-ci məsələdən istifadə etməklə

Xamenei: İstifta

.Sistani: Tovzihul-məsail, ۲۴۴۲-ci məsələdən istifadə etməklə

Bəhcət: Ehtiyat-vacibə görə zərurət məqamından başqa caiz deyildir. Tovzihul-məsail, .۱۹۳۳ və ۱۹۴۲-ci məsələlərdən istifadə etməklə

səh:۳۰

Məsələ ۴۹: Naməhrəmin bədəninə baxmaq, hətta üzünə və əllərinə ləzzət qəsdilə, .yaxud fəsada düşmək qorxusu olduğu halda haramdır

.İmam, Fazil və Məkarim: Ürvə, sitr və satir, ۱-ci məsələdən qabaq

Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۲-ci məsələdən istifadə etməklə

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۲۴۴۲

.Sistani: Tovzihul-məsail, məsələ: ۲۴۴۲

.Fazil: Tovzihul-məsail, məsələ: ۲۵۰۱

:Diqqət ❊

Naməhrəm kişilərin bədəninə baxmağın caiz olmaması ilə kişinin örtüyünün vacib olması arasında heç bir səbəbiyyət (qarşılıqlı bağlılıq) yoxdur: yəni kişilərin öz bədənini .örtməsi vacib olmasa da, amma qadınların baxmamaları vacibdir

### QADININ UŞAQLARA BAXMASI

Məsələ ۵۰: Uşaq qız olduğu halda, qadın onun müməyyizlik həddinə çatdığı vaxta qədər bütün bədəninə baxa bilər, müməyyizlik həddindən sonra ehtiyat-vacib onun .övrəteyninə baxmamaqdır

.İmam, Fazil, Məkarim: Ürvə, sətr və satir, ۴-cü məsələdən qabaqdan istifadə etməklə

.İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۶

Xamenei: İstifta

Sistani: Minhacus-salehin, ۱۲ və ۲۴-cü məsələlərdən istifadə etməklə; Tovzihul-məsail, .məsələ: ۲۵۴۵

.Bəhcət və Təbrizi: Müməyyiz uşağın övrəteyninə baxmaq haramdır

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۸-ci məsələdən istifadə etməklə

.Təbrizi: Tovzihul-məsail, ۲۴۴۵-ci məsələdən istifadə etməklə

:NƏTİCƏDƏ ⁕

Analar diqqət yetirməlidirlər ki, hamamlarda, yaxud hər bir başqa yerlərdə müməyyizlik həddinə çatmış qızlarının və başqa qızların övrəteyninə baxmasınlar, .hətta ləzzət və reybə qəsdi olmasa belə

Məsələ ۵۱: Uşaq oğlan olduğu halda, qadın onun müməyyizlik həddinə çatmasından əvvəl bədəninin hər bir yerinə baxa bilər və müməyyizlik həddindən sonra ehtiyat-vacibə görə gərək onun övrəteyninə baxmasın. Bu məsələdə məhrəm və naməhrəm .oğlanlar arasında fərq yoxdur

.İmam, Fazil, Məkarim: Ürvə, sətr və satir, ۴-cü məsələdən əvvəldən istifadə edilməklə

.İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۶

Sistani: minhacus-salehin, nikah, ۱۲ və ۲۴-cü məsələlərdən istifadə etməklə; Tovzihul-.məsail, məsələ: ۲۴۴۱

.Bəhcət, Təbrizi: Müməyyiz uşağın övrəteyninə baxmaq haramdır

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۸-ci məsələdən istifadə etməklə

.Təbrizi: Tovzihul-məsail, ۲۴۴۵-ci məsələdən istifadə etməklə

Xamenei: Qadın üçün caizdir ki, həddi-büluğa çatmamış oğlanın bədəninə ləzzət və reybə qəsdi olmadan baxsın, amma müməyyiz oğlanın övrəteyninə baxması caiz .deyildir. İstifta

Məsələ (Sual) ۵۲: Əgər uşağın müməyyizlik həddinə çatıb-çatmamasında şəkk olunsa, ?hökmü nədir

.Cavab: Müməyyiz olmayan uşağın hökmünə malikdir

.İmam, Fazil və Məkarim: Ürvə, nikah, məsələ: ۵۰, səh.۸۰۷

Təbrizi, Xamenei, Sistani: İstifta

Bəhcət: Baxmaq cəhətindən müməyyiz olmayan uşağın hökmündədir, baxmayaraq ki, üqəla (əql sahibləri) tərəfindən ehtimal verilən surətdə daha yaxşısı (müstəhəb olmaq cəhətindən) tənəzzöhdür (çəkinməkdir). İstifta.

səh:٣٢

## ŞƏKK HALINDA BAXMAĞIN HÖKMÜ

Məsələ ۵۳: Əgər insan bir şəxsin ona baxmağın icazə verilib-verilmədiyi şəxslərdən olmasında şəkk etsə, ona baxmamalıdır.

İmam, Sistani, Fazil və Məkarim: Ürvə, nikah, məsələ: ۵۰, səh.۸۰۵.

Bəhcət: Ehtiyat çəkinməkdir. İstifta.

Misal: Əgər bir kişi bir qadını qaranlıqda görsə, yaxud uzaqdan bir qadını görsə və onu tamamilə tanımasa, onun öz məhrəmlərindən biri olmasında (bu halda ona baxmaq caiz olacaq), yoxsa naməhrəmlərdən biri olmasında (belə ki, ona baxmaq caiz deyildir) şəkk etsə, ona baxması caiz deyildir.

Məsələ ۵۴: Əgər bir şəxs bir neçə nəfərin arasında şəkk etsə, belə ki, onların arasında bir məhrəmin olduğunu, amma konkret şəkildə bu şəxslərin hansı birinin olduğunu bilməsə, onların heç birinə baxa bilməz.

İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ: ۵۰, səh.۸۰۶.

Bəhcət və Xamenei: İstifta

Misal: Əgər bir qadının, kifayət qədər örtüyə malik olmayan kişilərin arasında bir məhrəmi olsa, amma onların hansının konkret şəkildə onun məhrəmi olduğunu bilməsə, onların heç birinə baxa bilməz, yaxud bir kişi müəyyən bir qadın məclisində onun məhrəmlərindən birinin olduğunu bilirsə, məhrəmini tapmaq üçün qadınlara baxa bilməz. (O haldadır ki, qadınlar kifayət qədər hicaba malik deyildirlər.)

Məsələ ۵۵: Əgər insan bir şəxsin barəsində şəkk etsə və kişi, yaxud qadın olmasını bilməsə, (misal üçün, havanın qaranlığına, yaxud məsafənin uzaqlığına və s. kimi şeylərə görə) ehtiyat-vacibə görə, gərək ona baxmasın.

İmam və Fazil: Ürvə, nikah, məsələ: ۵۰, səh.۸۰۶.

Bəhcət: Baxmağın işkalı yoxdur, baxmayaraq ki, ehtiyat bunu tərk etməkdə yaxşıdır (müstəhəbdir). İstifta.

.Sistani və Məkarim: Ona baxmağın işkalı yoxdur

.Ürvə, nikah, məsələ: ۵۰

səh:۳۳

Məsələ ۵۶: Əgər bir şeyin insan, yaxud heyvan, yaxud başqa bir şey olmasında şəkk etsə, bu halda ona baxması caizdir.

İmam, Bəhcət, Sistani, Fazil və Məkarim: Ürvə, nikah, məsələ: ۵۰, səh.۸۰۶.

Xamenei: İstifta

səh:۳۴

## FOTO ŞƏKLƏ BAXMAQ

### KİŞİNİN NAMƏHRƏM QADININ ŞƏKLİNƏ BAXMASI

Məsələ ۵۷: Kişi öz hicabına tamamilə riayət edən naməhrəm qadının şəklinə baxa bilər, bu şərtlə ki, ləzzət və reybə qəsdi olmasın, istər onu tanısın, istərsə də tanımasın.

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil və Məkarim: İstifta

Sistani: Minhacus-salehin, nikah, ۲۷-ci məsələdən istifadə etməklə.

Məsələ ۵۸: Əgər naməhrəm şəxs şəkildə kamil hicaba riayət etməzsə, bu halda əgər kişi o qadını tanıyırsa, onun şəklinə baxa bilməz, əgər tanımırsa, naməhrəmin şəklinə baxa bilər, bu şərtlə ki, ləzzət və reybə qəsdi olmasın.

İmam: Əhkami-banovan kitabındakı İstifta, ۴۴-۴۵-ci suallar, səh.۳۳.

Bəhcət və Xamenei: İstifta

Təbrizi: Siratun-nəcat, ۸۷۶-cı sualdan istifadə etməklə.

Fazil: Camiul-məsail, ۱-ci cild, səh.۱۷۲۸ və ۱۷۳۲-ci suallardan istifadə etməklə.

Sistani: Əgər naməhrəm qadın şəkildə kamil hicaba riayət etməmişdirsə, mübtəzəl qadınlardan (ona hicabı əmr etdikdə, etina etməyən pis hicablı, yaxud ümumiyyətlə hicabsız qadınlardan) olmazsa, kişi də onu tanıyırsa, ehtiyat-vacibə görə o şəklə baxmamalıdır, bundan qeyri hallarda ləzzət və reybə qəsdi olmadan baxmağın işkalı yoxdur. Minhacus-salehin, nikah, məsələ: ۳۷.

⁕ NƏTİCƏDƏ:

Əgər kişi qadını tanımırsa, yaxud qadın mübtəzələ qadınlardan olarsa, yaxud öz hicabına kamil şəkildə riayət etmişsə, onun şəklinə baxmağın eybi yoxdur.

Məkarim: Qadın şəri hicabın qorunub saxlanmasına etina edirsə, onun hicabsız olan şəklinə baxmağın işkalı var, yalnız onu tanımasa və öz ardınca bir fəsad gəlməzsə, bu, istisna olunub. Tovzihul-məsail, məsələ: ۲۰۸۷.

:NƏTİCƏDƏ ❊

səh:۳۵

Ya kişi qadını tanıyır, ya tanımır, əgər tanımırsa, onun şəklinə baxmaq ləzzət və reybə qəsdi olmadan işkalsızdır. Əgər onu tanıyırsa, bu halda qadın İslam hicabını qoruyub saxlamağa özünü iltizamlı bilirsə, onun şəklinə baxmaq – şəkildə kamil hicablı deyilsə – caiz deyildir. Əgər hicabın qorunub saxlanmasında iltizamlı deyilsə, kişi onu tanısa da, .lakin onun şəklinə ləzzət və reybə qəsdi olmadan baxırsa, eybi yoxdur

:NƏTİCƏDƏ ⁕

.Kişilər qohum-əqrəbalarında olan hicabsız qadınların albom şəkillərinə baxa bilməzlər

Məsələ (Sual) ٥٩: Qeyri-müsəlman qadınlarının, yaxud İslam hicabına kamil şəkildə ?riayət etməyən müsəlman qadınlarının şəklinə baxmağın hökmü nədir

Cavab: Əgər kişi qadınları tanımazsa və bu baxışdan fəsad gələcəyindən qorxmazsa, ləzzət və reybə qəsdi olmadan işkalı yoxdur, baxmayaraq ki, müstəhəb-ehtiyat bunu .tərk etməkdir

İmam, Bəhcət, Xamenei və Məkarim: İstifta

.Təbrizi: Siratun-nəcat, ١٧٦-cı sualdan istifadə etməklə

.Fazil: Camiul-məsail, ١-ci cild, səh.١٧٢٨ və ١٧٣٢-ci suallardan istifadə etməklə

Sistani: Qeyri-müsəlman qadının şəkli olarsa, yaxud İslam hökmlərinə əhəmiyyət və etina etməyən qadının şəkli olarsa, ləzzət və reybə qəsdi olmadan onların şəklinə .baxmağın işkalı yoxdur

.Minhacus-salehin, nikah, ٢٧-ci məsələdən istifadə etməklə

Məkarim: Əgər qadın qeyri-müsəlmandırsa, yaxud şəri qayda-qanunlara iltizamlı .deyilsə, bu halda reybə və ləzzət qəsdi olmadıqda baxmağın işkalı yoxdur

.Tovzihul-məsail, ٢٠٨٧-ci məsələdən istifadə etməklə

Məsələ ٦٠: Həddi-büluğa çatmamış uşağın şəklinə, istər qız olsun, istərsə də oğlan, .əgər ləzzət qəsdi ilə olmazsa və insan günaha düşəcəyindən qorxmazsa, işkalı yoxdur

İmam, Bəhcət, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

.İmam: Təhrir, ۲-ci cild, ۸-ci məsələdən istifadə etməklə, səh.۷۵۲

.Təbrizi: Siratun-nəcat, ۸۸۹-cu sualdan istifadə etməklə

səh:۳۶

Məsələ ۶۱: Əgər bir şəxs başqasının şəklinə baxmaqla günaha düşəcəyindən qorxarsa, .ona baxmamalıdır

İmam, Bəhcət, Təbrizi, Sistani, Fazil və Məkarim: İstifta

.Sistani: Minhacus-salihin, nikah, ۲۷-ci məsələdən istifadə etməklə

.Məkarim: Tovzihul-məsail, ۲۰۸۷-ci məsələdən istifadə etməklə

.Məsələ ۶۲: Başqasının görməsi haram olan şəkli insanın ona göstərməsi caiz deyildir

İmam, Bəhcət, Xamenei, Fazil, Sistani: İstifta

:NƏTİCƏDƏ ⁕

Qadınlar öz ərlərinə, qardaşlarına və ya atalarına onlarla naməhrəm olan və onların şəklini görmək onlar üçün caiz olmayan hicabsız qadının (rəfiqələrinin, qonşu qızlarının .və ya digər qadınların və s.) şəklini göstərməməlidirlər

Məsələ (Sual) ۶۳: Naməhrəm qadının uşaqlıq çağındakı şəkli kifayət qədər hicabı ?olmazsa, ona baxmaın hökmü nədir

.Bəhcət: Ləzzət qəsdi ilə olarsa, caiz deyildir

İstifta

Təbrizi, Xamenei, Fazil və Məkarim: Əgər bu görmə onların hörmətsizliyinə və insanın .şəhvətinin təhrik olunmasına səbəb olmazsa, işkalı yoxdur

.Təbrizi: Siratun-nəcat, Sual: ۸۸۹

Xamenei, Fazil, Məkarim: İstifta

Sistani: Əgər şəkil o qadının hazırkı surəti ilə uyğun olmazsa, ona baxmağın öz-özlüyündə caiz olması uzaq nəzər deyildir. Amma şəkil o qadının hazırkı şəkli ilə uyğun .olarsa, ehtiyat-vacibə görə ona baxmaq olmaz

İstifta

Məsələ ۶۴: Hər bir şəklə ləzzət qəsdi ilə baxmaq haramdır, istər kişi şəkli olsun, istərsə də qadın, istər məhrəm olsun, istərsə də naməhrəm, istər insan şəkli olsun, istərsə də başqa şəkil (bu hökmdən həyat yoldaşının şəkli istisna olunur).

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

Sistani: Minhacus-salihin, nikah, məsələ–۲۷.

səh:۳۷

Məsələ ۶۵: Mübtəzəl (ayıblı, erotik) şəkillərin al-veri və saxlanması haramdır və onları .məhv edib aradan aparmaq lazımdır

İmam, Bəhcət, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

Məsələ (Sual) ۶۶: Kişinin, dünyadan getmiş naməhrəm qadının şəklinə baxması onu ?tanıdığı halda caizdirmi

Bəhcət: Caiz deyil. İstifta

Məkarim: Naməhrəm kişinin ölü qadının şəklinə baxması hörmətsizlikdən xaric deyil və bu iş məhəlli-işkaldır.[۵] İstifta

Məsələ (Sual) ۶۷: Mütəxəssis şəxslərin, yaxud tibb elmi tələbələrinin və sairlərin – öz ixtisaslarına əsasən mübtəzəl səhnələrə malik olan elmi filmlərə və ya kitablara .baxmaq məcburiyyətində qaldıqları halda onların hökmünü bəyan edin

Bəhcət: Əgər reybə və ləzzətə səbəb olarsa, caiz deyildir. İstifta

Xamenei, Fazil və Məkarim: Əgər təlim üçün baxmaq məcburiyyətində qalarsa, reybə .qəsdi olmadan işkalı yoxdur

Xamenei və Məkarim: İstifta

.Fazil: Camiul-məsail, ۱-ci cild, ۲۰۸۲ və ۲۰۹۴-cü suallardan istifadə etməklə

Məsələ (Sual) ۶۸: Kişilər və qadınlar üçün ləzzət və reybə qəsdi olmadan müstəhcən[۶] ?(yarım-çılpaq) şəkillərə baxmağın hökmü nədir

Xamenei və Bəhcət: Əgər fəsad və reybə ilə yaxın olarsa, işkalı vardır, onların bəzi qisimləri yəqin şəkildə haramdır. İstifta

.Təbrizi və Məkarim: Bu cür şəkillərə baxmaq caiz deyildir

.Təbrizi: Siratun-nəcat, Sual: ۹۰۱

Məkarim: İstifta

Fazil: Əgər fəsadı olarsa, caiz deyildir. İstifta

## QADININ KİŞİLƏRİN ŞƏKLİNƏ BAXMASI

Məsələ ۶۹: Qadınlar kişilərin şəkillərinə bu şərtlə baxa bilərlər ki, ləzzət və reybə qəsdi olmasın, istər kişini tanısın, istərsə də tanımasın, istər kişi məhrəm olsun, istərsə də .naməhrəm

səh:۳۸

İmam, Xamenei, Məkarim: İstifta

Bəhcət və Fazil: Əgər kişinin şəklinə baxmaq fitnə-fəsada səbəb olarsa, caiz deyildir. .İstifta

Sistani: Əgər adi halda açıq olan yerlərdən daha artıq açıq olarsa, ehtiyat-vacibə görə .baxmaq caiz deyildir, əlbəttə, əgər şəhvətlə olarsa, mütləq şəkildə caiz deyil. İstifta

NƏTİCƏDƏ: İdmançıların, şəhidlərin və s. (kino artistlərinin, məşhur aktyorların və s.) ❊ şəkillərinə baxmağın – qadınlar üçün öz ardınca fəsad gətirməyincəyə qədər işkalı .yoxdur

## KİNOYA BAXMAQ

Məsələ ٧٠: Birbaşa (canlı yayımda) efirə buraxılan verilişlərdə iştirakçıların şəkilləri diri insanın hökmünə malikdir və əgər birbaşa olmayan şəkildə efirə buraxılırsa, şəklin .hökmünə malikdir

.İmam: İstifta, Əhkami banovan kitabı

Təbrizi: İstifta

Sistani, Fazil və Məkarim: İstər birbaşa, istərsə də birbaşa olmayan halda efirə .buraxılan kino, şəklin hökmünə malikdir. İstifta

Bəhcət: Televizor vasitəsilə naməhrəmi görmək və onların səsini eşitmək əgər fəsad .və reybə ilə yanaşı olarsa, işkalı vardır. Tovzihul-məsail, müxtəlif məsələlər:٣

Xamenei: Ehtiyat-vacibə görə, birbaşa olaraq televizordan efirə buraxılan naməhrəm qadına baxmaq olmaz, lakin əgər reybə və günaha düşmə qorxusu olmazsa birbaşa olmayan şəkildə baxmağın işkalı yoxdur. İstifta

Sistani: Əgər adi film olarsa və baxış da şəhvət üzündən olmazsa, onda işkalı yoxdur. İstifta

NƏTİCƏDƏ: Əgər kino birbaşa şəkildə efirə buraxılarsa, ona baxmağın hökmü diri ۞ insana baxmağın hökmünə malikdir. Buna görə də kişilər naməhrəm qadınların üz və əllərindən başqa yerlərinə (bunlar da yuxarıda qeyd olunan şərtlərlə) baxa bilməzlər, eləcə də qadınlar idman verilişlərində və sair kimi yerlərdə canlı yayımda efirə .buraxılan hallarda kişilərin bədəninə baxa bilməzlər

Həmçinin əgər kino birbaşa olmayan şəkildə efirə buraxılırsa, yəni əvvəlcə videoya çəkilir, sonradan nümayiş etdirilirsə, o filmin kişi və qadınlarına baxmağın hökmü şəklə baxmağın hökmü kimidir. Misal üçün: Kişilər öz hicabına riayət etməyən müsəlman qadının olduğu filmə, onu tanıdıqları halda baxa bilməz, amma əgər onu tanımırlar və fəsada düşmək qorxusu yoxdursa, ona baxa bilərlər. Həmçinin kişilər əqd və toy

mərasimlərində hazırlanmış filmlərə baxa bilməzlər. Əgər o filmlərdəki hicabsız .qadınları tanıyırlarsa və s

Məsələ (Sual) ٧١: Televizordan efirə buraxılan idman verilişlərinə, kişilərin kifayət ?qədər örtüyə malik olmadıqları halda qadınların baxmalarının hökmü nədir

.Cavab: Fəsada düşmə qorxusu və ləzzət qəsdi ilə olmazsa, işkalı yoxdur

Bəhcət: Əgər haram və fəsada şamil olmazsa, eybi yoxdur, amma futbol, güləş və .üzgüçülük kimi yerlərdə ictinab olunmalıdır. İstifta

Xamenei: Əgər birbaşa şəkildə televizordan efirə buraxılırsa, ehtiyat-vacibə görə baxılmasın, əgər birbaşa olmayan şəkildə efirdə buraxılırsa, ləzzət qəsdi ilə baxsalar, yaxud reybə və fəsada səbəb olarsa, yaxud fitnəyə düşmək qorxusu olarsa, haramdır. .İstifta

Sistani: Adi miqdardan az örtüyə malik olan kişilərin idman verilişlərinə baxmaq – misal üçün, güləşçilər, ağırlıq qaldıranlar, üzgüçülər və s. – ehtiyat-vacibə görə caiz deyildir .İstifta

.İmam, Təbrizi, Fazil, Məkarim: İstifta

:Bəhcət, Xamenei, Sistani

Məsələ (Sual) ٧٢: Televizorda münasib və kifayət qədər örtüyü olmayan qeyri-?müsəlmanlara baxmaq caizdirmi

.Cavab: Əgər ləzzət qəsdi ilə, yaxud fəsada düşmə qorxusu olmazsa, işkalı yoxdur

.İmam, Təbrizi, Xamenei, Fazil, Məkarim: İstifta

.Bəhcət: Tovzihul-məsail, müxtəlif məsələlər: ٢

.Sistani: Minhacus-salihin, nikah, ٢٧-ci məsələdən istifadə etməklə

Məsələ ٧٣: Qeyd olunan məsələdə filmin video surətində, ya böyük kino salonlarında .və ya hər hansı bir başqa surətdə olması arasında heç bir fərq yoxdur

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

Məsələ (Sual) ۷۴: Əgər naməhrəm qadınların rol ifa etdiyi və bəzi hallarda hicabsız olduğu filmlərə baxmaq bir şəxsin şəhvətin təhrik olunmasına səbəbdirsə, həmin kino başqaları

?üçün şəhvətin təhrik olunmasına səbəb olmazsa, hər iki şəxs bu filmə baxa bilərmi

Təbrizi: Əgər film birbaşa şəkildə efirə buraxılırsa, şəhvət nəzərlərilə ona baxmaq caiz deyildir, istər təhrik olunsun, istərsə də olunmasın. Amma kino birbaşa olmayan şəkildə efirə buraxılırsa, onda əgər baxan şəxs təhrik olunursa, ona baxa bilməz, əgər .təhrik olunmursa, baxa bilər

.Siratun-nəcat, ۱۰۰۲-ci sualdan istifadə etməklə və İstifta

Məkarim: Yollarını azması və günaha düşməsi ehtimalı verilən şəxslər üçün caiz .deyildir, istər birbaşa efirə buraxılsın, istərsə də yox

.Məsələ ۷۵: Meyyitə baxmağın hökmü elə diri insana baxmağın hökmüdür

.İmam, Bəhcət, Xamenei, Fazil və Məkarim: İstifta

NƏTİCƏDƏ: Yuxarıda qeyd olunan təfsilatla kişi, naməhrəm qadın cənazəsinin ※ .bədəninə, qadın da ölmüş naməhrəm kişinin bədəninə baxa bilməz

Məsələ (Sual) ۷۶: Diktor qadın olduğu halda radio və televizorda olan xəbərlərə qulaq ?asmaq, həmçinin onlara baxmaq caizdirmi

.Cavab: Ləzzət və reybə qəsdi ilə olmazsa, işkalı yoxdur

.İmam, Təbrizi, Xamenei, Sistani və Məkarim: İstifta

.Bəhcət: Tovzihul-məsail, müxtəlif məsələlər: ۲-ci məsələdən istifadə etməklə

.Fazil: Ona baxmaq şəklə baxmağın hökmünü daşıyır. İstifta

Məsələ (Sual) ۷۷: Kişi və qadınlar üçün ləzzət və reybə qəsdi olmadan müstəhcən ?filmlərə və kross antena vasitəsilə göstərilən filmlərə baxmaq caizdirmi

.Bəhcət, Təbrizi, Məkarim: Bu cür filmlərə baxmaq caiz deyildir

.Bəhcət və Məkarim: İstifta

.Təbrizi: Siratun-nəcat, ۹۰۱-ci sual

Xamenei: Qərb ölkələri tərəfindən kross antena vasitəsilə göstərilən efirə buraxılan proqramlar, eləcə də onlarla qonşu olan dövlətlərin əksəriyyətinin televizorlarındakı proqramlar

səh:۴۲

azğın fikirləri təlim verdiyinə, həqiqətləri təhrif etdiyinə, ləhvlə[٧] fəsadı yaydığına və əksər hallarda onlara baxılması insanların yolunu azıb fəsada düşməsinə, haram işlərə mürtəkib olmasına səbəb olduğuna görə onları alıb baxmaq caiz deyildir. Amma əgər .Quran və s. kimi prqramlara baxmaq məqsədilə olarsa, şərən işkalı yoxdur

.Əcvibətül-İstiftaat, ٢-ci cild, ١٠٣-cü sualdan istifadə etməklə

.Sistani: Ehtiyat-vacibə görə baxmaq caiz deyildir

.İstifta

Fazil: İnsanları azğın yola salmaq məqsədilə hazırlanan bu cür filmlərə baxmaq caiz .deyildir

.Camiul-məsail, ١-ci cild, ١٧٢٩-cu sual

İzah: Yəni əgər insan günaha düşməyindən qorxmazsa, işkalı yoxdur. Bundan qeyri .hallarda onlara baxmaq, yaxud qulaq asmaq caiz deyildir

## PALTAR VƏ ZİNƏT ƏŞYALARININ HÖKMLƏRİ

### KİŞİ ÜÇÜN HARAM OLAN PALTARLAR VƏ ƏŞYALAR

Məsələ (Sual) ٧٨: Kişilər üçün xalis ipəkdən hazırlanmış paltar geyinmək haramdır, hətta araqçın, yaxud şalvarın ipi olsa belə, istər onu görən bir şəxs olsun, istərsə də yox, əgər görən varsa, kişi olsun, yaxud qadın, istər məhrəm olsun, istərsə də .naməhrəm

.İmam və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, ٦-cı şərt

.Təbrizi: Tovzihul-məsail, məsələ: ٨٤٢

Xamenei: İstifta

.Sistani: Tovzihul-məsail, məsələ: ٨٤٢; Minhacus-salihin, namaz qılanın paltarı, ٦-cı şərt

.Məkarim: Tovzihul-məsail, məsələ: ٧٦٣

Bəhcət: Kişilər üçün xalis ipək paltar geymək haramdır, lakin araqçın, yaxud şalvarın bağı, yaxud corab kimi təklikdə övrəti örtə bilməyən şeylər qəbilindən olsa və xalis ipək olsa, əzhər nəzərə görə onunla namaz səhihdir, amma ehtiyat etmək bunun .xilafınadır

.Tovzihul-məsail, məsələ: ٧٠٣

İzah: Bu təbir müstəhəb ehtiyat mənasındadır. Nəticədə bu müctehidin nəzərinə görə ehtiyat-müstəhəb əsasında kişilər namaz vaxtlarında araqçın, corab və s. kimi xalis .ipəkdən olan şeylərdən istifadə etməməlidirlər

Fazil: Kişilər üçün xalis ipək geymək haramdır, həmçinin ehtiyat-vacibə görə araqçın, şalvarın bağı və s. kimi təklikdə övrəteyni örtə bilməyən şeylər qəbilindən olanlar, əgər .xalis ipəkdən olsa, caiz deyildir

.Tovzihul-məsail, məsələ: ٨٤٣

Məsələ ٧٩: Əgər paltarın astarının yarısı, yaxud hamısı xalis ipəkdən olarsa, kişilər üçün

.onun geyinilməsi caiz deyildir

.İmam, Fazil, Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, məsələ: ۲۷

.İmam: Tovzihul-məsail, məsələ: ۸۳۵

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۸۴۳

Xamenei: İstifta

Sistani: Tovzihul-məsail, məsələ: ۸۴۳; Minhacus-salihin, namaz qalının paltarının şərtləri, ۶-cı şərt.

.Məkarim: Tovzihul-məsail, məsələ: ٧۶٣

Bəhcət: Əgər paltarın hamısının, yaxud bir miqdarının astarı xalis ipəkdən olarsa, onun .(kişilər üçün geyilməsi işkalsız deyildir (ehtiyat-vacib

.Tovzihul-məsail, məsələ: ٧٠۴

Məsələ ٨٠: Kişilər üçün ipək paltar geymək haramdır, hətta üst paltar olmasa da, misal .üçün alt paltar

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: Əvvəlki məsələnin .mənbələrindən istifadə etməklə

Məsələ ٨١: Əgər paltarda ipəkdən olan qaytanlar olarsa, yaxud ipəkdən olan etiket .olarsa, onun geyilməsinin işkalı yoxdur

.İmam, Fazil və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, məsələ: ٢۶

.Bəhcət: Əgər ipək xalis olmazsa, işkalı yoxdur

.Təbrizi: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, ۶-cı şərt

.Sistani: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, ۶-cı şərt

Məsələ ٨٢: Cibdə olan dəsmal kimi ipəkdən olan şeylərin insanın üstündə olmasının .işkalı yoxdur

.İmam, Fazil və Məkarim: Ürvə namaz qılanın paltarının şərtləri, məsələ: ٢۶

.Bəhcət: Tovzihul-məsail, məsələ: ٧٠۵

.Təbrizi: Tovzihul-məsail, məsələ: ٨۴۵

Sistani: Tovzihul-məsail, məsələ: ٨۴۵; Minhacus-salihin, namaz qılanın paltarının .şərtləri, ۶-cı şərt

.Fazil: Tovzihul-məsail, məsələ: ٨۴٧

.Məkarim: Tovzihul-məsail, məsələ: ۸۶۵

Məsələ ۸۳: Əgər paltarın cinsi ipək və başqa şeylərə qarışmış olsa, bu halda xalis ipək ona deyilə bilməzsə, geyilməsinin işkalı yoxdur, amma əgər o qədər çox olsa ki, ona .xalis ipək deyilə bilsə, onun geyilməsi caiz deyildir

.İmam, Fazil və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, ۶-cı şərt

.Sistani: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, məsələ: ۵۳۰

Məsələ ۸۴: Əgər insan paltarının ipəkdən, yoxsa başqa bir şeydən olmasında şəkk .edərsə, onun geyilməsinin işkalı yoxdur

.İmam, Fazil və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, məsələ: ۳۶

Bəhcət, Xamenei: İstifta

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۸۴۴; Siratun-nəcat, Sual: ۱۱۹۱

.Sistani: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, məsələ: ۵۳۱

.Fazil: Tovzihul-məsail, məsələ: ۸۴۶

.Məkarim: Tovzihul-məsail, məsələ: ۷۶۴

.Məsələ ۸۵: İpək sap ilə tikilmiş paltarı geyməyin işkalı yoxdur

İmam, Fazil və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, ۲۶-cı məsələdən .istifadə etməklə

.Bəhcət: Əzhər nəzər caiz olmasıdır

.Təbrizi: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, ۶-cı şərt

Sistani: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, ۶-cı şərtdən istifadə .etməklə

Məsələ ۸۶: Qızıl ilə zinət vermək, yaxud qızıl toxunmuş paltar geyinmək kişilər üçün haramdır, istər aşkar olsun, istərsə də gizli, namaz da onunla batildir. Buna əsasən .əgər kişi, misal üçün boynuna qızıl sep asmış olsa, görünməsə də belə, bu iş haramdır

.İmam, Fazil və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, ۵-ci şərt, məsələ: ۲۴

.İmam: Tovzihul-məsail, məsələ: ۸۳۱

.Bəhcət: Tovzihul-məsail, məsələ: ۷۰۱-۷۰۲

Təbrizi: Qızıl şey geymək hər cür olursa-olsun, caiz deyildir və ümumi şəkildə qızıl ilə .zinətlənmək qızıl paltar geyinmişdir-deyilə bilməzsə, eybi yoxdur

.Minhacus-salihin, məsələ: ۵۲۸۲

Xamenei: İstifta

Sistani: Tovzihul-məsail, məsələ: ۸۳۹; Minhacus-salihin, namaz qılanın paltarının .şərtləri, ۵-ci şərt, Məkasibi-mühərrəmə məsələ:۳۷

.Fazil: Tovzihul-məsail, məsələ: ۸۳۹

.Məkarim: Tovzihul-məsail, məsələ: ۷۶۰

Məsələ ۸۷: Kişilər üçün qızıl cinsindən olan hər növ zinət caiz deyildir, istər aşkar olsun, .istərsə də gizli

.İmam, Fazil və Məkarim: Ürvə namaz qılanın paltarının şərtləri, məsələ: ۲۱

.İmam: Tovzihul-məsail, məsələ: ۸۳۲

.Bəhcət: Tovzihul-məsail, məsələ: ۷۰۲

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۸۴۰

Xamenei: İstifta

Sistani: Tovzihul-məsail, ۸۴۲-ci məsələdən istifadə etməklə; Minhacus-salihin, namaz .qılanın paltarının şərtləri, məsələ: ۵۲۸; Məkasibi-mühərrəmə, məsələ: ۳۷

.Fazil: Tovzihul-məsail, məsələ: ۸۴۰; Camiul-məsail, ۱-ci cild, Sual: ۲۵۴

.Məkarim: Tovzihul-məsail, məsələ: ۷۶۱

.Məsələ ۸۸: Ehtiyat-vacibə görə kişilər gərək qızıl eynəkdən də istifadə etməsinlər

.İmam: Tovzihul-məsail, məsələ: ۸۳۲

.Fazil: Tovzihul-məsail, məsələ: ۸۴۰

.Məkarim: Tovzihul-məsail, məsələ: ۷۶۱

NƏTİCƏDƏ: Ələ qızıl üzük taxmaq, boyuna qızıl sep salmaq, hətta paltar altında olub, * görünməsə də belə, yaxud saat və düymə kimi, yaxud qızıldan olan hər hansı bir zinət .kişilər üçün caiz deyildir

.Məsələ ۸۸: Ehtiyat-vacibə görə kişilər gərək qızıl eynəkdən də istifadə etməsinlər

.İmam: "Tovzihul-məsail", məsələ: ۸۳۲

.Fazil: "Tovzihul-məsail", məsələ: ۸۴۰

.Məkarim: "Tovzihul-məsail", məsələ: ۷۶۱

.Bəhcət, Təbrizi və Sistani: Kişi üçün qızıl eynəkdən istifadə etmək haramdır

.Bəhcət: İstifta

.Təbrizi: Tovzihul-məsail, məsələ: ۸۴۰

Sistani: Tovzihul-məsail, məsələ: ۸۴۰; Məkasibi-mühərrəmə, ۳۷-ci məsələdən istifadə .etməklə

Məsələ ۸۹: Ağ qızıl sarı qızılın hökmünə malik deyildir və kişilərin ondan istifadə etməsinin işkalı yoxdur, amma əgər o elə sarı qızıldan ibarət olsa və rəngi dəyişilmiş .olsa, bu başqa

İmam: İstifta, ۱-ci cild, namaz qılanın paltarı, ۵۰, ۵۱, ۵۲ və ۵۴-cü suallardan istifadə .etməklə

Təbrizi, Sistani və Məkarim: Qızıl istər ağ olsun, istərsə də sarı, yaxud qırmızı, kişilər üçün haramdır. Halal olan şey isə platin adlı digər bir filizdir. Qızılın rənginin bir-birindən fərqli olmasının səbəbi budur ki, bəzən onu mis, bəzən bürünc, bəzən də .gümüşlə qarışdırırlar

.Sistani və Məkarim: İstifta

.Təbrizi: Siratun-nəcat, ۱۱۹۲-ci sualdan istifadə etməklə

.Bəhcət: Əgər ona qızıl deyilirsə, caiz deyildir, lakin platinin işkalı yoxdur. İstifta

Xamenei: Əgər ağ qızıl elə həmin sarı qızıl olub, müəyyən bir maddə qatılmaqla ağ rəngli olursa, ondan istifadə edilməsi kişilər üçün haramdır. Lakin əgər platindirsə, yaxud qızılın miqdarı camaat arasında qızıl adlandırılmayacaq dərəcədə azdırsa, eybi .yoxdur

.İstifta

səh:۴۷

Fazil: Əgər ağ qızıl, qızıl ünvanına malik olarsa və həm də sarı qızılın cinsindən olarsa, .kişilər üçün ondan istifadə etmək caiz deyildir

.Camiul-məsail, ۲۵۶ və ۹۶۹-cu suallardan istifadə etməklə

.Məsələ ۹۰: Qızıl suyu ilə zinət vermək qızıl ünvanı ona aid edilməzsə, işkalı yoxdur

.İmam və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, ۵-ci şərt

Bəhcət: İstifta

.Təbrizi: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, ۵-ci şərt

Xamenei: Kişilər üçün qızıl suyu ilə zinət verməyin işkalı yoxdur, hətta ürfdə ona qızıl .deyilsə də belə

.İstifta

Sistani: Minhacus-salihin, namaz qılanın paltarının şərtləri, ۵-ci şərtdən istifadə .etməklə

Fazil: Əgər yanız qızılın rənginə malik olarsa, kişilər üçün onunla zinətlənməyin işkalı .yoxdur. Amma əgər onun üzərində qızıl qatı olarsa, caiz deyildir

.İstifta

Məsələ ۹۱: Əgər bir şey sarı qızıl və başqa bir filizlə qarışmış olarsa, bu halda əgər sarı qızıl onda itib aradan getmiş olsa və ona sarı qızıl adı deyilə bilməzsə, onlar sarı qızıl .hökmünə malik deyil

.İmam: İstifta ۲-ci cild, ۱۳-۱۴-cü suallardan istifadə etməklə

Bəhcət və Sistani: İstifta

.Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, ۵-ci şərt

Fazil: Qızıl və qızıldan başqa şeylərin qarışığından olan hər bir şeyin geyilməsi kişilər .üçün caiz deyildir

.Ürvə, namaz qılanın paltarının şərtləri, ۵-ci şərt

Məsələ ۹۲: Əgər kişi bir şeyin qızıldan olub-olmadığında şəkk etsə, ondan istifadə etməyin onun üçün işkalı yoxdur.

.İmam, Fazil və Məkarim: Ürvə, namaz qılanın paltarının şərtləri, məsələ: ۲۱

.İmam: İstifta, ۱-ci cild, namaz qılanın paltarı, Sual: ۵۴

Xamenei və Sistani: İstifta

.Bəhcət: Əgər qızıl adı verilsə, caiz deyildir

.İstifta

Məsələ (Sual) ۹۳: Əgər kişi öz həyat yoldaşı üçün qızıl üzük, yaxud qızıl saat alsa və yoxlamaq üçün, yaxud qoruyub

?saxlamaq üçün öz əlinə bağlasa, namazda və sair kimi yerlərdə hökmü nədir

.Bəhcət: Caiz deyildir və namaz batildir. İstifta

.Xamenei: Hər bir halda, əgər qızıl şey geymişdir deyilsə, haramdır. İstifta

Məsələ (Sual) ۹۴: Bir nəfər öz həyat yoldaşı üçün qızıl üzük alıb və ölçüsünü yoxlamaq ?üçün əlinə salır. Həmin miqdar ələ keçirmək də haramdırmı

.Xamenei: Bu məsələnin cavabı əvvəlki sualdan aydın oldu

## KİŞİNİN MƏHRƏMLƏR VƏ BAŞQA KİŞİLƏR QARŞISINDAKI GEYİMİ

:Diqqət

.Bu bölmənin bütün hökmlərindən həyat yoldaşı istisna olunur

Məsələ ۹۵: Kişilər öz övrəteynini başqa kişilərdən, həmçinin öz məhrəmlərindən .örtməlidirlər. Onların bədənlərinin başqa yerlərini örtmək vacib deyildir

.İmam və Fazil: Ürvə, sətr və satir, ۱-ci məsələdən qabaq

Təbrizi və Xamenei: İstifta

.Sistani: Minhacus-salihin, nikah, ۱۹-cu məsələdən istifadə etməklə

Bəhcət: Amma əgər başqalarının harama düşməyinə kömək olarsa, bədənin başqa .yerlərini örtmək vacib olur

.İstifta

Məkarim: Kişilər öz bədənlərini məhrəmlərinin müqabilində çılpaq edə bilməzlər, yalnız o miqdar istisna olunur ki, məhrəmlər qarşısında adi bir haldır və qadınlar da öz .məhrəmlərinin qarşısında eynilə

.İstifta

Məsələ (Sual) ۹۶: Geyildiyi zaman övrəteyninin həcmini göstərən, lakin bədənin dərisini

göstərməyən şort və sair alt paltarları başqalarının müqabilində örtük üçün ?kifayətdirmi

səh:۴۹

.Cavab: Əgər bu işin ardınca bir fəsad gəlməzsə, işkalı yoxdur

İmam, Fazil və Məkarim: Ürvə, sətr və satir, ۴۴-cü məsələdən qabaqkılardan istifadə .etməklə, səh.۵۵۱

.Təbrizi: Siratun-nəcat, ۹۰۷-ci sualdan istifadə etməklə

Xamenei və Fazil: İstifta

Sistani: Minhacus-salihin, əhkamut-təxəlli, ۵۵-ci məsələdən qabaqkından istifadə .etməklə

İmam: İstifta

.Bəhcət: Əgər fitnə-fəsada səbəb olarsa, caiz deyildir. İstifta

Məkarim: Əgər övrəteynin həcmi kamil şəkildə görünərsə, işkalı vardır. İstifta

Məsələ ۹۷: Başqalarını harama salmaq məqsədilə bədənin hər hansı bir yerini .örtməmək haramdır

İmam, Təbrizi, Xamenei, Sistani, Fazil: İstifta

Bəhcət: Bədənin örtülməsi vacib olan hissəsini örtməmək haramdır, hətta başqaları bu işlə harama düşməsə də belə və bədənin örtülməsi vacib olmayan yerlərdə harama .kömək edilməsi fərz olunarsa, onun örtülməsi vacibdir. İstifta

Məkarim: Ləzzət və reybə qəsdi olmadan da müxalif cinsin müqabilində, işkallıdır. .Hərçənd məhrəmlərdən olsa da belə. İstifta

Məsələ ۹۸: Məhrəmlərin qarşısında, ya başqa kişilərin müqabilində ləzzət və reybə .məqsədilə bədəni açmaq (həyat yoldaşı istisna olunur) haramdır

İmam, Təbrizi, Xamenei, Sistani: İstifta

(.Bəhcət və Məkarim: (Bundan qabaqkı məsələyə bax

Məsələ ۹۹: Həkim olmaq istisna hallarından deyildir, buna görə də kişilər öz övrəteynini

həkimlərdən də örtməlidirlər, yalnız iztirar halı istisna olunur. (Əlbəttə, həyat yoldaşı (.həmişə istisnadır

.İmam, Fazil və Məkarim: ürvə, sətr və satir, səh.۵۰۹ və ۵۵۰

Bəhcət, Təbrizi, Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, ۱۹۴۲ və ۱۹۳۸-ci məsələlərdən istifadə etməklə

Sistani: Minhacus-salihin, əhkamut-təxəlli, ۵۵-ci məsələdən qabaqkılardan istifadə .etməklə; Nikah, məsələ: ۲۰

İzah: Kişilərin örtüyündən istisna olunanlar iztirar (zərurət) halıdır. Buna görə də əgər bir şəxs iztirar halına düşsə, həkimin müqabilində də övrəteynini aça bilər. (Misal üçün, övrəteynini həkim üçün açmadıqda müalicə olunması mümkün olmayan xəstəliklərdə; əks halda bunlardan qeyri-hallarda (iztirar məqamı və şiddətli hərəc[٨] məqamından başqa hallarda, uşaq doğumunun qarşısını almaq kimi hallar) kişilər öz övrəteynini başqalarından örtməlidirlər, hətta əgər başqası onun atası, qardaşı, oğlu, yaxud .məhrəmlərindən digərləri, bacı, ana, xala və s. hər bir şəxs olsa da belə

## KİŞİNİN NAMƏHRƏM QADINDAN ÖRTÜLMƏSİ

Məsələ ١٠٠: Kişilər öz övrəteynini naməhrəmlərdən örtməlidirlər və bədənin başqa .yerlərini onlardan örtmək vacib deyildir

.İmam və Fazil: Ürvə, sətr və satir, səh.٥۴٩

.Sistani: Minhacus-salihin, nikah, məsələ: ١٩

Bəhcət: Ehtiyat-vacibə görə, kişi gərək öz bədənini naməhrəmdən örtsün, hətta onun harama düşməsinə kömək olmasa da belə. Əgər harama düşməsinə kömək olsa, .bədəni örtmək şübhəsiz vacibdir, eləcə də övrəti naməhrəmdən örtmək də vacibdir

.Tovzihul-məsail, ١٩٣٧-ci məsələ

Xamenei: Kişilər üçün bədənin vacib miqdarda örtülməsi övrəteyni örtməkdir, belə ki, şəhvət yaratmağa və fəsada səbəb olmasın. Əgər fəsada düşmək məsələsi varsa, .bədənin sair yerlərini də – baş, boyun və əllərdən başqa hər yerini – gərək örtsün

Məkarim: Naməhrəm qadınlar baxdığı halda vacibdir ki, bədənini örtsün, yalnız adi .halda açıq qalan hissələr istisna olunur. İstifta

Məsələ ١٠١: Kişilər ehtiyat-müstəhəbə görə adi hallarda kişilərin örtdüyü yerləri naməhrəmdən örtməlidirlər. Xüsusilə əgər naməhrəmin ləzzət və ya reybə qəsdilə .onlara baxdığını bilərsə

.İmam və Fazil: Ürvə, nikah, məsələ: ٥١

Bəhcət: Ehtiyat-vacibə görə kişi gərək öz bədənini naməhrəmdən örtsün, hətta onun harama düşməsinə kömək olmasa da. Əgər harama düşməyə kömək edərsə, bədəni örtmək şübhəsiz vacibdir. Əgər başqalarını harama salmaq qəsdi olmazsa, lakin yəqin .şəkildə bilsə ki, başqası harama düşəcəkdir, onun caiz olması işkallıdır

.Tovzihul-məsail, məsələ: ١٩٣٧ və İstifta

səh:٥٢

Xamenei: Əgər kişi naməhrəmin onun bədəninə baxdığını bilsə, ehtiyat-vacibə görə öz .bədənini – baş, boyun və əlləri istisna olmaqla örtməlidir. İstifta

Məkarim: (Ehtiyat-vacib) budur ki, kişi adətən kişilər arasında adi qaydaya görə .örtülən yerləri yad qadının ona baxdığını bildiyi halda örtsün. İstifta

NƏTİCƏDƏ: Kişi biləkdən yuxarını, sinəni və öz ayaqlarını, eləcə də kişilərin adətən ⁕ örtdükləri yeri, ona baxan naməhrəm qadından örtməlidir, başqa yerləri, məsələn baş, .üz, əllər və s. kimi örtmək lazım deyildir

Məsələ ١٠٢: Bədənin hər hansı bir yerini naməhrəmi harama salmaq məqsədilə açıq .qoymaq haramdır

İmam, Xamenei, Sistani və Məkarim: İstifta

Bəhcət və Fazil: Əgər bu iş haram işə kömək sayılarsa, onları örtmək qəti şəkildə .vacibdir

.Bəhcət: Tovzihul-məsail, ١٩٣٧-ci məsələdən istifadə etməklə

.Fazil: İstifta

NƏTİCƏDƏ: Əgər bir kişi özünün biləyini, sinəsini, yaxud bədənini naməhrəmin ona ⁕ baxması məqsədilə açsa, yaxud bədənini göstərən nazik köynək geyərək məqsədi də onun bədənə baxması olarsa, bu iş haramdır, bu işdən ictinab etmək lazımdır. Amma əgər, misal üçün, qolu qısa paltar geyərsə və başqalarını harama salmaq məqsədilə olmazsa, hətta başqalarının bu işlə harama düşəcəyini bilsə də belə, ehtiyat-.müstəhəbbə görə gərək belə paltar geyməsin

Məsələ (Sual) ١٠٣: Naməhrəm qadınlar kişilərə iynə vura bilərmi, yaxud qan təzyiqini ?ölçə bilərmi və ya radioloji şəkillər götürə bilərmi

Cavab: Əgər kişinin bədəninə haram olan toxunma, yaxud baxışa səbəb olarsa, caiz .deyildir, yalnız iztirar məqamı istisna olunur

.İmam, Fazil və Məkarim: Ürvə, nikah, ٤٧ və ٣١-ci məsələlərdən istifadə etməklə

İmam: Tovzihul-məsail, məsələ: ۲۴۳۳ və İstifta

səh:۵۳

Xamenei: İstifta

.Sistani: Minhacus-salihin, nikah, ١٩, ٢٠ və ٢١-ci məsələlərdən istifadə etməklə

Bəhcət: Naməhrəm kişinin bədəninə baxmaq, əgər haram işə kömək olmazsa, ehtiyat-vacibə görə caiz deyildir və əgər haram işə kömək olarsa, şübhəsiz haramdır. Hər bir halda, naməhrəmin bədəninə toxunmaq zərurət halından başqa hallarda caiz .deyildir

.Tovzihul-məsail, ١٩٣٣ və ١٩٣٧-ci məsələlər

Məsələ (Sual) ١٠۴: Kişilər naməhrəmlərin ona baxdığını bilə-bilə bədənlərinin kişilərin adətən örtdükləri çox hissəsini aça bilərmi? Məsələn: Mayka ilə evdə ola bilərmi, halbuki naməhrəmin ona baxdığını bilir, yaxud xalça-palaz, yaxud maşın və s. kimi şeyləri yumaq üçün öz şalvarlarının balağını yuxarı çəkirlər, yaxud naməhrəmin gözü ?önündə üzürlər

Cavab: Əgər naməhrəmi harama salmaq məqsədi ilə olarsa, haramdır, bundan qeyri-.hallarda yaxşı olar ki, tərk olunsun, xüsusilə əgər baxanlar cavan olarsa

.İmam və Fazil: Ürvə, nikah, ۵١-ci məsələdən istifadə etməklə

Bəhcət: Əgər öz ardınca haram gətirərsə, bu iş caiz deyildir. Əgər haram iş gətirməzsə, ehtiyat-vacibə görə kişi gərək öz bədənini naməhrəmdən örtsün. .Tovzihul-məsail, ١٩٣٧-ci məsələdən istifadə etməklə

Xamenei: Əgər fəsada səbəb olarsa, yaxud şəhvəti təhrik edərsə, bu iş caiz deyil. .İstifta

Sistani: Əgər məqsədi naməhrəmin onun bədəninə baxması olarsa, yaxud bu kimi .yerlərin açıq qoyulması əsas etibarı ilə fitnə yaradarsa, caiz deyildir. İstifta

.Məkarim: Bu halda da ehtiyat-vacib, tərk etməkdir. İstifta

## KİŞİLƏRİN UŞAQLARDAN ÖRTÜNMƏSİ

.Uşaqlar ya müməyyizdir, ya yox

Məsələ ١٠٥: Əgər uşaqlar müməyyiz olmazsa, istər oğlan, istərsə də qız, onlardan .örtünmək vacib deyil, hətta övrəteyni belə

.İmam, Fazil və Məkarim: Ürvə, nikah, məsələ: ٣٥

Bəhcət, Təbrizi: İstifta

.Sistani: Minhacus-salihin, nikah, məsələ: ٢٥

:Əgər müməyiz olarsa

Məsələ ١٠٦: Kişi gərək öz övrəteynini müməyyiz uşaqlardan örtsün, istər oğlan olsun, .istərsə də qız, istər məhrəm olsun, istərsə də naməhrəm

.İmam, Fazil, Məkarim: Ürvə, sətr və satir, ١-ci məsələdən qabaq

.Sistani: Minhacus-salihin, əhkamut-təxəlli, ٥٥-ci məsələdən əvvəl

Bəhcət: Ehtiyat-vacibə görə kişi gərək öz bədənini doqquz yaşı tamam olmayan, amma yaxşı və pisi seçən qız uşağından örtsün, hətta ləzzət qəsdi olmasa da; və .vacibdir ki, öz övrəteynini ondan örtsün

.Tovzihul-məsail, məsələ: ١٩٣٧ və İstifta

Kişilər hamamlarda, yaxud başqa yerlərdə öz övrəteynlərini müməyyiz uşaqlarından ⁕ .örtsün

## QADININ ÖRPƏYİNİN HÖKMLƏRİ

### QADININ NAMƏHRƏMDƏN QORUNMASI

Məsələ ۱۰۷: Qadına vacibdir ki, özünün bütün bədənini – üzü və əlləri istisna olmaqla – :naməhrəmdən örtsün. Bu şərtlə ki

.Onların üzü və əlləri zinətlənməmiş olsun-۱

.Bir kəs ləzzət və reybə qəsdi ilə onların əllərinə və üzünə baxmasın-۲

.İmam Xomeyni: Ürvə, sətr və satir, ۴-۵-ci məsələlərdən istifadə etməklə

.İmam: İstifta, Əhkamu banovan kitabından, ۶-cı sual, səh.۱۱ və İstifta

Bəhcət: Qadın gərək bədənini və tüklərini naməhrəm kişidən örtsün, hətta harama .düşməyə kömək və ləzzət qəsdi olmasa da belə. Tovzihul-məsail, məsələ: ۱۹۳۷

Təbrizi: Qadın gərək bütün bədənini – üzü və əlləri istisna olmaqla naməhrəmdən örtsün və üzündə və əllərindəki zinət belə olsa ki, misal üçün üzük taxdığı, üzünü islah etdiyi və hətta qoca qadınlarda da adət olan sürmə çəkdiyi halda olsa, onları örtmək qadına vacib deyildir. Bundan qeyri hallarda öz zinətini naməhrəmdən örtməlidir. Baxmayaraq ki, ehtiyat-müstəhəb özünün üzünü və əllərini naməhrəmdən örtməkdir, .hətta zinəti olmasa da belə

Siratun-nəcat, ۱۴۸۴, ۱۹۸۶, ۸۸۲, ۸۸۳, ۸۸۴, ۸۸۵, ۸۸۶-cı suallardan və İstiftadan istifadə .etməklə

Xamenei: Qadınlara vacibdir ki, bütün bədənlərini – üzü və əlləri istisna olmaqla naməhrəmdən örtsünlər, bu şərtlə ki, üzündə və əllərində zinət olmasın. İstifta

Fazil: Qadın gərək üzü və əlləri istisna olmaqla bütün bədənini naməhrəmdən örtsün. Bu şərtlə ki, üzündə və əllərində də zinət olmasın. Həmçinin qadınların məqsədi naməhrəm kişilərin onlara baxmağı olmasa, hətta naməhrəm onun üzünə və əllərinə .ləzzət qəsdilə baxsa belə, üzü və əlləri örtmək vacib deyil

.Camiul-məsail, ۲-ci cild, Sual: ۱۰۶۶ və ۱۰۷۰; Tovzihul-məsail, məsələ: ۲۵۰۳

Sistani: Qadın gərək saçlarını və bədənini naməhrəm kişilərdən örtsün, üzü və əllərindən başqa. Əgər üzünü və

səh:۵۶

əllərini örtmədiyi təqdirdə harama düşəcəyindən qorxursa, yaxud kişini haram baxışa .salmaq üçün örtməmək qəsdi olarsa, bu iki halda örtməməsi caiz deyildir

.Tovzihul-məsail, məsələ: ٢٩۴۴

.Məkarim: Adi yüngül zinətlərin işkalı yoxdur

.İstifta

Məsələ ١٠٨: Qadınlar gərək ehtiyat-vacibə görə öz əllərini və üzlərini adi miqdardan artıq elmi müqəddimə ünvanı ilə örtsünlər. (Üz dəstəmazda yuyulması vacib olan (.miqdar, əllər də biləkdən barmaqların ucuna qədərdir

İmam, Fazil: Ürvə, sətr və satir, səh.۵۵١ və İstifta

Təbrizi: Ehtiyat-müstəhəbbə əsasən, yaxşı olar ki, qadın öz üzünü də naməhrəmdən .örtsün

.Siratun-nəcat, ١٩٨۵-ci sualdan istifadə etməklə

.Məkarim: Üz və əllərdən başqa hər yeri örtməsi kifayətdir. İstifta

Məsələ (Sual) ١٠٩: Ayağın altı, ayağın üstü, ayağın üstündəki çıxıntı və dabanı ?naməhrəm kişilərə açıb göstərmək şərən caizdirmi

.Cavab: Caiz deyildir

.İmam, Fazil: Ürvə, sətr və satir, ١ və ۵-ci məsələlərdən istifadə etməklə

.İmam: Əhkami izdivac kitabından; İstifta, səh.١٨۵

Təbrizi və Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, ١٩٣٧-ci məsələdən istifadə etməklə

Sistani: Tovzihul-məsail, ٢۴۴۴-cü məsələdən istifadə etməklə; Minhacus-salihin, nikah, .məsələ: ١٨

.Fazil: Tovzihul-məsail, ۲۵۰۳-cü məsələdən istifadə etməklə

.Məkarim: Yaxşı olar ki, bu hissələri də örtsün, lakin vacib deyildir. İstifta

:NƏTİCƏDƏ ❊

Qadınlar corabsız ayaqlarla naməhrəmlərin qarşısında gediş-gəliş edə bilməz, yaxud bu vəziyyətdə al-ver məqsədilə evə yaxın olan dükanlara gedə bilməz, yaxud əgər evdə naməhrəm adam olsa, corabsız onların qarşısına gələ bilməzlər, baxmayaraq ki, naməhrəm onun ərinin qardaşı, bacısının əri, yaxud hər hansı bir başqa naməhrəm .olsa belə

Məsələ ١١٠: Çənənin altının, boğazın, qulağın, sinənin və biləyə qədər qolun yuxarı tərəfdən açıq olması qadınlar üçün caiz deyildir və bu yerləri də naməhrəmdən ört… .məlidirlər

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil və Məkarim: Əvvəlki məsələnin mənbələrindən .istifadə etməklə

Sistani: Çənənin alt tərəfinin adətən məqnə, yaxud rusəri (yaylıq) örtdükləri zaman adətən açıq qalan miqdardan əlavə hissələri, eləcə də boyunun, qulağın, sinənin və əllərin biləkdən yuxarı hissəsnin görünməsi qadınlar üçün caiz deyil. İstifta

:Diqqət

:Qadınlar aşağıdakı məsələlərə diqqət yetirməlidirlər

Evdə, yaxud naməhrəmin olduğu başqa məkanlarda əgər qısa qollu paltar geymiş olsalar (hətta çadra ilə örtülmüş olsa da), yaxud əgər qolu uzun olan paltarı olsa və bir şeyi yuxarıdan götürdükdə, yaxud bir şeyi naməhrəmin əlindən aldıqda, yaxud meyvə və sair kimi şeyləri naməhrəm adamlara təklif etdikdə, yaxud naməhrəm qarşısında yemək yeyərkən, yaxud dükanlardan mal alarkən, yaxud böyük və ya ağır yükü daşıyarkən bütün bu kimi hallarda onların paltarının qolunun arxaya getməsi, yaxud qollarının və ya çadranın arxaya getməsi nəticəsində bədəninin bəzi hissələri açıla .bilər və buna görə əziz qadınlar bu kimi hallara tamamilə diqqət yetirməlidirlər

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۶-cı məsələdən istifadə etməklə

.Xamenei: İstifta

.Sistani: Minhacus-salihin, Nikah, ۲۹-cu məsələdən istifadə etməklə

Misal üçün: Kişi bilir ki, o naməhrəmlə söhbət edəcəyi təqdirdə yalan deməyə məcbur olacaq, yaxud qeybət edəcək, yaxud töhmət vuracaq, istər qadın kişini günaha vadar .etsin, yaxud da onun özü söhbət vasitəsilə bu günahlara batsın

Məsələ ۱۷۶: Hər kəslə və hər şey barəsində şəhvət və ləzzət qəsdi ilə söhbət etmək (.caiz deyildir. (Həyat yoldaşı istisnadır

.İmam, Fazil, Məkarim: Ürvə, Nikah, ۳۹-cu məsələdən istifadə etməklə

.İmam: Təhrir, Nikah, məsələ ۲۹

.Xamenei: İstifta

.Sistani: Minhacus-salihin, Nikah, məsələ ۲۹

Məsələ ١٧٧: Kişilərin qadınları təqlid etmək səsi ilə və bunun əksinə danışmalarının ?hökmü nədir

.Bəhcət: Əgər fəsad olmazsa işkalı yoxdur. Əks halda, caiz deyildir. İstifta

.Sistani: Haram işə gətirib çıxarmazsa, caizdir. İstifta

Məkarim: Haram bir işə səbəb olmazsa, misal üçün, günaha təşviş olunma, yaxud .xüsusi bir şəxsə hörmətsizlik olmazsa, işkalı yoxdur. İstifta

## DIQQƏT YETIRILMƏLI MƏSƏLƏLƏR

Bəzi hallarda şeytan bəzi kişilərin qəlbinə o qədər nüfuz edir ki, onların gündəlik rəftar və davranışlarını şübhəli edir. Buna görə də hərdən belə olur ki, bir kişi naməhrəmlə ünsiyyətdə olmağa o qədər meyl edir ki, sanki onun məhrəmidir. Misal üçün, hər hansı bir mətləbi kişidən soruşa bildiyi halda naməhrəm bir qadından soruşur. Bəzən öz söhbətlərini naməhrəmlə uzadır ki, onunla daha artıq söhbət etsin. Naməhrəmlə səfərə çıxmaq, əyləncə məqsədi ilə gəzmək onun üçün daha artıq cazibəli olur. Əgər bir yerdə bir naməhrəm olsa, o da həmin yerdə olmağa daha çox maraq göstərir. Qonaqlıqlarda çalışır ki, naməhrəmlə daha artıq söhbət etsin, onlarla daha artıq ünsiyyətdə olsun, naməhrəmin müqabilində hər bir şeydən artıq özündən canfəşanlıq etsin və bir sözlə, naməhrəmin iştirak etdiyi hər bir işdə başqalarından artıq maraq .göstərir və sair

Kişilər və xüsusilə əziz cavanlar bu cür işlərdən şiddətlə çəkinməlidirlər, çünki bu kimi münasibətlər və söhbətlər adətən ləzzət və reybə qəsdi ilə yanaşı olur və təbiidir ki, .şərən haram olacaqdır

.b) Qadının naməhrəm kişi ilə danışması

:Məsələ ١٧٨: Qadınlar aşağıdakı şərtlərlə naməhrəm kişi ilə danışa bilərlər

.Ləzzət və reybə qəsdi olmasın-١

.Öz səslərini naziklə şdirməsinlər-٢

.Günaha düşmək qorxusu olmasın-٣

.İmam, Fazil, Məkarim: Ürvə, Nikah, məsələ ٣٩

,İmam: Təhrir, Nikah, məsələ ٢٩

.Sistani: Minhacus-salihin, nikah, məsələ ٢٩

Bəhcət: Qadınlar naməhrəmlə söhbət edərkən gərək şəhvəti təhrik edən hər bir .şeydən çəkinsinlər. İstifta

Məsələ ١٧٩: Qadınların zərurət halı olmadan başqa hallarda naməhrəmlə danışmaları .məkruhdur

.İmam, Fazil, Məkarim: əvvəlki məsələlərin mənbələri

Bəhcət: Məkruhdur, yalnız şəhvətin təhrik olunmasına səbəb olduğu hal istisnadır ki, .bu halda ondan çəkinmək lazımdır. İstifta

.Sistani: Əgər ləzzət qəsdi və harama düşmə qorxusu olmazsa, caizdir. İstifta

Məsələ ١٨٠: Qadınların naməhrəm kişiləri harama salmaq məqsədi ilə onlarla söhbət etməsi caiz deyildir. İstər onların dediyi mətləb nəticəsində günaha düşsün, yaxud elə desin ki, naməhrəmin özü günaha düşmüş olsun: Misal üçün, təhrikedici səhnələri .danışmaqla, yaxud eşitməklə naməhrəmin təhrik olunduğu şeyləri bəyan etməklə

.İmam, Fazil, Məkarim: Ürvə, Nikah, ٣٩-cu məsələdən istifadə etməklə

.İmam: Təhrir, Nikah, məsələ ٢٩

.Sistani: Minhacus-salihin, nikah, məsələ ٢٩

.Bəhcət və Xamenei: İstifta

### DIQQƏTLI OLMAQ LAZIMDIR

Kişilərin barəsində qeyd olunduğu kimi, bəzən qadınlar da şeytani hiylələrə düçar ola bilərlər. Buna görə də onlar naməhrəmlə o qədər yaxın ünsiyyətdə olurlar ki, sanki

onun qardaşıdır. Xüsusilə o qadınlar ki, naməhrəmlə daha artıq təmasda olurlar. O cümlədən tibb bacıları, idarələrdə, şirkətlərdə işləyən qadınlar, idmançılar və s. .başqalarından daha artıq diqqətli olmalıdırlar

Qeyri–zəruri işlər üçün naməhrəmlərdən kömək istəmək, məhrəmdən soruşmaq mümkün olduğu halda naməhrəmdən bir məsələ barəsində soruşmaq, bəhs etmək və ,özünü araya salmaq

öz üstün cəhətini naməhrəmə bildirmək, naməhrəmlə daha artıq ünsiyyətdə olmaq, naməhrəmin olduğu mühitlərdə işləməyə daha çox maraq göstərmək və bir sözlə, bütün bu hallarda günaha düşmə ehtimalı vardır və adətən bu kimi ünsiyətlər ləzzət və .reybə qəsdilə yanaşı olur və şərən haram sayılır

Məsələ ۱۸۱: Qadınlar naməhrəmlə söhbət edərkən öz səslərini nazik etməməlidirlər. Belə ki, əgər müqabil tərəfin qəlbində xəstəlik olarsa, onu özünə cəlb etsin. .Baxmayaraq ki, adi bir mətləb barəsində söhbət etsələr də

.İmam, Bəhcət, Xamineki, Sistani, Fazil, Məkarim: Əvvəlki məsələlərin mənbələri

Məsələ ۱۸۲: Qadın onunla ləzzət qəsdi olan bir naməhrəm kişi ilə söhbət edə bilərmi? .((Qadın günaha düşməyəcyini bilirsə

.Bəhcət, Xamenei: Caiz deyildir. İstifta

Məsələ (Sual) ۱۸۳: Qadınların naməhrəm müqabilində xor oxuması caizdirmi? Onun ?naməhrəmlər tərəfindən eşidilməsinin hökmü nədir

Xamenei: Qadınların xorla oxuması, həmçinin onların səsinin dinlənməsi ləzzət və .reybə qəsdi ilə olmazsa eybi yoxdur. İstifta

.Fazil: Qadınların xorla oxuması adətən fəsada səbəb olduğundan caiz deyil. İstifta

Bəhcət: Əgər fəsada səbəb olarsa, caiz deyildir. Əslində, əksər hallarda qadının kişinin hüzurunda oxuması və onların səsinin dinlənilməsi fəsada səbəb olduğundan caiz .deyildir. İstifta

Sistani: Harama düşmək qorxusu olarsa, yaxud adətən təhrikedici olarsa, caiz deyildir. .İstifta

Məsələ ۱۸۴: Qadın tək halda mahnı oxuyarsa və təhrikə səbəb olmazsa ona qulaq ?asmaq caizdirmi

Bəhcət və Xamenei: Əgər fəsada səbəb olarsa, caiz deyil, Əksinə əksər hallarda qadının kişinin hüzurunda mahnı oxuması və onun səsinin dinlənməsi fəsada səbəb

.olduğuna görə caiz deyildir. İstifta

səh:۹۰

.Fazil: Caiz deyildir, çünki adətən fəsad gətirir. Camiül-məsail, cild, ۱, sual ۱۷۲۴

Məsələ ۱۸۵: İslam respublikasının radiosundan efirə buraxılan qadın deyimlərinə qulaq ?asmağın hökmü nədir

.Bəhcət və Xamenei: Əgər fəsada səbəb olarsa caiz deyildir. İstifta

Fazil: Əgər ğina ünvanı olmazsa və təhrikedici də olmazsa, eybi yoxdur. Camiul-.məsail, cild, ۱, sual ۷۲۵

Məsələ ۱۸۶: Qadınların naməhrəm müqabilində Quran oxumaları, hətta sovt-ləhn ilə .olarsa, işkalı yoxdur. Bu şərtlə ki, şəhvətin təhrik olunmasına və fəsada səbəb olmasın

İmam: Əhkami banəvan kitabının istiftasından istifadə etməklə. Sual ۵, səh.۲۴

.Xamenei: İstifta

.Fazil: Camiül-məsail, cild, ۱, ۱۷۲۲-ci sualdan istifadə etməklə

Bəhcət: Əgər fəsada səbəb olarsa, caiz deyil. Əksinə, əksər hallarda qadının kişinin hüzurunda oxuması və onun səsinin dinlənməsi fəsada səbəb olduğuna görə caiz .deyil. İstifta

Sistani: Adətən dinləyicinin təhrik olunmasına səbəb olduğu bir tərzdə olarsa caiz deyil. .İstifta

Məkarim: Qadınların naməhrəmlər müqabilində ucadan Quran oxuması işkallıdır. .İstifta

Məsələ (Sual) ۱۸۷: Şəhvət məsələləri ilə əlaqədar olan eşq kitablarını oxumaq ?caizdirmi? Belə kitabların çap olub, yayılması caizdirmi

.Bəhcət: Yaxşı olar ki, insan öz ömrünü zay etməsin. Bu iş ehtiyatın xilafınadır. İstifta

.Xamenei: Caiz deyildir. İstifta

Sistani: Harama düşmək ehtimalı olduqda caiz deyildir və onun çap olunub yayılması

.fəsada səbəb olarsa, caiz deyildir. İstifta

Fazil: Əgər zəlalət kitablarından hesab olunsa və oxucuların öz yolunu azmasına səbəb .olarsa onu oxumaq, nəşr etmək və saxlamaq caiz deyildir. İstifta

.Məkarim: Əgər onda fəsad qorxusu olarsa caiz deyildir. İstifta

Məsələ (Sual) ۱۸۸: Naməhrəmə məktub yazmaq, eşq və şəhvət məsələlərini bu ?məktubda irəli çəkməyin hökmü nədir

.Fazil: Fəsada səbəb olan hər bir işdən çəkinmək lazımdır. İstifta

.Bəhcət: Fəsad olduğuna görə caiz deyildir. İstifta

Sistani: Bu kimi işlər fitnə-fəsad yaratdığına, fəsad zəminləri icad etdiyinə görə caiz .deyil. İstifta

.Məkarim: Caiz deyildir. İstifta

səh:۹۲

## TƏMASLARIN HÖKMLƏRI

Məsələ ۱۸۹: Kimə baxmaq caiz deyildirsə, onunla bədən təmasında olmaq da caiz deyildir. Onun bədəninə hər növ ləms etmək (toxunmaq), hər üzv ilə olsa belə, haram... dır, ondan çəkinmək lazımdır. Amma libasın üstündən ləzzət və reybə qəsdi olmadan .toxunmaq istisna olunur

.İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ ۴۷

.İmam: Təhrir, Nikah, məsələ ۲۰

.Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۴-cü məsələdən istifadə etməklə

.Sistani: Minhacus-salihin, nikah, ۱۶-cı məsələdən istifadə etməklə

Məsələ (Sual) ۱۹۰: Naməhrəmlə əl verib görüşmək caizdirmi? Halbuki ləzzət və reybə .qəsdi yoxdur

Cavab: Caiz deyildir. Yalnız paltarın üstündən eybi yoxdur ki, bu halda da ehtiyat-.vacibə görə onun əlini sıxmamalıdır

.İmam, Fazil, Məkarim: Ürvə, , Nikah, ۴۷-ci məsələdən istifadə etməklə

.Bəhcət: Tovzihul-məsail, ۱۹۳۴-cü məsələdən istifadə etməklə

Xamenei: Naməhrəmlə əl verib görüşmək haramdır və arada paltar olmaqla əl verib görüşmək əgər fəsada səbəb olmazsa və bir-birinin əlini sıxmazlarsa caizdir. Amma .fəsada səbəb olarsa haramdır

.Sistani: Naməhrəmlə əl verib görüşmək caiz deyil, yalnız paltar üstündən eybi yoxdur

Minhacus-salihin, nikah, ۱۶-cı məsələdən istifadə etməklə və İstifta

Məsələ (Sual) ۱۹۱: Biz qərb ölkələrinin institut mühitlərində qadın müəllimlərimizlə, yaxud qız tələbə yoldaşlarımızla görüşərkən, əl verib görüşməyə məcbur oluruq, əgər

?belə etməsək, müsəlman tələbələrin ədəbsizliyinə yozurlar. Bizim vəzifəmiz nədir

Cavab: Onlara başa salmaq lazımdır ki, naməhrəm qadınla görüşməməyin mənşəyi ədəbsizlik deyil, əksinə İslam əqidələrinin nəticəsi və onun hökmlərinə iltizamlı .olmaqdan irəli gəlir

İmam, Bəhcət, Xamenei, Fazil, Məkarim: Əvvəlki məsələnin mənbələrindən istifadə .etməklə

.Fazil: Camiul-məsail, cild, ١, sual ١٧١٧

Məsələ ١٩٢: Hicablı müsəlman qadının əllərini və üzünü görmək, eləcə də kafir qadınlarının bədəninin adətən açıq qalan yerlərini görmək işkallı deyildir, amma onlara .toxunmaq caiz deyildir

.İmam, Fazil, Məkarim: Ürvə, , Nikah, məsələ ۴٧

.İmam: Təhrir, Nikah, məsələ ٢٠

.Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, ١٩٣۴-cü məsələdən istifadə etməklə

.Sistani: Minhacus-salihin, nikah, ١۶-cı məsələdən istifadə etməklə

NƏTİCƏDƏ: Naməhrəm qadınla kişi bir-biri ilə əl verib görüşə bilməz, bir-biri ilə digər ❊ .bədən təmasları tuta bilməzlər

Diqqət: Aşağıdakı hallarda hər yerdən daha artıq bədənlə əlaqədar təmaslara ehtiyatlı :olmaq lazımdır

Məsələ ١٩٣: Ləzət qəsdi olmadan qoca qarılara baxmaq və onların bədəninə əl vurmaq .caizdir

Bəhcət Tovzihul-məsail, Məsələ ١٩۴٣

Sistani və Məkarim: Naməhrəm qoca qadınların bədənlərinə əl vurmaq caiz deyildir. Amma ərə getməyə şərait və ümid olmayan qoca qadınların saçlarına, boyunlarına və .qollarına ləzzət qəsdi olmadan baxmaq caizdir

Məsələ (Sual) ١٩۴: Taksi sürücülərinə yol pulu verərkən qadının əli kişinin əlinə ?toxunarsa, bu iş haramdırmı

Cavab: Əgər təsadüfi olarsa, eybi yoxur, lakin əgər qəsdən onların əli bir-birinə .toxunarsa, caiz deyildir

.Bəhcət, Təbrizi, Xamenei, Sistani, Məkarim: İstifta

Məsələ ۱۹۵: Qarışıq yerlərdə (bazarlar, nümayişlər, cümə namazları, dəfn mərasimi, hərəmlərdə, yaxud Allah evinin ziyarətçiləri arasında və s.) naməhrəm kişi ilə qadın arasında təsadüfi olaraq baş verən bu təmasların eybi yoxdur. Bu şərtlə ki, həmin .yerlərə təmas tapmaq üçün qəsdən getməmiş olsun

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil, Sistani, Məkarim: İstifta

NƏTİCƏDƏ: Əgər bir şəxs bədəninin naməhrəmlə toxunması üçün müəyyən bir yerə ❊ gedərsə, yaxud müəyyən bir yerdən keçərsə, yaxud avtobusda, taksidə və s. yerlərdə

məsələn, metrolarda və qatarlarda) naməhrəm şəxsin yanında oturarsa, yaxud) .dayanarsa və s. bu işlər haramdır və bu kimi işlərdən çəkinmək lazımdır

?Məsələ (Sual) ۱۹۶: Naməhrəmlə yanaşı yol getməyin hökmü nədir

.Cavab: Əgər ləzzət və reybə qəsdi ilə olarsa, caiz deyildir

İmam, Bəhcət, Xamenei, Fazil, Sistani, İstifta

Məkarim: Əgər fəsad qorxusu varsa, caiz deyildir. İstifta

Məsələ ۱۹۷: Kişilər ehtiyat-vacibə görə gərək altı yaşdan yuxarı olduqları halda naməhrəm qızları qucaqlamasınlar, öz ayaqları üstünə qoymasınlar və yaxud .öpməsinlər

İmam, Fazil, Məkarim: Ürvə, nikah, məsələ ۳۶

İmam: Təhrir, nikah, məsələ ۲۵

Bəhcət: Əlbəttə, əgər müməyyiz olmasa və ləzzət qəsdi olmasa. Əks halda qəti bir haram işdir. İstifta

Sistani: Kişilər ehtiyat-müstəhəbbə görə yaxşı olar ki, altı yaşından artıq olan naməhrəm qızları qucaqlamasınlar, ayaqları üstündə oturtmasınlar, yaxud onları .öpməsinlər

Minhacüs-salehin, nikah, məsələ ۲۳

Məsələ (Sual) ۱۹۸: Taksidə (avtobus, metro) və yaxud sair nəqliyyat vasitələrində (naməhrəmlərin) aralarında paltar üzərindən təmas (toxunma) olarsa, naməhrəm ?şəxsin yanında oturmaq caizdirmi

Cavab: Əgər ləzzət və reybə qəsdi olmazsa, bu işin ardınca fəsad da gəlməzsə, sadəcə .olaraq qeyd olunan şəkildə oturmağın işkalı yoxdur

İmam, Fazil, Məkarim: Ürvə, Nikah, ۴۷-ci məsələdən istifadə etməklə

Bəhcət, Təbrizi, Xamenei, Sistani, İstifta

Məsələ ١٩٩: Əgər bir qadın filan naməhrəm şəxsin maşına minəcəyi təqdirdə, özünün, yaxud sürücünün günaha aludə olacağından qorxarsa, bu halda qadının maşına minməsi caizdirmi? Əgər sürücü bu işdən qorxarsa, qadını maşına mindirməsi ?caizdirmi

Bəhcət: Fərz olunan halda (bu işdən) çəkinməlidir. İstifta

səh:٩٥

Məkarim: Hər iki surət məhəlli-işkaldır. İstifta

səh:٩۶

## ÖPMƏYİN HÖKMLƏRİ

Məsələ (Sual) ٢٠٠: Bəzi məntəqələrdə məhrəm-naməhrəm məsələlərinə çox da əhəmiyyət verilmir, xüsusilə kənd yerlərində. Misal üçün, öz arvadını ərin qardaşından qorumurlar və onu həqiqi qardaş hesab edirlər. Belə ki, qarşılıqlı olaraq onu öz bacısı hesab edir, çox hallarda əl verib, yaxud bir-birinin üzündən öpürlər, yaxud əmi qızı və dayı qızı, xala oğlu və əmi oğlu ilə görüşüb bir-birinin üzündən öpür və bu əməl sadəlikdən irəli gəldiyinə, ləzzət və reybə qəsdi olmadan baş verdiyinə görə işkalı vardırmı? Əgər haram olduğu fərz edilsə parçanın üstündən bu işləri görməyin hökmü ?nədir

Cavab: Yuxarıda qeyd olunan halların heç biri caiz deyildir və yaxşı olar ki, parçanın .yanından görüşməkdən də çəkinsinlər

İmam, Bəhcət, Xamenei, Sistani, Fazil, Məkarim: Əvvəlki məsələnin mənbələrindən .istifadə etməklə

.Fazil: Camiul-məsail, cild, ١, sual ١٧١۶

Məsələ ٢٠١: Məhrəm şəxsləri öpməyin işkalı yoxdur. Bu şərtlə ki, ləzzət və reybə qəsdi (.ilə olmasın (həyat yoldaşı istisna olunur ki, bu halda mütləq şəkildə caizdir

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim, İstifta

.Sistani: Minhacus-salihin, nikah, ١۶-cı məsələdən istifadə etməklə

NƏTİCƏDƏ: Bacı uşağını, nəvəni, yaxud hər bir uşağı və ümumi şəkildə hər bir ⁕ məhrəmi ləzzət və reybə məqsədi ilə öpmək haramdır. Əlbəttə, həyat yoldaşı istisna .olunur

Məsələ ٢٠٢: Əgər insan başqasını – istər uşaq olsun, yaxud onun məhrəmlərindən – öpdüyü təqdirdə günaha düşəcəyini bilirsə, onu öpməməlidir

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

Sistani: Minhacus-salehin, nikah, ١۶-cı məsələdən istifadə etməklə

Məsələ ٢٠٣: Məhrəmlərin, görünməsi caiz olan hər yerindən öpməyin işkalı yoxdur. İstər alın olsun, istər çiyin, yaxud əl və sair. Bu şərtlə ki, ləzzət və reybə qəsdi ilə (.olmasın. (Həyat yoldaşı istisna olunur ki, onda mütləq şəkildə caizdir

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim, İstifta

səh:٩٧

Sistani: Minhacus-salehin, nikah, ۱۶-cı məsələdən istifadə etməklə

Məsələ ۲۰۴: Hər bir şeyi ləzzət və şəhvət qəsdi ilə öpmək haramdır, istər daş olsun, .istər taxta, istər dəmir, istər heykəl və sair

İmam, Bəhcət, Xamenei, Fazil: İstifta

.Bəhcət: Bu hökm heykəl və ya gəlinciyə aiddir. İstifta

Təbrizi: Əgər bu öpməklə inzal baş verməzsə, heç bir haramlığı yoxdur. İstifta

**ÜMUMİ BİR QANUN**

Məsələ ٢٠٥: Hər hansı bir şeylə, yaxud hər bir kəslə bədənin hər hansı üzvü ilə olursa olsun, ləzzət və reybə qəsdi ilə təmas tutmaq haramdır. (Həyat yoldaşı istisna .(olmaqla

İmam, Bəhcət, Xamenei, Fazil, Məkarim, İstifta

Təbrizi: Əgər bir kəs şəhvət üzündən bir şeyə toxunsa, lakin inzal baş verməzsə, haram yoxdur; əgər inzal baş verərsə, istimna hesab olunur və istimna da haramdır. Əgər bir şəxsi şəhvət üzündən ləms edərsə, istər qadın, istərsə də kişi; istər həddi-büluğa çatsın, istərsə də çatmasın, haramdır, hətta inzal baş verməsə də. Əlbəttə, həyat yoldaşı istisna olunur. İstifta

:NƏTİCƏDƏ ❊

Şəhvətlə hər hansı bir şeyi yemək, hər hansı bir şeyə, yaxud bir kəsə (şəhvətlə) əl vurmaq, yaxud hər hansı bir şeyi (şəhvətlə) öpmək, yaxud hər hansı bir səsə (şəhvətlə) qulaq asmaq – istər insan səsi olsun, istərsə də başqa bir şey – hər hansı bir sözü bir kəsə (şəhvətlə) demək, hətta uşaqlara belə, bir sözlə, hər bir iş ləzzət, reybə .və şəhvət qəsdi ilə olsa haramdır

Məsələ (Sual) ٢٠۶: Mərhum İmamın və şəhidlərin şəkillərini öpmək biz qadınlar üçün ?bizə naməhrəm olduğuna görə işkalı varmı

Xamenei: Ümumi şəkildə bir şəxsin şəkli onun özünün hökmündə deyil. Buna görə də şəkli ehtiram və təbərrük, eləcə də məhəbbət göstərmək məqsədilə öpmək reybə .qəsdi ilə və günaha düşmə qorxusu olmadan baş verərsə, qorxusu yoxdur

Əcvibətul-istiftaat, ٢-ci ci cild, sual١٠۶

səh:٩٩

**İSTİMNA**

.Məsələ ٢٠٧: İstimna etmək haramdır və ondan çəkinmək lazımdır

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim, İstifta

Fazil Cameul-məsail ٢-ci cild, sual ١٥٢

Buna görə də əgər bir kəs mübarək Ramazan ayında qəsdən öz orucunu istimna) (.pozsa, cəm kəffarəsi verməlidir

.Bəhcət, Təbrizi, Məkarim: Ehtiyata görə gərək cəm kəffarəsi versin

.İzah: İstimna o əməldir ki, insan özü ilə məninin xaric etmək üçün edir

Məsələ (Sual) ٢٠٨: Mən bir cavanam ki, təhrikedici səhnələr barəsində fikirləşdikdə məndən məni xaric olur. Bu iş (fəqət fikirləşmək) məninin xaric olması məqsədi ilə ?edilən bu iş istimna hökmünə malikdirmi

Cavab: Əgər qəsdən məni xaric etmək məqsədi ilə olarsa və fikirləşməklə məninin .xaric olacağını bilirsə, gərək ondan çəkinsin

İmam, Xamenei, Fazil, Sistani: İstifta

Məkarim: Əgər bu iş həmin məqsədlə əncam verilsə və məni xaric olsa istimna hesab olunur. İstifta

Məsələ ٢٠٩: Haram şəhvətbazlıq məqsədilə hər hansı bir şey tədarük görmək caiz .deyildir

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim, İstifta

Məsələ ٢١٠: Bir nəfər istimna edirmiş, onun hökmü nədir? Onun bu əməli qusla səbəb ?olurmu

.Cavab: Bu əməl haramdır və məninin xaric olmasına yəqin edibsə, qüsl etməlidir

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

İmam: Tovzihul-məsail məsələ ٣۴۵

Bəhcət: Tovzihul-məsail məsələ ٣۴٩

Təbrizi: Tovzihul-məsail məsələ ٣۵١

Fazil: Cameul-məsail ٢-ci cild, sual ١۵٢, Tovzihul-məsail məsələ٣۴٧

Sistani: Tovzihul-məsail məsələ ٣۵١

Məkarim: Tovzihul-məsail məsələ ٣۶٠

Məsələ (Sual) ٢١١: Şəhvətin qarşısını almaq üçün nə etmək lazımdır? Bu barədə istimna ?caizdirmi

Bəhcət: Harama düşmə qorxusu olan halda izdivac etməlidir ki, günaha düşməsin. İstifta

Xamenei: Şəhvəti təhrik edən səhnələrə baxmamaq, şəhvət yaradan məclislərdə və mərkəzlərdə iştirak etməmək, oruc tutmaq, sağlam idmanlarla məşğul olmaq, ibadət və vacibatlara əhəmiyyət verməyin özünə məxxsus təsiri vardır. İstifta

Məsələ (Sual) ٢١٢: İnsanı şəhvətə salan təhrikedici səhnələri göz önünə gətirmək və bu ?barədə fikirləşmək caizdirmi

Təbrizi: Sadəcə fikirləşməyin haramlığı yoxdur. Siratun-nəcat, sual ٨٨١

Məsələ (Sual) ٢١٣: Risalənizdə qeyd olunmuşdur ki, istimna şərən haramdır, lakin ?buyurun görək, istimna edən şəxs barəsində islamın nəzəri nədir

Bəhcət, Sistani, Fazil və Məkarim: Vacibdir ki, tövbə etsin və tövbə etməzdən qabaq onun hökmü təzirdən[١٣] ibarətdir. Əgər şəriət hakimi üçün onun günahı sübuta yetmiş .olsa

.Fazil: Cameul-məsail ٢-ci cild, sual ١١٧٨-dən istifadə etməklə

Bəhcət, Sistani, Məkarim: İstifta

## MƏCLİSLƏRİN, QONAQLIQLARIN, GEDİŞ–GƏLİŞLƏRİN HÖKMLƏRİ

Məsələ ۲۱۴: Naməhrəm qadın ilə kişinin bir-birinə qarışması məkruhdur, lakin qoca kişi .və qoca arvadlar istisna olunur

İmam, Fazil Ürvə, Nikah, məsələ: ۴۹

Bəhcət: Bir-birinə qarışması haramdır. İstifta

Təbrizi: Naməhrəm qadın və kişinin bir-birinə qarışması fəsada zəminə yaradır və insanın harama düşməyinə səbəb olur, caiz deyildir: İstifta

Məkarim: Əlbəttə həcc mərasimində qadın kişinin bir-birinə qarışması məkruh deyil: İstifta

Diqqət: Bu məkruh olmaq o zamandır ki, məclisdə heç bir vəch ilə haram bir iş baş verməsin. Əks halda, qadınla kişinin bir-birinə qarışması haramdır. Misal üçün, əgər bir məclisdə qadınların kamil hicabı olmazsa, yaxud zinətlənmiş olarsa və yaxud qadınla kişilər arasında haram təmaslar baş verərsə, onların bir-birinə qarışması haram .olacaqdır

.Məsələ ۲۱۵: İnsanın günaha mürtəkib olduğunu bildiyi məclislərə getməsi caiz deyildir

İmam, Bəhcət, Xamenei, Məkarim, İstifta

Fazil: Cameul-məsail, ۱-ci cild, ۲۲۳۱-ci sualdan istifadə etməklə və ۲-ci cild, sual ۷۵۰

Sistani: Əgər günaha düşəcəyindən qorxarsa, hökmən onun məclisə getməsi caiz deyildir. İstifta

Misal üçün: İnsanın gedəcəyi təqdirdə, naçar qalıb hicabsız naməhrəm şəxslərə baxacağına, qeybət edəcəyinə, yalan danışacağına, yaxud hər hansı bir digər harama .düşəcəyinə bildiyi qonaqlıq məclislərinə getməsi caiz deyildir

Aşağıdakı hallarda və məclislərdə və kişi qadının bir-birinə qarışmasında günah .ehtimalı var və başqa hallarda olduğundan daha artıq ehtiyatlı olmaq lazımdır

Arvad-kişinin qarışıq olduğu qonaqlıq məclislərini təşkil etmək, xüsusilə əgər iştirakçılar cavan olsa, naməhrəmlərlə birlikdə yemək yeyərkən, naməhrəmlə əyləncəyə, o cümlədən

bağa, parka, dağa səfərə getmək, xüsusilə əgər naməhrəm qadın və kişi maşında tək olarsa; namahrəmlə zarafat etmək, iki naməhrəm şəxsin bir işdə bir-birilə həmkarlıq .etməsi və s

Məsələ ۲۱۶: Əgər iki bir-birinə naməhrəm olan qadın və kişi xəlvət bir yerdə olsalar və onlardan başqa bir kəs də orada olmasa və başqası da ora daxil ola bilməsə bu halda harama düşəcəyindən qorxsalar, gərək oradan bayıra çıxsınlar. Onların həmin yerdə .qalması haramdır

İmam Tovzihul-məsail ۲۴۴۵-ci məsələ

Təbrizi Tovzihul-məsail ۲۴۵۴-cü məsələ

Bəhcət, Xamenei: İstifta

Fazil Tovzihul-məsail ۲۵۱۱-ci məsələ

Sistani: Naməhrəm qadınla kişinin başqasının olmadığı bir yerdə olması, fəsad ehtimalı verilən zaman, haramdır. Hətta başqası ora daxil ola biləcəyi təqdirdə olsa belə. Lakin əgər fəsad ehtimalı olmazsa, işkalı yoxdur. Tovzihul-məsail, ۲۴۵۴-cü məsələ

Məkarim: Ehtiyac vacib budur ki, naməhrəm qadın və kişi başqalarının daxil ola bilmədiyi bir yerdə olmasın, hətta əgər orada namaz qılsalar belə, onların namazı işkallıdır. Tovzihul-məsail ۲۰۹۵-ci məsələ

Məsələ (Sual) ۲۱۷: Biz elə bir tayfa ilə gediş-gəliş edirik ki, onlar namaz qılmamaqdan əlavə, məsihilərlə gediş-gəliş də edirlər. Onların qadınları və qızları kamil hicaba riayət etmir, saçları həmişə görünür, nə qədər nəsihət etsək də təsiri yoxdur. Əgər evdə öz gözümüzü bağlamaq istəsək, mümkün olmur əgər baxmaq istəsək, günaha düşürük. ?Bu halda nə etməliyik? Onlarla gediş-gəliş etmək baxımından vəzifəmiz nədir

Məkarim: Sizin əmr be məruf və nəhy əz münkər[۱۴] etməkdən əlavə – təsir qoyacağına ehtimal verdiyiniz halda – başqa bir vəzifəniz yoxdur. Onlarla gediş-gəliş etdiyiniz halda ehtiyatlı olmalısınız ki, sizin özünüz naməhrəmə günah nəzəri salmayasınız və onlarla gediş-gəlişi kəsmək lazım deyildir. Bu ehtimalla ki, bəlkə

müəyyən qədər gediş-gəliş etmək onların dinlərinə təsir qoya bilsin. Allah onları hidayət və şəri vəzifələrinə tanış etsin! İstifta

səh:١٠٣

## ÖZÜNÜ GÖSTƏRMƏYİN HÖKMLƏRİ

.Məsələ ٢١٨: Başqasını günaha salmaq məqsədilə özünü göstərmək haramdır

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

Misal üçün: Əgər bir qadın özünü naməhrəm kişinin diqqətini ona cəlb olacağı, yaxud ona üz gətirəcəyi şəkildə özünü göstərsə haramdır. Xüsusi şəkildə yol getmək, xüsusi şəkildə danışmaq, xüsusi hərəkətlər göstərmək, təbəssüm etmək, naməhrəmlə xüsusi şəkildə gülmək, zarafat etmək, yaxud hətta naməhrəmin qarşısında onun nəzərini cəlb etmək və onu harama salmaq məqsədilə mütaliə etmək, xüsusi libaslar geyinmək, müxtəlif əşyaları götürmək o cümlədən çanta, kitab, gül və s. götürmək, yaxud başqasını günaha salmaq məqsədilə onları xüsusi şəkildə götürmək, naməhrəmə xüsusi baxışla baxmaq və. s kimi halların hamısında əgər başqasının .nəzərini cəlb etmək və onu harama salmaq məqsədi olarsa haramdır

NƏTİCƏDƏ: Xüsusilə əziz cavanlar özünü göstərmələrdən və buna oxşar hallardan ۞ .ciddi şəkildə çəkinməlidirlər

Məsələ ٢١٩: Əgər özünü göstərmək başqalarını günaha salmaq məqsədilə olmazsa, .haram deyildir

Misal üçün: Bir qadın naməhrəm qonaq olduğu zaman daha yaxşı yemək bişirir, evi daha yaxşı səliqəyə salır ki, naməhrəmin nəzər-diqqəti onun yaxşı qadın olduğuna yönəlsin, yaxud yaxşı danışır ki, başqalarının nəzərlərini öz fəzilətinə cəlb etsin və s. bu .qəbildən olan hallar haram deyildir

Diqqət: Əlbəttə, hər hansı bir iş özünü göstərmək məqsədi ilə olarsa, əxlaq cəhətindən məzəmmət olunur və yaxşı bir iş sayılmır, əxlaq alimlərini bundan çəkindirmişlər. Lakin əgər bu özünü göstərmək başqalarını harama salmaq məqsədi ilə olarsa, haram da .olacaqdır

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil, Məkarim, İstifta

səh:١٠۴

Məsələ (Sual) ۲۲۰: Əgər bir qadın naməhrəmin diqqətini cəlb etmək üçün bir iş görərsə ?bu iş caizdirmi

Əgər kişi müəyyən bir iş görsə, yaxud müəyyən bir paltar geyib naməhrəmin ?diqqətinin cəlb etmək istəsə, bu caizdirmi

Məkarim: Hər iki halda caiz deyildir: İstifta

Bəhcət: Əxlaq, ehtiyatın xilafınadır. Əgər şəhvətin təhrik olunmasına səbəb olarsa, haramdır. İstifta

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

.Məsələ ۲۲۱: Kişilər də qadınları harama salmaq məqsədi ilə özlərini göstərməməlidirlər

NƏTİCƏDƏ: Naməhrəm şəxsi harama salmaq məqsədilə xüsusi paltarlar geymək, ❊ xüsusi şəkildə danışmaq, baxmaq, yol getmək, naməhrəmin diqqətini cəlb etmək məqsədi ilə şəhvət yaradan rəftarlar göstərmək, sürücülük etmək, yaxud naməhrəmin müqabilində xüsusi şəkildə motosiklet sürmək, zarafat etmək, naməhrəmin qarşısında xüsusi şəkildə idman etmək, onu harama salmaq məqsədi ilə boyunbağı salmaq, yaxud naməhrəmin diqqətini cəlb etmək üçün biləkləri, sinəni açıq qoymaq bütün bunların hamısı və onun oxşarları hamısı haramdır və ondan çəkinmək .lazımdır

## ƏQD VƏ TOY MƏRASİMİNİN HÖKMLƏRİ

Bu bölmədə elçilik mərasimində ehtiyac duyulan hökmləri, əksər hallarda bu mərasiminin keçirildiyi ardıcıllıqla bəyan edəcəyik. Buna görə də bu bölmədə əvvəlcə ər və onun ailəsinin gəlin barədə təhqiqat aparmasının hökmləri ondan sonra isə bazardan lazım olan şeyləri almaq, dəvət etmək, əqd və toy mərasiminin tədarükünün görmək və nəhayət kişilərin və qadınların əqd və toy mərasimində ehtiyac duyulan .hökmləri ardıcıl şəkildə bəyan edəcəyik

Məsələ ۲۲۲: Arvadı olmadığına (subay olduğuna) görə harama düşən bir şəxsin arvad .alması vacibdir

İmam, Fazil, Məkarim, Ürvə, nikah, məsələ ۴

İmam, Tovzihul-məsail, məsələ ۲۴۴۳

Bəhcət: İmkanı olan halda belə bir şəxsin evlənməsi vacibdir: İstifta

Təbrizi: Tövzihul-məsail, məsələ ۲۴۵۲

Xamenei: İstifta

Sistani Tovzihul-məsail, məsələ ۲۴۵۲

Fazil Tovzihul-məsail, məsələ ۲۵۰۹

Məkarim Tovzihul-məsail, məsələ ۲۰۲۳

NƏTİCƏDƏ: Əgər bir şəxs izdivac etmədiyi təqdirdə günaha düşəcəyini, o cümlədən * naməhrəmə, onun şəklinə, kinoya baxacağına məcbur olacağını;, yaxud Allah eləməmiş, istimna və s. etmək məcburiyyətində qalacağını, yaxud naməhrəmlə qanunsuz əlaqədə olacağını bilirsə, evlənməsi vacibdir. Xüsusilə əziz cavanlar diqqət yetirməlidirlər ki, insan indiyə qədər onun maddi və mənəvi ruzilərini çatdıran Allahın əmrlərini yerinə yetirib razılığını cəlb etmək məqamına gələrsə, o halda da mütəal Allah Öz nemətlərini əvvəldə olduğundan daha artıq ona ehsan edəcək, onun yolu .üzərində mövcud olan digər maneələri də aradan qaldıracaqdır

Allah-Taala ilə müamilə edin və evlənməklə özünüzü günahdan xilas edin! Allah-Taalanın razılığını əldə etməyə

.çalışın və əmin olun ki, Mütəal-Allah sizi xoşbəxt və səadətli edəcəkdir

Məsələ ٢٢٣: Evlənmək, hətta əgər insan evlənməməklə günaha düçar olmasa belə, .müstəhəbdir

İmam, Fazil, Məkarim: Ürvə, Nikah ١-ci məsələdən qabaq və ١-ci məsələ

Bəhcət, Təbrizi, Xamenei, Sistani, İstifta

Məsələ ٢٢٤: Müstəhəbdir ki, həddi-büluğa çatan, yəni mükəlləf olan qızı ərə verməkdə .laqeyd yanaşmasınlar

İmam, Fazil, Məkarim Ürvə, Nikah, məsələ: ١۴

İmam, Tovzihul-məsail, məsələ ٢۴۵٩

Təbrizi, Tovzihul-məsail, məsələ ٢۴۶٨

Bəhcət və Sistani: İstifta

Fazil, Tovzihul-məsail məsələ ٢۵٢۵

Məkarim: Eləcə də həyat yoldaşına ehtiyacı olan oğlanlar barəsində də; əlbəttə bizim dövrümüzdə bəzən müəyyən cəhətlər qızı tez ərə verməyə mane olur, bu kimi .hallarda şərən üstünlük verilənləri seçmək lazımdır

Ürvə, nikah, məsələ ١۴ və İstifta

Məsələ ٢٢۵: Müstəhəbdir ki, əqd və toy mərasiminin xərclərini, eləcə də mehriyyənin .miqdarını az qərar versinlər

İmam, Fazil, Məkarim Ürvə, Nikah, məsələ: ١٧

## TƏHQİQAT APARMAĞIN HÖKMLƏRİ

### İŞARƏ

Ərlə arvadın hər birinin barəsində təhqiqat aparmaq ya birbaşa sürətdə baş verir, ya da müəyyən yollarla. Birbaşa dedikdə məqsəd budur ki, ər və arvaddan hər biri başqasının barəsinə birbaşa təhqiqat aparır. Birbaşa olmayan təhqiqat dedikdə məqsəd budur ki, insan (gələcək) həyat yoldaşı barədə başqa şəxslərin, misal üçün, .dostu, qohumu, qonşusu, həmkarı və s. vasitəsi ilə təhqiqat aparsın

Məsələ ۲۲۶: Ər-arvadın hər birinin barəsində təhqiqat aparmaq hər bir şəxs tərəfindən olsa belə, caizdir. Hətta onun özündə və ya ailəsində müəyyən eyiblərin aşkar .olmasına səbəb olsa belə

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

Məsələ ۲۲۷: Əgər ərlə arvadın hər biri, yaxud onların ailəsi barəsində eyblərin təhqiq olunması evlənmədə rol oynayırsa, eybi yoxdur və haram olan casusluq hökmünə .malik deyildir

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil, Sistani, Məkarim: İstifta

NƏTİCƏDƏ: İnsan yalnız o eybləri axtara bilər ki, evlənməyə və tərəflərdən hər ⁕ birinin tanınmasına aiddir. Bundan başqa surətlərdə evlənmək bəhanəsi ilə şəxslərin .həyatı barəsində casusluq edə bilməz

Məsələ ۲۲۸: Ərlə arvadın hər biri digəri barəsində birbaşa olaraq təhqiqat apara bilər, .bu şərtlə ki, bu təhqiqat haram işə səbəb olmasın

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil, Sistani, Məkarim, İstifta

NƏTİCƏDƏ: Onların ləzzət qəsdi ilə söhbət etməsi, yaxud qapalı bir mühitdə xəlvət ⁕ yerdə olmaları, yaxud ləzzət qəsdi ilə bir-birinə baxmaları və yaxud bir-birinə .toxunmaları haramdır və bu işlərdən çəkinmələri lazımdır

:Məsələ ۲۲۹: Ərlə arvadın hər biri aşağıdakı şərtlərlə digəri barəsində təhqiq apara bilər

;Baxış ləzzət və reybə qəsdə ilə olmasın-۱

;İzdivac bu baxışa bağlı olsun-۲

.Bu iki şəxsin evlənməsinə heç bir maneə olmasın-۳

İmam və Fazil Ürvə, Nikah, məsələ: ۲۶

İmam Təhrirül-vəsilə, nikah, məsələ ۲۸ və: İstifta

Xamenei: İstifta

Bəhcət: Əksinə, əgər belə bir baxış əqddən sonra yarana biləcək çəkişmələrin qarşısını almaq məqsədilə həm də müstəhəbbdir, bunun caizliyinə qadının icazəsi lazım deyildir, həmçinin qadın da evlənmək ərə getmək istədiyi kişinin qeyd olunan şərtlərlə bədəninə baxa bilər. Tovzihul-məsail məsələ ۱۹۴۴ və İstifta

:Sistani: Evlənmək məqsədilə naməhrəmə baxmağın şərtləri aşağıdakılardır

;İzdivac bu baxışa bağlı olsun-۱

;O iki şəxsin izdivacına heç bir maneə olmasın-۲

.Onun halı barədə əvvəlcədən məlumatlı fərd olmasın-۳

.Qarşı tərəfin qəbul etməsinə ehtimal versin-۴

Həmin şəxslə izdivac etmək istəsin, nəinki, hansı ilə evlənməsini təyin etmək üçün-۵ .bir neçə nəfərə baxsın

Minhacüs-salehin, Nikah, məsələ: ۲۸

Məkarim: Yalnız qadının üzünə, əllərinə, saçlarına, boynuna və bunların ətrafından bir miqdara, yaxud libas üzrindən bədənin həcminə baxa bilər. Ürvə, Nikah, məsələ:۲۶

### :BİRİNCİ ŞƏRTƏ ƏSASƏN

Məsələ ۲۳۰: Onlardan hər birini ləzzət qəsdi ilə digərinə baxması caiz deyildir. Lakin, .əgər onu gördükdə sonra təbii olaraq ləzzət gələcəyini bilirsə, işkalı yoxdur

İmam, Fazil, Məkarim, Ürvə, nikah, məsələ ۲۶

Xamenei: İstifta

Sistani, Minhacus-salihin, nikah, məsələ ۲۸

.Məsələ ۲۳۱: Yaxşı olar ki, bu baxış nazik paltar üzərindən olsun

İmam Təhrir Nikah, məsələ: ۲۸

Məkarim: İstifta

## :İKİNCİ ŞƏRTƏ ƏSASƏN

.Məsələ ۲۳۲: Bu baxmaq ər-arvadın əncam verdiyi axırıncı təhqiqat olmalıdır

İmam, Fazil, Məkarim, Ürvə, nikah, ۲۶-cı məsələdən istifadə etməklə

.Bəhcət: Tovzihul-Məsail, ۱۹۴۴-cü məsələdən istifadə etməklə

.Xamenei: İstifta

İzah: Ərlə arvadın hər biri gərək (digəri barəsində) sair təhqiqatların hamısını aparmış .olsunlar və əqd yalnız bu baxışa bağlı olsun: əgər bəyənmiş olsalar əqd baş versin

Məsələ ۲۳۳: Əgər əqd bu baxışa bağlı olmazsa, yaxud necə olmasının insan üçün fərqi .olamazsa, yaxud da naməlum bir şey mövcud olmazsa onun bədəninə baxa bilməz

İmam, Fazil, Məkarim, Ürvə, nikah, ۲۶-cı məsələdən istifadə etməklə

İmam Təhrir Nikah, məsələ: ۲۸

Bəhcət Tovzihul-məsail ۱۹۴۴-cü məsələdən istifadə etməklə

Xamenei: İstifta

Sistani: Əgər heç bir naməlum şey (məlumatsızlıq) mövcud olmazsa və şəxs əvvəlcədən başqasının halından agah olarsa, üzü və əllərindən başqa yerə baxması caiz deyildir. Minhacüs-salehin, məsələ ۲۸

## ÜÇÜNCÜ ŞƏRTƏ ƏSASƏN

.Məsələ ۲۳۴: Əqddə başqa bir maneə olmalıdır

.İmam, Fazil, Məkarim: Ürvə, nikah, ۲۶-cı məsələdən istifadə etməklə

Bəhcət Tovzihul-məsail, ۱۹۴۴-cü məsələdən istifadə etməklə

Xamenei:İstifta

Sistani Minhacus-salehin Nikah ۲۸-ci məsələdən istifadə etməklə

NƏTİCƏDƏ: Misal üçün, əgər qızın atası bu evlənməyə icazə vermirsə, yaxud kişi ❊ hal-hazırda bu qadınla evlənə bilməzsə, yaxud qadının əri varsa (hətta sonradan təlaq almasını qərara alıbsa) bu kimi halların heç birində onlardan biri digərinin bədəninə .baxa bilməz

:Məsələ (Sual) ۲۳۵

a) Kişinin evlənmək istədiyi qadının gözəlliyindən agah olmaq məqsədi ilə onun şəklinə .baxması caizdirmi? Əlbəttə, qadının kamil hicaba riayət etmədiyi halda

b) Bir neçə qadının şəklinə baxıb onların arasından bir nəfərini evlənmək üçün seçmək ?istəsə necə

.avab: Əgər ləzzət qəsdi ilə olmazsa eybi yoxdur{

İmam, Bəhcət, Xamenei, Fazil: İstifta

:Sistani

.a) Qadının şəkli əgər tanış olsa o qadının öz hökmündədir

b) Qadınlar tanış olsalar ehtiyac-vacibə görə caiz deyildir İstifta

səh:۱۱۱

Məsələ ۲۳۶: Əgər bir şəxs müəyyən bir iş, misal üçün izdivac üçün istixarə etsə, .istixarənin nəticəsinə əməl etməsi vacib deyildir

.İmam: İstiftaat ۲-ci cild, ۷۵ və ۷۶-cı suallardan istifadə etməklə

Bəhcət, Xamenei, Fazil: İstifta

Məsələ (Sual) ۲۳۷: Ümumiyyətlə islam nəzərindən həyatın mühüm məsələlərində, o cümlədən izdivac, yaxud mühüm qərar qəbul etmələr zamanı təsbeh Quran, yaxud ?zatur-riqa ilə istixarə etmək səhihdirmi

Cavab: İmamlardan gəlib çatan yollarla işlərin hansı birini seçməkdə sərgərdançılığı (misal üçün, iki yol ayrıcında qalmaq) aradan qaldırmaq məqsədi ilə Allah-Taala ilə .məşvərət və istixarə etməyin işkalı yoxdur

İmam İstiftaat ۲-ci cild, sual ۷۳ Bəhcət, Xamenei, Fazil: İstifta

Məkarim: Əlbəttə, istixarə məşvərət və təhqiqdən sonra və çətinliyin həll olunmadığı halda edilməlidir. İstifta

Məsələ (Sual) ۲۳۸: İstixarə düzgündürmü? Hər hansı bir xeyir iş qabağa gələn zaman ?istixarə edib pis gələrsə, istixarəyə əməl etməliyikmi və ona etiqad bağlamalıyıqmı

Cavab: Bu, etiqad prinsiplərindən deyildir ki, ona etiqad bəsləmək lazım olsun; amma .sərgərdançılıq vəziyyətində rəca ümidi ilə eybi yoxdur

İmam İstaftaat ۲-ci cild, sual ۷۴ Xamenei və Məkarim: İstifta

Məsələ (Sual) ۲۳۹: Mən bir qız üçün elçiliyə getmişdim. İlk mərhələlərin ötməsindən və təhqiqat apardıqdan sonra özləri də bizim yaxşı adam olmağımızı bildilər və başqaları da bunu dedilər. Lakin atası gedib istixarə etdi və pis gəldi. Biz yaxşı iş istixarə istəməz dedik, lakin o deyir ki, mən istixarəyə arxa çevirə bilmərəm. Xahiş edirəm deyin görək, ?bu istixarə düzgündürmü

.(Cavab: İstixarə ilzama səbəb olmaz (ona əməl etmək vacib deyildir

İmam İstiftaat ۲-ci cild, sual ۷۵

Bəhcət, Xamenei, Fazil: İstifta

səh:۱۱۳

## NİŞANLI OLMAĞIN HÖKMLƏRİ

Məsələ ٢۴٠: Əgər nişanlılıq dedikdə məqsəd ər ilə arvadın evlənmək qəsdində olduqları halda aralarında məhrəmliyə səbəb olacaq heç bir əqdin oxunmadığı zaman olarsa onlar bir-birinə naməhrəmdirlər və sair naməhrəmlərlə onların arsında heç bir fərq .yoxdur

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil, Sistani, Məkarim: İstifta

NƏTİCƏDƏ: Onların ləzzət qəsdi ilə bir-birlərinə baxmaları, əl verib görüşmələri, * yaxud hər hansı növdən olan bədən təmasları, qapalı mühitlərdə xəlvət yerdə olmaları (əvvəldə deyilən şərtlər əsasında), bir-birinin yanında kifayət qədər islami hicaba və örpəyə riayət etməmələri, adətən ər-arvad arasında mövcud olan şəkildə bir-biri ilə ünsiyyətdə olmaları və s. iki naməhrəm şəxs arasında haram olan əlaqə hallarındandır .ki, qızla oğlan ondan çəkinməlidir

## DAİMİ ƏQDDƏN QABAQ MÜVƏQQƏTİ ƏQD SİĞƏSİ

Məsələ ٢۴١: Qızın vəlisinin icazəsi ilə nişanlılar arasında müvəqqəti siğə oxunmağın .işkalı yoxdur

İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil, Sistani, Məkarim: İstifta

Sistani Tovzihul-məsail ٢٣٨۵-ci məsələ Minhacus-salihin nikah ۶٧ və ۶٨-ci məsələlərdən .istifadə etməklə

Məsələ ٢۴٢: Qız və oğlan daimi əqddən qabaq qızın atasının icazəsi olmadan öz ?aralarında müvəqqəti əqd siğəsi oxuya bilərmi

Cavab: Əgər qız bakirədirsə atasının icazəsi olmadan siğənin oxunması səhih deyildir. .Bundan ayrı hallarda atanın icazəsi lazım deyil

İmam, Xamenei, Fazil, Sistani: İstifta

Təbrizi: Əgər qız bakirədirsə ehtiyata görə əqdin oxunması ata ya ata tərəfindən olan babanın icazəsi olmadan səhih deyildir. Əgər bakirə olmazsa bu icazə lazım deyil.

Bəhcət və Məkarim: Həddi-büluğa çatan rəşidə – yəni öz məsləhətinin ayırd edə bilən qız bakirə olarsa, ehtiyat budur ki, atasından, yaxud ata tərəfindən olan babasından .icazə alınsın

Məkarim: Tovzihul-məsail məsələ ۲۰۳۷ Bəhcət: Tovzihul-məsail, ۱۸۹۱-ci məsələdən istifadə etməklə və İstifta

Məsələ ۲۴۳: Əgər müvəqqəti əqd siğəsi oxunsa və vaxtı qurtarandan sonra daim əqd .oxunmazsa, qızın anası oğlan üçün ömrünün axırına qədər məhrəm olur

İmam, Fazil, Məkarim, Ürvə, Nikah fil Mühərrəmatifil Müsahirə məsələ ۳

İmam Təhrir Nikahül qoul fil müsahirə

Bəhcət: Tovzihul-məsail ۱۹۰۶-cı məsələ Təbrizi: Tovzihul-məsail ۲۳۹۴-cü məsələ

Xamenei: İstifta

Sistani: Tovzihul-məsail ۲۳۹۴-cü məsələ

Məsələ ۲۴۴: Əgər nişanlılar müvəqqəti əqdin vaxtının qurtarmasından qabaq daimi .əqdi icra etmək istəsələr, gərək kişi qalan vaxtı qadına hibə[۱۵] (hədiyyə) eləsin

İmam, Bəhcət, Təbrizi, Xamenei, Məkarim: İstifta

Sistani Minhacüs-salehin Nikahün fil etidadi və ma bi hökmihi məsələ ۱۹۳

.Fazil }ameül-məsail ۲-ci cild, ۱۰۰۴-cü sualdan istifadə etməklə

Məsələ ۲۴۵: Əgər oğlan vaxtın qalanını hibə etməzsə (istər bilməməzlikdən, istərsə unutqanlıq üzündən) bunun ardınca da daimi əqd oxunsa, onların daimi əqdi batildir. Gərək siğənin vaxtının qurtarmasından, yaxud qalan vaxtın bağışlanmasından sonra .yenidən daimi əqd oxunsun

İmam, Bəhcət, Xamenei, Fazil, Məkarim: İstifta

Məsələ ۲۴۶: Mən izdivac edərkən daim əqd oxunmazdan qabaq (hazırkı) həyat

yoldaşımla iki aylıq müvəqqəti siğə vasitəsilə məhrəm olmuşdum. Amma müvəqqəti əqdin oxunmasından bir ay keçəndən sonra daimi əqd oxuduq. İndiyə qədər də bir-birmizlə yaşayırıq. Bizim daim əqdimiz düzgün olubmu?

Cavab: Əgər müvəqqəti əqdinin qalan vaxtını öz arvadına hibə etmisənsə daim əqdiniz düzgündür, əks halda yenidən daimi əqd oxunmalıdır.

İmam, Becət, Xamenei, Fazil, Məkarim: İstifta

səh:۱۱۵

## ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ

Məsələ ۲۴۷: Kürəkən üçün onun istifadəsi məqsədilə hər növ qızıl məmulatları almaq .caiz deyildir, hətta sep, yaxud qol düyməsi, yaxud saat və sair kimi şey olsa belə

.İmam: İstifta, ۲-ci cild, səh.۸; Tovzihul-məsail, ۲۰۶۸-ci məsələdən istifadə etməklə

.Bəhcət və Xamenei: İstifta

.Sistani: Tovziul-məsail, ۲۰۷۶-cı məsələdən istifadə etməklə

.Fazil: Camiul-məsail, ۱-ci cild, səh.۹۷۰, ۹۷۱ və ۲۵۸-ci məsələlərdən istifadə etməklə

.Məkarim: Tovzihul-məail, ۱۶۶۲-ci məsələdən istifadə etməklə

Təbrizi: Fərz olunan halda müamilə səhihdir, baxmayaraq ki, kürəkən üçün qızıl məmulatı geymək caiz deyildir, hətta üzük, saat və sair kimi əşyalar olsa da belə. .İstifta

Məsələ (Sual) ۲۴۸: Evlənməyə məxsus olan qızıl seplərin alınması, yadigar qalmaq üçün və kişinin yalnız bayram günlərindən bir neçə saat ondan istifadə etməsinin hökmü ?nədir

.Cavab: Caiz deyildir

Məsələ ۲۴۹: Ağ qızılın hökmü sarı qızıl kimi deyildir və onu kürəkən üçün almağın işkalı .yoxdur

.İmam: İstifta, ۱-ci cild, namaz qılanın paltarı, Sual: ۵۸ və İstifta

.Təbrizi: İstifta

:Bəhcət, Xamenei, Fazil, Məkarim

Xamenei, Fazil və Məkarim: Əgər ağ qızıl sarı qızıldan başqa bir filiz olarsa, eybi .yoxdur. Əks halda həm sarı, həm ağ, həm də qırmızı qızılın hər üçü haramdır. İstifta

Bəhcət: Əgər qızıl cinsindən, yaxud həmin mədəndən olmazsa, yaxud mütəxəssislər

.onu qızıl hesab etməzlərsə, işkalı yoxdur. Amma platinin işkalı yoxdur. İstifta

Məsələ ۲۵۰: Kürəkən üçün onun geyməsi məqsədilə xalis ipəkdən olan hər növ paltar .almaq caiz deyildir

.İmam: Tovzihul-məsail, ۲۰۶۰-cı məsələdən istifadə etməklə

.İmam, Bəhcət, Xamenei: İstifta

.Sistani: Tovzihul-məsail, ۲-۷۶-cı məsələdən istifadə etməklə

.Fazil: Camiul-məsail, ۲-ci cild, ۷۶۳-ü sualdan istifadə etməklə

.Məkarim: Tovzihul-məsail, ۱۷۶۲-ci məsələdən istifadə etməklə

Təbrizi: Fərz olunan surətdə müamilə səhihdir, baxmayaraq ki, kürəkən üçün xalis .ipəkdən olan paltarın geyilməsi caiz deyildir. İstifta

NƏTİCƏDƏ: İstər köynək, istər mayka, istərsə də evdə rahatlıq üçün geyilən * paltarlar – corab və s. kimi hər növ paltarın alınması əgər xalis ipəkdən olarsa, caiz .deyildir

Məsələ ۲۵۱: Xums aid olan puldan xumsu verilməyincə al-ver etmək caiz deyildir. .Yalnız şəriət hakimi, yaxud onun vəkili icazə verdiyi hallar istisna olunur

.İmam, Fazil, Məkarim: Ürvə, fi ma yəcidu fihi xums, məsələ: ۷۵

.İmam: Tovzihul-məsail, məsələ: ۱۷۹۰ və ۱۷۹۵

.Xamenei: İstifta

Təbrizi və Sistani: Əgər xumsu verilməmiş pulun özü ilə bir şey alsa, bu halda satıcı on iki İmamçı şiədirsə, zahir budur ki, müamilə malın hamısına nisbətdə səhihdir. Bu pulla aldığı mala nisbətdə isə xums şamil olur. Şəriət hakiminin imza və icazəsinə heç bir .ehtiyac duyulmur

.Təbrizi: Tovzihul-məsail, ۱۷۶۹-cu məsələ

.Sistani: Tovzihul-məsail, məsələ: ۱۷۶۹

Məsələ ۲۵۲:Əgər bir kəs (əvvəlki məsələyə diqqət yetirmədən) xums aid olan pul ilə bir şeyi alsa, şəriət hakimindən, yaxud onun vəkilindən icazə almalıdır. Bu halda əgər .icazə versə, müamilə səhihdir. Əgər icazə verməzsə, müamilənin beşdə biri batildir

.İmam, Fazil və Məkarim: Ürvə, fi ma yəcidu fihi xums, məsələ: ۷۵

.İmam: Tovzihul-məsail, məsələ: ۱۷۶۰

.Fazil: Tovzihul-məsail, ۱۸۲۵ və ۱۸۲۷-ci məsələlərdən istifadə etməklə

Bəhcət: Müamilə əsas etibarı ilə zimmədə olduğuna görə səhihdir, lakin onun xumsunu verməlidir. İstifta

Təbrizi və Sistani: Şəriət hakmindən icazə almağa ehtiyac yoxdur, yalnız alınmış mala .xums təəllüq[۱۶] tapır

.Təbrizi: Tovzihul-məsail, ۱۷۶۹-cu məsələ

.Sistani: Tovzihul-məsail, ۱۷۶۹-cu məsələ

.Məsələ ۲۵۳: Kürəkən, yaxud gəlin üçün hər növ şöhrət libası almaq caiz deyildir

İmam, Bəhcət, Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ۲-ci cild, ۷۶۲-ci sualdan istifadə etməklə

Təbrizi: Müamilə səhihdir, baxmayaraq ki, şöhrət paltarından istifadə etmək caiz deyildir. İstifta

Məkarim: Şöhrət paltarı dedikdə, əvvəllər qeyd olunduğu kimi məqsəd o paltardır ki, zahidlik, yaxud dindarlıqda şöhrət tapmaq məqsədilə geyilmiş olsun. Tovzihul-məsail, ۱۷۶۲.-ci məsələ və İstiftadan istifadə etməklə

Sistani: Əlbəttə, əgər bunun ardınca halal bir mənfəət gələrsə, müamilə səhihdir, baxmayaraq ki, hörmətin aradan getməsinə səbəb olan paltarın geyilməsi haramdır. İstifta

Məsələ ۲۵۴: Kürəkən üçün qadınlara məxsus olan paltar almaq, yaxud kişilərə məxsus .olan paltarı gəlin üçün almaq caiz deyildir və onun alınmasından çəkinmək lazımdır

İmam, Bəhcət və Xamenei: İstifta

.İmam: Tovzihul-məsail, ۲۰۶۸-ci məsələdən istifadə etməklə

.Fazil: Camiul-məsail, ۲-ci cild, ۷۶۲-ci sualdan istifadə etməklə

Təbrizi: Onun müamiləsi səhihdir, lakin kişilərə məxsus olan paltarın qadınlar üçün və qadınlara məxsus olan libasın kişilər üçün geyilməsi caiz deyildir. İstiftadan istifadə .etməklə

Sistani: Müamilə səhihdir, baxmayaraq ki, hər birinə məxsus olan paltarın başqası üçün geyilməsi ehtiyat-vacibə görə caiz deyildir. İstifta

Məkarim: Yaxşı olar ki, bu işdən ictinab edilsin. İstifta

Məsələ ۲۵۵: Gəlin üçün təhrikedici hər növ paltarın naməhrəmlərin arasında istifadə .etmək məqsədilə alınması haramdır

.İmam, Bəhcət, Xamenei: İstiftadan istifadə etməklə

.İmam: Tovzihul-məsail, ۲۰۶۸-ci məsələdən istifadə etməklə

.Fazil: Camiul-məsail, ۲-ci cild, ۷۶۳-cü sualdan istifadə etməklə

Təbrizi: Onun müamiləsi səhihdir, lakin təhrikedici paltarlardan istifadə edilməsi caiz .deyildir

Məkarim: Əlbəttə, onun müamiləsi batil deyildir. İstifta

NƏTİCƏDƏ: Əgər kürəkən toy mərasimində naməhrəm şəxslərin gəlinə ❊ baxacaqlarını bilirsə (məsələn məclisdə kişi və

arvad qarışıqdırsa), şəhvəti təhrik edən və gəlinin bədəninin bir miqdarını örtməyən .paltarın gəlinə alınması caiz olmayacaqdır

Məsələ ۲۵۶: Qeyri-islami ölkələrdən gətirilən, yaxud kafirin əlindən alınan dəri məmulatlarının alveri batildir, lakin insan onların şəriət göstərişi əsasında kəsilən .heyvanlardan olduğunu blərsə, onun alverinin işkalı yoxdur

.İmam: Tovzihul-məsail, məsələ: ۲۰۶۱; Təhrir, ۲-ci cild, məsələ: ۱

.Bəhcət: Tovzihul-məsail, məsələ: ۱۶۱۸

.Təbrizi: Onun alverinin işkalı vardır

Sistani, Fazil: Qeyri-islami ölkələrdən gətirilən, yaxud kafirin əlindən alınan dəri məmulatların, şəriət qaydalarına uyğun kəsilən heyvandan olması ehtimal verilsə, .onun alverinin işkalı yoxdur

Məkarim: Qeyri-islami ölkələrdən gətirilən, yaxud kafirin əlindən alınan dəri .məmulatlarının alverinin müamiləsi, ehtiyata görə batildir

NƏTİCƏDƏ: Qeyri-islami ölkələrdən gətirilən ayaqqabı, qayış, saatın bağı, çanta və ❊ s. kimi dəri məmulatlarının al-veri batildir, yalnız insan yəqin etsə ki, o ölkə öz dərilərini .İslam ölkələrindən almışdır, bu başqa

## DƏVƏT ETMƏYİN HÖKMLƏRİ

Məsələ ۲۵۷: Gələcəkləri surətdə günah və münkər işlər yaymalarına ehtimal verdiyi şəxsləri dəvət etməsi insana caiz deyildir. Yalnız məclisi nəzarət altına alıb, günaha .mürtəkib olmasının qarşısını aldığı hal istisna olunur

İmam: İstifta

.Bəhcət: Haram işin müqəddiməsi də əgər harama gətirib çıxararsa, haramdır

Sual: Məclisə gəldikləri halda günah və münkər işləri yayacaqlarına yəqinlik olan ?kəsləri məclisə dəvət etmək caizdirmi

:Cavab

səh:۱۱۹

.Təbrizi: Fəsadın yayılmasının qarşısını almaq hər bir müsəlmana vacibdir. İstifta

.Fazil: Onların dəvət edilməsinə günaha kömək etmək ünvanı aid edilirsə, caiz deyildir

NƏTİCƏDƏ: Toy məclisində ləhv və ləiblə[۱۷] məşğul olan qadınların və kişilərin ❊ .dəvət edilməsi caiz deyildir

Məsələ ۲۵۸: Məclisdə gözbağlayıcı işlərini yerinə yetirmək üçün gözbağlayıcıları dəvət .(etmək haramdır və bu işdən ictinab edilməlidir (çəkinilməlidir

İmam: İstifta

Bəhcət: Gözbağlayıcıların bütün qisimləri haramdır, yalnız əgər əməlin özü caiz və ləhvdən xaric olarsa və ondan məqsəd batil olmayan əql sahibləri tərəfindən .bəyənilən və qanuni bir iş olsa, eybi yoxdur

Camiul-məsail, ۲-ci cild, səh.۴۳۳ və İstifta

Təbrizi: Hər bir müsəlmana vacibdir ki, fəsadın yayılmasının qarşısını alsın. İstifta

Xamenei: Gözbağlayıcılıq sehrin qismindəndir və haramdır. Lakin baxanları səhvə salacaq tərzdə sürətlə əl hərəkətləri edən şəxsin işinin haram olmasına heç bir əsas .yoxdur

Sistani: Gözbağlayıcılıq bundan ibarətdir ki, kerçəkliyi olmayan işləri kerçəklik surətində camaatın adətindən xaric olan sürətli əməl vasitəsilə göstərməkdir. İndi əgər gözbağlayıcılığa haram bir ünvan, o cümlədən möminə zərər yetirmək kimi aid edilərsə, haramdır və belə şəxslərin bu iş üçün dəvət edilməsi də caiz deyildir. Əks halda haram deyildir və onları dəvət etməyin də işkalı yoxdur. Minhacus-salihin, .məkasibi mühərrəmə, məsələ: ۲۵

Fazil: Gözbağlayıcılıq – hətta onu yerinə yetirən şəxsin bu işlərin real gerçəkliyi .olmadığını bildirsə belə – işkalsız deyildir və mömin ondan çəkinməlidir

.Camiul-məsail, ۱-ci cild, Sual: ۹۶۲

Məkarim: Əgər iştirakçılar onun əlinin sürətlə hərəkət etməsini və sadəcə əyləncə məqsədi olduğunu bilsələr, haram deyildir. İstifta

səh:۱۲۰

?Məsələ (Sual) ۲۵۹: Gözbağlayıcılara baxmağın hökmü nədir

;a) Əgər canlı şəkildə gözbağlayıcının hüzurunda olarsa

;b) Televizorda olarsa

Bəhcət, Təbrizi, Xamenei: Hər iki halda haram deyildir. İstifta

.Fazil: Gözbağlayıcılıq işkalsız deyildir və mömin şəxs onlardan çəkinməlidir

.Camiul-məsail, ۱-ci cild, ۹۶۲-ci sualdan istifadə etməklə

Məkarim: Onun cavabı əvvəlki məsələdən aydın oldu. İstifta

Sual: Məclisə gəldikləri surətdə günah və münkər işləri yayacaqlarına yəqini olan ?şəxsləri dəvət etmək insana caizdirmi

Cavab: Təbrizi: Hər bir müsəlmana vacibdir ki, fəsadın yayılmasının qarşısını alsın. İstifta

Fazil: Əgər onların dəvət edilməsinə günaha kömək edilməsi ünvanı aid edilə bilərsə, caiz deyildir. İstifta

Məsələ ۲۶۰: Gözbağlayıcılara, onların bu gözbağlayıcılıq işlərinə görə pul vermək də .haramdır

İmam, Bəhcət, Fazil: İstifta

Xamenei: Gözbağlayıcılıq işi üçün pul vermək haramdır, amma əlin sürətli hərəkətləri .üçün eybi yoxdur

Sistani: Əgər gözbağlayıcılığa haram bir ünvan aid edilərsə, ona pul vermək də haram, .əks halda haram deyildir

.Minhacus-salihin, ۱-ci cild, Məkasibi-mühərrəmə, ۲۵-ci məsələdən istifadə etməklə

Məkarim: Əvvəlki sualın cavabından aydın oldu. İstifta

İzah: Əksər mərcəi-təqlidlərin fətvasına əsasən gözbağlayıcılıq caiz olmadığına görə .bu işin yerinə yetirilməsi üçün şəxsin, yaxud şəxslərin dəvət edilməsi də caiz deyildir

Məsələ ۲۶۱: Mütrib (ləhv və ləib) musiqi icra etmək üçün xanəndələri dəvət etmək .haramdır, istər qadın məclisi olsun, istərsə də kişi məclisi

İmam, Bəhcət, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

Təbrizi: Ləhv musiqisini icra etmək məqsədilə xanəndələri dəvət etmək haramdır. İstifta

Məsələ ۲۶۲: Əgər ğina yönlü olmazsa, məddahlıq etmək, yaxud şer oxumaq məqsədilə .məddahları dəvət etməyin işkalı yoxdur

İmam, Bəhcət, Xamenei, Təbrizi, Sistani, Fazil, Məkarim: İstifta

Məsələ ۲۶۳: Kitab əhlini bu cür məclislərə dəvət etməyin işkalı yoxdur, amma əgər insan onların gəldiyi surətdə münkər işlərin yayılmasını, şəri qayda-qanunlara riayət (.olunmadığını bilərsə, caiz deyildir. (Bu halda onların dəvət edilməsi caiz deyildir

İmam, Bəhcət, Fazil, Məkarim: İstifta

Məsələ ۲۶۴: İnsanın ləhv və ləib bərqərar olunan məclislərə getməsi caiz deyildir, amma əgər nəhy əz münkər və günaha düşülməsinin qarşısını almaq məqsədi ilə olsa .eybi yoxdur

İmam, Bəhcət, Xamenei, Məkarim: İstifta

Fazil: Camiul-məsail, ۲۲۳۱-ci sualdan istifadə etməklə; Camiul-məsail, ۳-cü cild, Sual: .۷۵۰

Sistani: Belə məclislərə getmək o zaman caiz deyildir ki, insan bilsə, yaxud qorxsa ki, özü harama düşəcəkdir. Misal üçün, haram musiqiyə qulaq asacağına məcbur olsa, yaxud fəsadı yaymağa məcbur olsa, yaxud onun bu yerlərə getməsi əmr be məruf və nəhy əz münkər işini yerinə yetirməyə qoymazsa. (Əlbəttə, onun təsir qoymasına ehtimal verildiyi halda) və hətta ehtiyat-vacibə görə, əgər onun bu kimi yerlərə getməsi, haram işlərə nifrət bəslənilməsi ilə ziddiyyətli olarsa, bu məclisə getməməlidir. İstifta

NƏTİCƏDƏ: Bəzi əqd və toy mərasimlərinə getmək – insanın iştirak edənlərin, yaxud ⁕ onu təşkil edənlərin dinə əhəmiyyət vermədiklərini bilsə, yaxud ləhv və ləiblə məşğul olduqlarını bilsə, yaxud qadınla kişinin bir-birinə qarışdığı bir məclis olduğunu bilsə, belə ki, orada şəri qayda-qanunlara riayət olunmursa – caiz deyildir. Hətta onun yaxın .adamlarının əqd və toy mərasimi olsa belə

Məsələ ۲۶۵: Ləhv və ləib əsasında təşkil olunan məclislərə getmək caiz deyildir. Amma .insan harama mürtəkib olmayacağını bilsə, bu, istisnadır

İmam, Bəhcət, Xamenei, Fazil, Məkarim: Əvvəlki məsələnin mənbələrindən istifadə .etməklə

Məsələ ۲۶۶: Şəkil çəkən, yaxud videoya çəkən kişini bəy və gəlindən şəkil, yaxud çəkiliş hazırlaması, yaxud başqa naməhrəmlərdən şəkil çəkib videoya verməsi – onların .kifayət qədər hicaba riayət etmədiklərini bildiyi halda – caiz deyildir

İmam, Xamenei, Məkarim: İstifta

Təbrizi: Hər bir müsəlmana vacibdir ki, fəsadın yayılmasının qarşısını alsın. İstifta

.Fazil: Günaha kömək etmək özü də günahdır

Məsələ (Sual) ۲۶۷: Ləhv və ləib məclislərində iştirak etmək sadəcə olaraq yemək ?yemək üçün caizdirmi

Bəhcət və Fazil: Əgər haram süfrəsi (şərab, donuz əti və s. şeylərin qoyulduğu süfrə) .yığışdırılmış olsa, yemək üçün iştirak etməyin eybi yoxdur

Bəhcət: İstifta

.Fazil: Camiul-məsail, ۲-ci cild, Sual: ۷۵۱

Məkarim: Əgər ləhv və ləib işləri sona çatmış olsa, eybi yoxdur. İstifta

Məsələ (Sual) ۲۶۸: Qeyri-müsəlmanların dəvətini qəbul etmək olarmı və onların evinə gedə bilərikmi? (Bunu nəzərə alaq ki, bu gedişin ardınca müsəlmanların məkanlarına bir gəliş də mövcud olacaqdır)? Əgər getməyin mümkün olduğu halda ətdən başqa məhsulları yemək (çay və şirniyyat kimi) onların evlərində qoyulan qablarda yeyə ?bilərikmi

Bəhcət: Əgər nəcis olması məlum olarsa, mütləq şəkildə yemək olmaz və kafirlərlə əlaqələrinizi kəsin. İstifta

Məsələ (Sual) ۲۶۹: Əgər bir qadın ərinin icazəsi olmadan toy məclisində iştirak edərsə, amma qızın atası icazə verərsə və

qadının iştirak etməməsi dəvət edənlərin narahatlığına səbəb olarsa, amma əri bu işi məsləhət görməzsə və əyalının toy məclisində iştirak etməsinə icazə verməzsə, bu halda qadının toy məclisinə getməsi müqəddəs İslam şəriətinin göstərişləri ilə ?müxalifət olunurmu

Bəhcət: Ərindən icazə almalıdır, yaxud onun razılığına elmi olmalıdır. Tovzihul-məsail, .məsələ: ١٨

Məkarim: Qadının ərinin icazəsi olmadan evdən çölə çıxması haramdır, hətta kişinin qayınatası ona icazə versə belə, amma bu iş sileyi-rəhimin bir hissəsi hesab olunursa, bu başqa. İstifta

səh:١٢۴

## ƏQD VƏ TOY MƏCLİSİNİN MÜQƏDDİMƏ İŞLƏRİNƏ TƏDARÜK GÖRÜLMƏSİNİN HÖKMÜ

.Məsələ ٢٧٠: Hər növ ləhv və ləib vəsaitlərinin tədarük görülməsi haramdır

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

.Təbrizi: Tovzihul-məsail, ٢٠٧٥-ci məsələdən istifadə etməklə

.Sistani: Tovzihul-məsail, ٢٠٧٦-cı məsələdən istifadə etməklə

Məsələ ٢٧١: Məsiyət (günah iş) yerinə yetirilməsi məqsədilə ləhv və ləibin bərqərar ediləcəyi otaq, yaxud salon, yaxud mühitin təşkil edilməsi (misal üçün, mütrib .xanəndəliyin, yaxud rəqs etmə yerinin (səhnənin) hazırlanması kimi) caiz deyildir

,İmam, Bəhcət, Təbrizi, Xamenei

Sistani, Fazil və Məkarim: İstifta

## ÜMUMİ BİR QANUN

Məsələ ٢٧٢: Haram istifadəsi olan hər bir şeyi hazırlamaq haram istifadə məqsədilə .caiz deyildir

İmam, Bəhcət, Xamenei: İstifta

.Sistani: Tovzihul-məsail, ٢٠٧٦-cı məsələdən istifadə etməklə

.Fazil: Tovzihul-məsail, məsələ: ٢١٢٩

.Məkarim: Tovzihul-məsail, ١٧٦٢-ci məsələdən istifadə etməklə

Məsələ ٢٧٣: Mütrib musiqi çalmaq üçün biabırçı lent yazıları, yaxud digər musiqi .vasitələri tədarük görmək caiz deyildir

İmam, Bəhcət, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

.Təbrizi: Tovzihul-məsail, ٢٠٧٥-ci məsələdən istifadə etməklə

.Sistani: Tovzihul-məsail, ۲۰۷۶-cı məsələdən istifadə etməklə

.Məkarim: Tovzihul-məsail, ۱۷۶۳-cü məsələdən istifadə etməklə

Təbrizi: Ləhv yönünə malik olan musiqi çalmaq üçün musiqi vasitələri tədarük görmək caiz deyildir. İstifta

Məsələ ۲۷۴: Maşının gül ilə bəzədilməsi, şəhərin xiyabanlarında siqnal verilməsi əgər naməhrəmin gəlinə, yaxud digər qadınlara və onların bəzənmiş üzlərinə diqqətin cəlb olunmasına səbəb olarsa, yaxud camaatın əzab-əziyyətinə düşməsinə və .narahatçılığa səbəb olarsa, haramdır

## ƏQD VƏ TOY MƏCLİSLƏRİNİN HÖKMLƏRİ

### RƏQS

Məsələ ۲۷۵: Kişilər üçün rəqs etmək caiz deyildir, yalnız kişinin öz həyat yoldaşı üçün .rəqs etməsi istisnadır

İmam: Əhkami izdivac kitabından, səh.۱۸۶-dan istifadə etməklə; İstifta, məkasibi .mühərrəmə, Sual: ۳۵

.Məkarim: İstifta

Bəhcət: Kişi məclisində kişinin oynayıb rəqs etməsinin işkalı vardır, ehtiyat vacib onu .tərk etməkdir

.Tovzihul-məsail, müxtəlif məsələlər, məsələ: ۱

Təbrizi: Kişinin rəqs etməsi ləhvin nümunələrindəndir və çox hallarda nəfsin zəlil .olmasına səbəb olur və caiz deyildir. İstifta

Qeyd olunmalıdır ki, bu kitabın əvvəlki çaplarında bu məsələyə başqa cür cavab) verilmişdir ki, həzrət Ayətullahül-üzma Təbrizinin fətvasının dəyişdiyinə görə onun (.təqlidçiləri bu çapda qeyd olunanlara əməl etməlidirlər

Xamenei: Əgər rəqs şəhvəti təhrik edərsə, yaxud haram bir əməli öz ardınca .gətirərsə, haramdır

.Əcvibətül-İstiftaat, ۲-ci cild, Sual: ۸۶

Sistani: Ehtiyat-vacibə görə rəqs etməkdən çəkinilməlidir, yalnız həyat yoldaşı .başqalarının gözündən uzaqda olarsa, istisnadır. İstifta

Fazil: Əhvət (ən çox ehtiyatlı) nəzər rəqsin mütləq şəkildə tərk edilməsidir, amma qadının öz əri üçün, özü də başqa bir haram işlə yanaşı olmayacağı halda, istisna .olunur. İstifta

Qeyd olunmalıdır ki, həzrət Ayətullahül-üzma Fazil Lənkəraninin rəqs hökmü barəsində – bu kitabın əvvəlki çaplarında qeyd olunanlara nəzər yetirməklə – son zamanlar onun rəqs barəsindəki cavabı dəyişilmişdir. Buna əsasən möhtərəm oxucular, xüsusilə onun təqlidçiləri bu məsələyə daha artıq diqqət yetirməlidirlər.

səh:۱۲۶

?Məsələ (Sual) ۲۷۶: Kişinin öz həyat yoldaşı üçün oynaması caizdirmi

.Cavab: İşkalı yoxdur

.İmam: Əvvəlki məsələnin mənbələrindən istifadə etməklə

.Xamenei: Əcvibətül-istifta, ۲-ci cild, Sual: ۹۱

.Məkarim: İstifta

Bəhcət: Ər-arvadın bir-biri üçün rəqs etməsi ehtiyatın xilafınadır (ehtiyat-vacibdir, .(yəni tərk olunsa yaxşıdır

.Tovzihul-məsail, müxtəlif məsələlər, məsələ: ۱ və İstifta

Təbrizi: Kişinin rəqs etməsi ləhvin nümunələrindəndir və çox hallarda nəfsin zəlil .olmasına səbəb olur və caiz deyildir. İstifta

.Sistani: Əgər başqalarının gözündən kənarda olarsa işkalı yoxdur. İstifta

.Fazil: Əhvət onu tərk etməkdir. İstifta

?Məsələ (Sual) ۲۷۷: Rəqs dedikdə məqsəd nədir

.Cavab: Camaat arasında rəqs adlanan hər bir əməldir

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil: İstifta

Məkarim: Rəqs müvazinətli hərəkətlərdir ki, ləhv və ləib məqsədilə yerinə yetirilir. .İstifta

Məsələ ۲۷۸: Kişilər üçün rəqsin haram olmasında rəqsin növləri arasında heç bir fərq .yoxdur

.İmam, Təbrizi, Fazil, Məkarim: İstifta

Bəhcət: Ehtiyat-vacibə görə rəqs etmək caiz deyildir və bu məsələdə rəqsin növləri .arasında heç bir fərq yoxdur

.Tovzihul-məsail, müxtəlif məsələlər, ١-ci məsələdən və İstiftadan istifadə etməklə

Xamenei: Rəqs etməyin özünün işkalı yoxdur, amma haram bir işə səbəb olarsa (bu .istisnadır). Bu məsələdə rəqsin növləri arasında heç bir fərq yoxdur. İstifta

NƏTİCƏDƏ: İstər müxtəlif məclislərdə, yaxud əqd və toy məclislərində icra olunan ❊ .yerli rəqslər olsun, istərsə də çubuqla oynanılan, yaxud hər hansı başqa rəqslər

Məsələ ٢٧٩: Həmçinin rəqsin haram olmasında kişilərin qrup şəklində, yaxud tək halda oynamaları arasında, həmçinin istər

saz, tar və kamanla olsun, istərsə də bunlarsız, istər baxanlar naməhrəm olsun, .istərsə də olmasın, heç bir fərq yoxdur

.İmam, Təbrizi, Fazil, Məkarim: İstifta

Bəhcət: Rəqs etmək mütləq şəkildə ehtiyat-vacibə görə işkallıdır və tərk olunmalıdır. .İstifta

Xamenei: Rəqs hər bir surətdə əgər şəhvəti təhrik edərsə, yaxud haram bir əməli öz .ardınca gətirərsə, haramdır. İstifta

Məsələ (Sual) ۲۸۰: Kişinin xəlvət yerdə, heç kəsin onu görmədiyi halda rəqs etməsinin ?hökmü nədir

Bəhcət: Rəqs etmək mütləq şəkildə caiz deyildir və ehtiyat-vacibə görə tərk .olunmalıdır. İstifta

Təbrizi və Xamenei: Əgər öz ardınca haram bir iş gətirməzsə, rəqs etməyin özünün .işkalı yoxdur

.Təbrizi: Siratun-nəcat, ۱۰۲۰-ci sualdan və İstiftadan istifadə etməklə

.Xamenei: İstifta

Fazil: Əhvət nəzər rəqsi mütləq şəkildə tərk etməkdir. Amma qadının öz həyat yoldaşı üçün, özü də öz ardınca başqa bir haramı gətirmədiyi halda rəqs etməsinin işkalı .yoxdur. İstifta

.Məkarim: Bu kimi hallarda işkalı yoxdur. İstifta

Məsələ ۲۸۱: Ehtiyat-vacibə görə qadınların hər hansı yerdə rəqs etmələri, istər əqd və toy mərasimləri olsun, istərsə də təvəllüd bayramları, caiz deyildir. Yalnız qadının öz .həyat yoldaşı üçün rəqsinə icazə verilmişdir

İmam: Əhkami izdivac kitabındakı İstiftalardan istifadə etməklə, səh.۱۸۶; İstifta; .Məkasibi mühərrəmə, Sual: ۳۵ və İstifta

.Məkarim: İstifta

Bəhcət: Ehtiyat-vacibə görə qadının qadınlar məclisində rəqs etməsi caiz deyildir. .Tovzihul-məsail, müxtəlif məsələlər, ١-ci məsələ

Təbrizi: Qadının öz əri üçün, eləcə də qadının toy məclisində qadınlar üçün və s. kimi şeylərdə əgər kişinin hüzurunda, hətta müməyyiz olmayan oğlanın hüzurunda və ləhvi musiqi və s. kimi başqa haramlara şamil olmazsa, maneəsi yoxdur və qadının kişi üçün .rəqs etməsi istər məhrəm olsun, istərsə də naməhrəm, caiz deyildir

Xamenei: Rəqs etməyin təklikdə haramlığı yoxdur, amma öz ardınca haram bir işi .gətirdiyi hal istisnadır. Əcvibətül-İstifta, ۲-ci cild, Sual: ۸۶-۹۰

Sistani: Ehtiyat-vacibə görə rəqs etməkdən çəkinilməlidir, yalnız həyat yoldaşı .istisnadır, o da başqalarının gözündən kənarda. İstifta

.Fazil: Əhvət rəqsi tərk etməkdir

NƏTİCƏDƏ: Qadınlar əqd mərasimlərində və toylarda rəqs edə bilməzlər, hətta ⁕ .naməhrəm olmasa da belə

Diqqət: Bəzi əhkam kitablarında İmam Xomeynidən bir sual çap olunmuşdur, orada deyilir ki, qadının başqa bir qadının müqabilində rəqs etməsinin haramlığı məlum deyildir. Bunun ehtiyat-vacibə görə caiz olmaması istiftası ilə ziddiyyəti yoxdur. Çünki bəzən müctehid hər hansı bir işin haram olmasına xatircəmlik əldə edə bilmir, buna .görə də məsələni ehtiyat-vacib şəklində bəyan edir

.Bu məsələdə verilən bütün ünvanlara müraciət edə bilərsiniz

Məsələ (Sual) ۲۸۲: Qadınların əqd və toy mərasimlərində rəqs etməsi əgər yalnız ?məhrəmlər iştirak edərsə, caizdirmi

.Cavab: Caiz deyildir

.İmam, Bəhcət, Təbrizi, Fazil, Məkarim: Əvvəlki məsələnin mənbələri

Xamenei: Rəqsin hökmündə məhrəmin, yaxud başqalarının iştirak etməsi arasında .heç bir fərq yoxdur

Deməli, qadınların toy və əqd mərasimlərindən əvvəl, yaxud ondan sonra təşkil etdikləri xüsusi məclislərdə rəqs etmələri caiz deyildir, hətta iştirak edənlər, bacı, .qardaş, ana, xala, yaxud yaxın qohumlarından hər hansı biri olarsa belə

Məsələ ۲۸۳: Qadının rəqs etməsinin haramlığı məsələsində rəqsin növləri arasında heç bir fərq yoxdur və camaat arasında rəqs adlanan hər bir əməl (həyat yoldaşından .başqası üçün) caiz deyildir

.İmam, Məkarim: İstifta

səh:۱۲۹

Bəhcət: Qadının qadın məclisində rəqs etməsi ehtiyat-vacibə görə caiz deyildir və bu .məsələdə rəqslərin növləri arasında heç bir fərq yoxdur

.Tovzihul-məsail, müxtəlif məsələlər, ۱-ci məsələdən istifadə etməklə

Təbrizi: Rəqsin növləri arasında heç bir fərq yoxdur və qadının öz əri və başqaları üçün .rəqs etməsinin hökmü əvvəlki məsələdə bəyan olundu. İstifta

Xamenei: Rəqsin öz-özlüyündə işkalı yoxdur, amma öz ardınca haram bir iş gətirərsə .(bu hal istisnadır), rəqslərin növləri arasında da heç bir fərq yoxdur

.İstifta

.Fazil: Əhvət nəzər rəqsi tərk etməkdir və rəqsin növləri arasında fərq yoxdur

Məsələ (Sual) ۲۸۴: Qadının xəlvət yerdə – onu görən bir kəsin olmadığı yerdə – rəqs ?etməsinin hökmü nədir

.Bəhcət: Rəqs mütləq şəkildə, ehtiyat-vacibə görə, caiz deyildir. İstifta

.Təbrizi: İşkalı yoxdur, amma öz ardınca haram gətirməzsə. İstifta

Xamenei: Əgər şəhvəti təhrik edərsə, yaxud öz ardınca haram iş gətirərsə, haramdır. .İstifta

?Məsələ (Sual) ۲۸۵: Video kassetlərdə rəqs filmlərinə baxmağın hökmü nədir

.Bəhcət: Öz ardınca fəsad gətirdiyinə görə, caiz deyildir. İstifta

.Xamenei: Şəhvəti təhrik edən rəqsə baxmaq haramdır. İstifta

Məsələ (Sual) ۲۸۶: Kişilərin onlara məhrəm olan qadınların müqabilində rəqs etməsi, eləcə də qadınların onlara məhrəm olan kişilərin müqabilində rəqs etməsi – istər ?səbəbi qohumluq olsun, istərsə də nəsəbi – hökmü nədir

.Bəhcət: Rəqs mütləq şəkildə ehtiyat-vacibə görə caiz deyildir. İstifta

Xamenei: Rəqsdə kişi ilə qadın arasında heç bir fərq yoxdur. Eləcə də məhrəm və .yaxud naməhrəm qarşısında olmasında da fərq yoxdur

.Əcvibətül-İstiftaat, ٢-ci cild, Sual: ٩٧

.Məsələ ٢٨٧: Qadının naməhrəm müqabilində rəqs etməsi mütləq şəkildə haramdır

.Xamenei: Əcvibətül-İstiftaat, ٢-ci cild, Sual: ٩٣

:Bəhcət, Təbrizi, Xamenei və Fazil

Məsələ ٢٨٨: Ləhv məclisləri ilə münasib olan mütrib musiqi çalmaq, ona qulaq asmaq, istər kişilər, istərsə də qadınlar üçün caiz deyildir, hətta qeyri-musiqi alətləri ilə olsa .belə, o cümlədən, tava, vedrə və s

.İmam, Xamenei, Məkarim: İstifta

.İmam: İstiftaat, məkasibi mühərrəmə, Sual: ٢٥

Təbrizi: Ləhvi musiqi (əyyaşlıq və kef məclislərinə münasib olan məxsus alətlərlə çalmaq) və ona qulaq asmaq caiz deyildir, istər toy məclislərində olsun, istərsə də başqa məclislərdə, mütrib və ləhvi musiqinin haram olmasında musiqinin əyyaşlıq məclislərinə münasib olan musiqi olması şərt deyildir və ona qulaq asmaq haramdır. .İstifta

Bəhcət: Tovzihul-məsail, müxtəlif məsələlər, ٢٠-ci məsələdən və İstiftadan istifadə .etməklə

.Sistani: Minhacus-salihin, məkasibi mühərrəmə, ٢٠-ci məsələdən istifadə etməklə

.Fazil: Camiul-məsail, ٩٨٧-٩٨٨-ci suallardan istifadə etməklə

Məsələ ٢٨٩: Mütrib[١٨] musiqini lent yazılarına qulaq asmaq istər kişilər, istərsə də .qadınlar üçün caiz deyildir

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: Əvvəlki məsələnin .mənbələrindən istifadə etməklə

?Məsələ (Sual) ٢٩٠: Mütrib musiqi dedikdə, nə nəzərdə tutursunuz

.Cavab: Ləhv və ləib məclisləri ilə münasib olan musiqidir

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani: İstifta

.Təbrizi: Siratun-nəcat, ١٠٠١-ci sualdan istifadə etməklə

Fazil: O musiqiyə deyilir ki, ləhv və ləib məclisləri üçün münasib olsun, yəni insan üçün .vəcdə gəlmək və ruh yüksəkliyi baxımından qeyri-adi bir halətin yaranmasıdır

.Camiul-məsail, ١-ci cild, ١٠٠۶-cı sualdan istifadə etməklə

.Məkarim: O musiqidir ki, ləhv, ləib və fəsad məclisləri ilə münasibdir. İstifta

Məsələ (Sual) ٢٩١: Mütrib musiqini qeyri-mütribdən necə ayırd etmək olar, xüsusilə camaat arasında bir musiqi barəsində

belə bir ixtilaf vardır: Bəziləri musiqini əvvəlcə eşitdiyi halda, misal üçün, deyirlər ki, mütribdir, bəziləri də onu eşitmədikləri halda, onu qeyri-mütrib hesab edirlər. Hər bir ?halda ixtilaf baş verən zaman vəzifəmiz nədir? Bu kimi musiqiləri dinləmək caizdirmi

Cavab: Mütrib musiqinin aid edilməsində əsas meyar ya insanın öz xatircəmliyidir ki, musiqinin mütrib olmasını bilsin, yaxud da camaat arasındakı nəzərə müraciət etsin. .Şəkk olunan hallarda dinləməyin eybi yoxdur

.İmam, Sistani, Xamenei, Fazil, Məkarim: İstifta

.İmam: İstiftaat, məkasibi mühərrəmə, ۲۹, ۳۱ və ۴۰-cı suallardan istifadə etməklə

.Bəhcət: Tovzihul-məsail, müxtəlif məsələlər, ۲۰-ci məsələdən istifadə etməklə

.Xamenei: İstifta

.Sistani: Minhacus-salihin, ۲۰-ci məsələdən istifadə etməklə

Təbrizi: Mütrib musiqini ayırd etməkdə meyar ya insanın öz xatircəmliyidir, yaxud xübrə və mütəxəssislərin ona deməsidir. Əlbəttə, gərək başqa bir mütəxəssis şəxs onun nəzərinə müxalif olan nəzər verməsin. Amma əgər camaat arasında bir musiqi barəsində ixtilaf olsa, belə ki, insan mütrib olub-olmamasında şəkk etsə, bu surətdə .ona qulaq asmaq ehtiyat-vacibə görə caiz deyildir

.Siratun-nəcat, Sual: ۱۰۰۲

Məsələ (Sual) ۲۹۲: İran İslam respublikasının televiziya və radiostansiyasında efirə buraxılan musiqilərin bəziləri şah rejimi dövründə də efirə buraxılır, bəziləri də xarici kinolardan götürülmüş musiqidir, digərləri də tağut dövründəki xanəndələrin səsi ?olmadan verilir. Xahiş olunur ki, onların mübah və halal olan hallarını bəyan edəsiniz

Cavab: Mütrib musiqi haramdır (hətta İran İslam respublikasının televiziya və .radiosundan efirə buraxılsa da belə). Şəkk olunan səslərin isə eybi yoxdur

.İmam, Xamenei, Fazil, Məkarim: İstifta

.İmam: İstiftaat, məkasibi mühərrəmə, ٢٨-٢٩ və ٣١-ci suallar

.Fazil: Camiul-məsail, ١-ci cild, Sual: ٩٩٨-٩٩٩

səh:١٣٣

.Bəhcət: Musiqi alətləri ilə çalınan ahəng və musiqilər mütləq şəkildə işkallıdır. İstifta

.Təbrizi: Ehtiyat-vacibə görə, şəkk olunan hallardan çəkinmək lazımdır

.Siratun-nəcat, ١٠٠٢ və ١٠١٥-ci məsələlərdən istifadə etməklə

.Sistani: Musiqi ləhv və ləib məclisləri ilə münasibdir və haramdır. İstifta

Məsələ (Sual) ٢٩٣: İran İslam respublikasının televiziya və radiosundan efirə buraxılan nəğmələrin bəziləri çox tünd ahəngə malikdir, hətta insanı təbii halətdən xaric edir. Bu növ musiqiləri dinləməyin hökmü nədir? Şəhid Mütəhhərinin şəhadəti ilə əlaqədar bəstələnən musiqilər və s. kimi qəm-qüssə yaradan musiqilərin hökmü nədir? ?Həmçinin bu kimi musiqiləri çalmağın hökmü nədir

Cavab: Mütrib olan hər növ musiqini çalmaq, ona qulaq asmaq caiz deyildir. Musiqinin şad, yaxud qəmli olmasının haramlığında meyar musiqi deyil, onun mütrib olub-.olmamasıdır

İmam, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim

.İmam: İstiftaat, Məkasibi mühərrəmə, ۴٠-cı sualdan istifadə etməklə

.Bəhcət: Mütrib musiqini dinləmək haramdır, mütriblik qəmli yerlərdə də vardır. İstifta

Təbrizi: Əyyaşlıq məclislərinə münasib olan musiqilər ləhvi musiqidir, çalmaq və ona .qulaq asmaq haramdır. İstifta

Məsələ (Sual) ٢٩۴: Müğənninin şəxsiyyəti, oxumaq yeri, yaxud oxumaqda məqsəd və ?hədəf musiqinin hökmündə təsirlidirmi

Bəhcət: Bu kimi işlər musiqinin haram və yaxud halal olmasında heç bir rol ifa etmir. .İstifta

Xamenei: Haram musiqi mütrib, ləhv və ləib məclislərinə münasib olan musiqilərdir və bəzən də müğənninin şəxsiyyəti, yaxud bəstələnmiş kəlam, söz, yaxud oxunan yer, yaxud sair şəraitlər musiqinin mütrib, ləhvi, haram musiqi ünvanı olmasında və yaxud

başqa digər haram ünvanların aid

səh:۱۳۴

edilməsində təsirlidir. Misal üçün, bu kimi işlərin nəticəsində fəsada səbəb olarsa. .Əcvibətül-İstiftaat, ۲-ci cild, Sual:۴۵

Məsələ ۲۹۵: Müharibə, yaxud əzadarlıq mərasimləri üçün təşkil olunan musiqilər, inqilabi nəğmələr çalmaq, yaxud onlara qulaq asmaq, bir sözlə, hər növ musiqi, mütrib .olmadığı halda, işkalı yoxdur

.İmam, Xamenei, Fazil, Məkarim: İstifta

.Təbrizi: Siratun-nəcat, ۱۰۰۳ və ۱۰۱۰-cu suallardan istifadə etməklə

.Fazil: Camiul-məsail, ۹۸۷-۹۸۸-ci suallardan istifadə etməklə

Bəhcət: Musiqi aləti vasitəsilə yanaşı olan ahəng və musiqi mütləq şəkildə işkallıdır. .İstifta

Sistani: Musiqinin haram olmasında əsas meyar ləhv-ləib və eyş-işrət məclisləri ilə .münasib olmasıdır. İstifta

Məsələ (Sual) ۲۹۶: Əgər bir şəxs üçün heç bir növ ahəng və musiqi təhrik icad etməzsə, ?onun bu ahənglərə və musiqilərə qulaq asması necədir

:Cavab

Təbrizi: Əyyaşlıq, eyş-işrət məclislərinə münasib olan musiqi, ləhv musiqidir, ona qulaq .asmaq haramdır, istər şəxs təhrik olsun, istərsə də olmasın. İstifta

Musiqinin haram olmasında meyar camaat arasında onun mütrib olub-olmamasıdır, .istər şəxs təhrik olunsun, istərsə də olmasın

.İmam, Təbrizi, Xamenei, Fazil, Məkarim: İstifta

:Bəhcət, Təbrizi, Sistani

Bəhcət: Musiqi alətləri vasitəsilə çalınan ahəng və musiqilər mütləq şəkildə işkallıdır. .İstifta

.Sistani: Yalnız ləhv və ləib məclislərinə münasib olunanlar istisna olunur. İstifta

## ÜMUMİ BİR QANUN

Buna əsasən hər növ mütrib musiqini çalmaq və ona qulaq asmaq haramdır. Hətta bir kəs onun vasitəsilə təhrik olunsa, yaxud olunmasa belə, yaxud da o musiqidən ləzzət alsa və almasa da belə, istər musiqi şadlıq gətirən olsun, istərsə də

qəmli, istər klassik olsun, istərsə də başqası, müsəlman olsun, istərsə də xarici, əqd və .toy mərasimində olsun, istərsə başqa yerdə

Əgər musiqi mütrib olmazsa, onu eşitmək və ya çalmağın işkalı yoxdur. Əgər bir şəxs .hər hansı bir musiqi barəsində şəkdə olsa, onu eşitmək və çalmağın işkalı yoxdur

Məsələ (Sual) ٢٩٧: Qəsd ləhv və ləib olmadığı halda, bəzi musiqi növlərinə qulaq asmaq, misal üçün əsəblərin sakitləşməsi üçün yaxşı olan, yaxud bəzi təbiblərin müalicə üçün tövsiyə etdikləri musiqilər, yaxud müharibə üçün nəzərdə tutulan və ləhv və ləib ?məqsədi olmayan musiqilərə qulaq asmaq caizdirmi

Cavab: Qeyd olunan halların hamısında əgər musiqi mütrib olmazsa, onu eşitməyin .işkalı yoxdur

.İmam, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

Bəhcət: Musiqi alətləri vasitəsilə çalınan hər növ ahəng və musiqi mütləq şəkildə .işkallıdır

Təbrizi: Əyyaşlıq və əyləncə məclisləri üçün münasib olan musiqi haram və ona qulaq asmaq da haramdır, istər ona qulaq asmaqda məqsəd ləhv və ləib olsun, istərsə də .başqa şey. Amma əza marşı və müharibədə çalınanların maneəsi yoxdur. İstifta

Məsələ ٢٩٨: Hər növ mütrib musiqini musiqi alətləri vasitəsilə çalmaq caiz deyildir, istər əqd məclisi olsun, istər toy məclisi, istərsə də başqa məclis, istər kişilərə məxsus olsun, .istərsə də qadınlara, istər kişi vasitəsilə çalınsın, istər qadın vasitəsilə

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

Məsələ ٢٩٩: Musiqi çalmaq əgər ləhv və ləib alətlərindən başqa vasitələrlə olarsa, misal .üçün, teşt, qablama, vedrə və s. işkalı yoxdur. Bu şərtlə ki, mütrib şəkildə olmasın

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil və Məkarim: İstifta

Sistani: Amma əgər ləhv və ləib məclislərinə münasib olan tərzdə vurularsa, ehtiyat-.vacibə görə caiz deyildir

Məsələ ۳۰۰: Mütrib musiqilərə və ğina yönlü avazlara qulaq asmaq haramdır, lakin .diqqəti ona yetirmədən qulağa dəyməyin işkalı yoxdur

.Təbrizi: Siratun-nəcat, ۱۰۰۴-cü sualdan istifadə etməklə

.Xamenei və Məkarim: İstifta

İzah: Yəni əgər insan musiqiyə diqqət yetirərək ona qulaq asarsa, bu, haramdır. Lakin bəzən insan qulaq asmır, lakin musiqi səsi qulağına dəyir, insan da ona diqqət yetirmir, bu surətdə işkalı yoxdur. Misal üçün, musiqi səsi qonşunun evindən gələrsə, yaxud sürücü mütrib musiqiyə səs verərsə, lakin insan o musiqiyə diqqət yetirməzsə, bu kimi .hallarda musiqi insanın qulağına çatsa da, işkalı yoxdur

Məsələ (Sual) ۳۰۱: Bəzi avtobus sürücüləri biabırçı lent yazılarından və haram olmağına hökm edilən musiqilərdən istifadə edir, maqnitofon söndürülməsinə dair verilən xəbərdarlıqlara əhəmiyyət vermirlər. Bəyan edin görək, mənim bu kimi şəraitlərdə və bu kimi səslərlə qarşılaşmaqda vəzifəm nədir? Onlarla çox şiddətli şəkildə rəftar edə ?bilərəmmi, yoxsa təqiyyə etməliyəm

Bəhcət: Əgər əmr be məruf və nəhy əz münkər şərtləri mövcud olarsa, vacib, əgər onlardan hər hansı birinin şərti, – o cümlədən, əmr be məruf etməyin qarşı tərəfə təsir qoyacağı, eləcə də insanın maddi və cismi cəhətdən zərərə düşməməsi ehtimalı – .olmazsa, vacib deyildir. İstifta

Xamenei: Nəhy əz münkərin zəmini gerçəkləşdiyi surətdə dildə nəhy əz münkər etməkdən artıq bir vəzifəmiz yoxdur. Əgər bu, təsirli olmazsa, özünüzü haram xanən... dəliyə qulaq asmaqdan saxlayın. Əgər eyni halda onun səsi ixtiyarsız olaraq sizin .qulağınıza çatırsa, sizin bu barədə heç bir vəzifəniz yoxdur. İstifta

Məsələ (Sual) ۳۰۲: Siz buyurmusunuz ki, qadının öz əri üçün oynamasının işkalı yoxdur, ?həmin rəqs halında da musiqiyə qulaq asmaq caizdirmi

.Cavab: Əgər musiqi mütrib olarsa, caiz deyil

.İmam, Xamenei, Fazil və Məkarim: İstifta

Bəhcət: Rəqs etmək mütləq şəkildə caiz deiyildir və ehtiyat-vacibə görə onu tərk etmək lazımdır. Hətta qadının öz əri üçün oynaması olsa da belə. Mütrib musiqiyə də .qulaq asmaq caiz deyildir

.Tovzihul-məsail, müxtəlif məsələlər, məsələ: ١ və ٢٠; İstifta

.Təbrizi: Əgər onda ləhvi musiqi olarsa, caiz deyildir. İstifta

Məsələ (Sual) ٣٠٣: Musiqinin İslamda kökü olması və musiqi ilə (irfani musiqi) Allaha ?çatmaq barəsində deyilən sözlər barədə nəzəriniz nədir

.Bəhcət: Musiqi alətləri ilə oxunan ahənglər və musiqilər mutləq şəkildə işkallıdır. İstifta

Xamenei: Allaha çatmaq, varlıq dünyasının əzəmətini dərk etmək, mütəal Allahı tanımaq musiqi yolu ilə deyildir, musiqinin İslam quruluşunun hədəfləri ilə ziddiyyəti .vardır

## AVAZ OXUMAQ

Məsələ ٣٠٤: Kişilərin avaz oxuması əgər ğina yönlü olmazsa və onun ardınca fəsad .gəlməzsə, işkalı yoxdur

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

.İmam: Təhrir, məkasibi mühərrəmə, məsələ: ١٣

.Sistani: Minhacu-salihin, məkasibi mühərrəmə, məsələ: ٢٠

?Məsələ ٣٠٥: Ğina nə deməkdir? Gözəl oxumaq ğina sayılırmı

Cavab: Gözəl səs, yaxud gözəl oxumaq təklikdə ğina hesab olunmur, əksinə ğina bundan ibarətdir: Səsi tərci[١٩] ilə çəkmək, ləhv və ləib məclislərinə və mütrib və .məsiyət yığıncaqlarına münasib olan keyfiyyətdə çəkməkdən ibarətdir

.İmam, Təhrir, məkasibi mühərrəmə, məsələ: ١٣

.Xamenei: İstifta

Təbrizi: Ğina (əyyaşlıq və kef məclisləri ilə münasib olan avaz oxumaq ki, batil məzmuna malikdir) və ona qulaq asmaq haramdır. Ehtiyat-vacibə görə ləhvi keyfiyyətə malik olan hər

səh:۱۳۸

.növ mütləq oxumaqdan, hətta batil məzmuna malik olmasa da, çəkinilsin. İstifta

Sistani: Əgər batil kəlam, istər şer, yaxud nəsr olsun, ləhv və ləib məclisləri ilə münasib .olan şəkildə olarsa, ğina hesab olunur

.Minhacus-salihin, Məkasibi mühərrəmə, məsələ: ٢٠

Fazil: Ğina bir avazdır ki, onda səs boğazda fırladılır və camaat arasında cəh-cəh hesab olunur, həmçinin insanı adi haldan çıxarır, ləhv və ləib məclisləri ilə münasibdir. .Camiul-məsail, ١-ci cild, ٩٧٨ və ١٠٠٧-ci suallardan istifadə etməklə

.Məkarim: Ləhv və fəsad məclisləri ilə münasib olan hər növ səsdir. İstifta

Məsələ (Sual) ٣٠٦: Şadlıq mərasimlərində nəğmə və şer oxumaq, yaxud gözəl məzmuna malik olduqları halda İmamların mədhlərini və duaları şad səslə oxumaq ?caizdirmi

Cavab: Hər şeyi oxumaq, istər şer, istərsə də nəsr, istər Quran və istərsə də mədihə ğina şəklində olarsa, haramdır. Hətta Quran, dua və s. ğina şəklində oxunduqda, daha .artıq əzaba səbəb olar

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

.İmam: Təhrir, məkasibi mühərrəmə, ١٣-cü sualdan istifadə etməklə

.Fazil: Camiul-məsail, ١-ci cild, ٩٩٧-ci sualın cavabından istifadə etməklə

Sistani: Batil olmayan kəlamı ləhv və ləib məclislərinə münasib olan keyfiyyətdə oxumaq ehtiyat-vacibə görə caiz deyildir. Quran və duanı bu keyfiyyətdə oxumaq isə .(ümumiyyətlə) caiz deyildir. İstifta

Məsələ ٣٠٧: Qadınlar üçün ğina yönlü musiqi oxumaq caiz deyildir. Toy gecəsindəki məclis, eləcə də camaat arasında ondan əvvəl, yaxud ondan sonra təşkil olunan məclislər bu şərtlə istisna olunur ki, onların səslərini naməhrəm eşitməsin. .Baxmayaraq ki, ehtiyat-müstəhəb bunu tərk etməkdir

.İmam: Təhrir, məkasibi mühərrəmə, məsələ–۱۳

.Təbrizi: Siratun-nəcat, məsələ: ۱۰۰۹ və ۱۱۱۶

.Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ۱-ci cild, ۹۹۷-ci sualın cavabından istifadə etməklə

:Bəhcət, Sistani və Məkarim

.Sistani və Məkarim: Ehtiyat-vacibə görə ğina toy məclislərində caiz deyildir

.Sistani və Məkarim: İstifta

Bəhcət: Buna əsasən, qadınların toy məclislərində və başqa məclislərdə ğina yönlü avaz qadınlar üçün oxumaları caiz deyildir, amma əgər avaz ğina yönlü olmazsa, işkalı .yoxdur

Buna əsasən, qadınlar toy məclislərində, ondan əvvəl və ya sonra camaat arasında ❊ təşkil olunan məclislərdə bu şərtlə avaz oxuya bilərlər ki, naməhrəm onların səsini .eşitməsin, istər xor şəklində, istərsə də başqa şəklində

Məsələ (Sual) ٣٠٨: Qadınlar əqd mərasimində, yaxud mövlud günlərində ğina yönlü ?avaz oxuya bilərlərmi

Cavab: Caiz deyildir və tərk olunmalıdır, yalnız qadınlar toy mərasimlərində avaz oxuya .bilərlər, bu şərtlə ki, naməhrəm onların səslərini eşitməsinlər

.İmam, Bəhcət, Xamenei: İstifta

.Təbrizi: Siratun-nəcat, ١٠٠٩ və ١١١۶-cı suallar

.Fazil: Camiul-məsail, ١-ci cild, Sual: ٩٩٧

.Sistani: Ehtiyat-vacibə görə gərək tərk olunsun. İstifta

Məsələ (Sual) ٣٠٩: Əgər əqd və toy mərasimi birlikdə olsa, onda qadınlar naməhrəm ?onların səsini eşitmədiyi halda avaz oxuya bilərmi

.Cavab: İşkalı yoxdur

.İmam, Təbrizi və Fazil: İstifta

.Sistani: Ehtiyat-vacibə görə gərək tərk olunsun

.Bəhcət: Əgər ğina olmazsa, işkalı yoxdur. İstifta

?Məsələ (Sual) ٣١٠: Qadının öz əri üçün avaz oxuması caizdirmi

Cavab: Ər üçün avaz oxumaq istisnalardan deyildir, əgər avazını naməhrəm .eşitməzsə, ğina da olmazsa, maneəsi yoxdur

İmam: İstiftaat, səh.۱۵; Əhkami banovan kitabının İstiftalarından istifadə etməklə, .məsələ; ۳۵, səh.۲۸

.Bəhcət, Xamenei, Fazil, Məkarim: İstifta

.Təbrizi: Siratun-nəcat, Sual: ۱۰۱۷

.Sistani: Minhacus-salihin, Məkasibi mühərrəmə, məsələ: ۲۰

səh:۱۴۰

Buna əsasən, ər üçün hər hansı növdə olursa olsun, ğina avazı caiz deyildir və yalnız *
.caiz avazlar, özü də naməhrəmin onun səsini eşitmədiyi halda işkalı yoxdur

Məsələ: (Sual) ٣١٠: Toy mərasimində məhrəm kişilər olan halda qadınlar ğina avazı ?oxuya bilərlərmi

.Bəhcət: Ğina avazı oxumaq haramdır. İstifta

Təbrizi: Qadınlar üçün işkalı yoxdur, amma kişilər üçün ğina avazına qulaq asmaq caiz .deyildir. Siratun-nəcat, ١٠٠۴ və ١٠١۶-cı suallar

.Fazil: Caiz deyildir. İstifta

.Məkarim: Ehtiyat-vacibə görə gərək tərk olunsun. İstifta

Məsələ ٣١١: Qadınların vasitəsilə qeyri-mütrib musiqilərin tək halda oxunması, misal .üçün, nəğmələrdə əgər naməhrəm onların səsini eşitməsə də, caiz deyildir

.İmam, Təbrizi, Fazil, Məkarim: İstifta

.Fazil: Camiul-məsail, ١-ci cild, Sual: ٩٧٧

Bəhcət: Əgər fəsada səbəb olarsa, caiz deyildir. Əksinə əksər hallarda qadının kişinin hüzurunda oxuması və onun səsinin dinlənməsi fəsada səbəb olur. Deməli, caiz deyildir. Amma pərdənin arxasından da fəsadın olmadığı halda ehtiyatın xilafınadır .(ehtiyat-müstəhəb onu tərk etməkdir). İstifta

.Məkarim: Hər bir halda işkallıdır. İstifta

Xamenei: Əgər qadının səsi ğina surətində olmazsa və ona qulaq asılması ləzzət və reybə qəsdi ilə olmazsa, eləcə də bunun ardınca fəsad gəlməzsə, kişilər üçün ona qulaq asmağın işkalı yoxdur, istər məhrəm olsun, istərsə də naməhrəm. Əcvibətül-.İstiftaat, Sual: ۶٢

Sistani: Əgər adətən insanı təhrik edən şəkildə səsini naziklәşdirərsə, caiz deyildir, .hətta öz məhrəmləri üçün olsa belə. İstifta

Məsələ ٣١٢: Kişilər, yaxud qadınlar üçün ğina olmadığı və ardınca fəsad gətirmədiyi .şəkildə oxumağın işkalı yoxdur

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

səh:١۴١

Məsələ (Sual) ٣١٣: Qadınların qadınlar arasında xorla oxuması, eləcədə naməhrəm ?kişilərin müqabilində xorla oxumasının hökmü nədir

.Cavab: Əgər ğina yönlü olmasa və öz ardınca da fəsad gətirməzsə, işkalı yoxdur

.İmam, Xamenei, Fazil: İstifta

.İmam: İstiftaat, məkasibi mühərrəmə, ۴۴-cü sualdan istifadə etməklə

.Fazil: Camiul-məsail, ١-ci cild, Sual: ١٧٢۴

Bəhcət: Əgər fəsada səbəb olarsa, caiz deyildir. Əksinə, əksər hallarda qadının kişilər qabağında oxuması və onun səsinin dinlənməsi fəsada səbəb olduğuna görə caiz deyildir. Amma pərdə arxasında və fəsad olmadığı halda oxumaq ehtiyatın xilafınadır .(ehtiyat-müstəhəbdir). İstifta

.Məkarim: Hər surətdə işkallıdır. İstifta

Məsələ (Sual) ٣١۴: Kişilərin kişilər arasında, yaxud qadınların naməhrəm qarşısında ?xorla oxumasının hökmü nədir

.Cavab: Əgər ğina şəklində olmazsa və ardınca fəsad gətirməzsə, işkalı yoxdur

.İmam, Bəhcət, Xamenei, Fazil, Təbrizi, Sistani, Məkarim: İstifta

Məsələ ٣١۵: Qadınların naməhrəmlər qarşsında Quran oxuması, sovt-ləhn olsa da .belə, işkalı yoxdur, bu şərtlə ki, təhrikə səbəb olmasın və öz ardınca fəsad gətirməsin

.İmam: Əhkami banovan, Sual: ۵, səh.٢۴-dən istifadə etməklə

.Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ١-ci cild, ١٧٢٣-cü sualdan istifadə etməklə

Bəhcət: Əgər fəsada səbəb olarsa, caiz deyildir, əksinə əksər hallarda qadının kişi qarşısında oxuması və onun səsinə qulaq asılması fəsada səbəb olduğuna görə caiz .deyildir. İstifta

Sistani: Amma əgər onun səsini adətən təhrik olunma həddinə gətirəcək qədər .naziklәşdirsə, istisnadır. İstifta

Məkarim: Tərtillə oxumağın işkalı yoxdur, lakin sovt ilə naməhrəmlərin qarşısında .oxumaq işkalsız deyildir. İstifta

Məsələ ۳۱۶: Qadınların və kişilərin qarışıq halda xorla oxuması əgər ğina olmazsa və ,təhrik və fəsada səbəb olmazsa

səh:۱۴۲

.eləcə də məhrəm və naməhrəm məsələlərinə riayət olunarsa, maneəsi yoxdur

.Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ١-ci cild, ٩٧٧-ci sualdan istifadə etməklə

.Bəhcət: Qadınla kişinin bir yerə toplaşması (bir-birinə qarışması) caiz deyildir. İstifta

.Məkarim: İşkallıdır. İstifta

səh:١۴٣

## KİŞİLƏRƏ AİD OLAN ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ

Məsələ ٣١٧: Kişilərə məxsus olan əqd və toy mərasimlərində, yaxud digər bayram şənliklərində əl çalmaq ləhv yönünə malik olmazsa, işkalı yoxdur.

İmam: İstifta.

Bəhcət: Bayram məclislərində və çıxış xütbələrində fərdləri təşxis etmək məqsədilə əl çalmaq əgər ləhv həddində olmazsa, eybi yoxdur. Tovzihul-məsail, müxtəlif məsələlər, məsələ: ٣٠.

Təbrizi və Sistani: Əl çalmaq öz-özlüyündə haram deyildir, amma öz ardınca başqa bir harama səbəb olarsa, bu hal istisnadır.

Təbrizi: Siratun-nəcat, Sual: ١٠٢٠.

Sistani: İstifta.

Xamenei: Əgər əl çalmaq adi qaydada olarsa, eybi yoxdur: İstifta.

Fazil: Əl çalmağın öz-özlüyündə işkalı yoxdur, lakin möminlər məscidlərdə, hüseyniyyələrdə və sair müqəddəs məkanlarda bu işi tərk etməlidirlər. Həmçinin İmamların mövlud məclislərində əgər çalmaq hörmətin aradan getməsinə səbəb olarsa, gərək bu işdən çəkinsinlər və möminlərə vacibdir ki, müsəlmanların arasında mövcud olan həmişəki şüardan – salavatdan istifadə etsinlər. İstifta.

Məkarim: Hər bir halda əl çalmağın işkalı yoxdur, lakin məscid və hüseyniyyələrdə tərk olunmalıdır.

İstifta.

⁕ NƏTİCƏDƏ: Əgər əl çalmaq ləhvi yönə malik olarsa işkallıdır və əgər adi qaydada, misal üçün bir şəxsin təşviq edilməsi üçün olduqda, işkalı yoxdur.

Məsələ (Sual) ٣١٨: Əgər kişilərə məxsus olan əqd və toy məclislərində uşaqlar rəqs etsələr və başqa kişilər də əl çalsalar, caizdirmi?

Cavab: Uşaqların təklifi yoxdur və əl çalmaq da əgər ləhvi yönə malik olmazsa, işkalı .yoxdur

.İmam, Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ١-ci cild, ١٧٣۴-cü sualdan istifadə etməklə

Bəhcət: Uşaqların təklifi yoxdur və əgər bu iş fitnə və fəsada səbəb olarsa, işkalsız .deyildir

.Təbrizi və Sistani: Əgər haram bir işə səbəb olmazsa, işkalı yoxdur

.Təbrizi: Siratun-nəcat, ١٠٢٠-ci sualdan istifadə etməklə

.Sistani: İstifta

.Məkarim: Amma böyüklər uşaqları rəqsə vadar etməsinlər. İstifta

Məsələ ٣١٩: Gəlinin, yaxud digər naməhrəm qadınların kişi məclisinə gəlməsi caiz .deyildir, yalnız kifayət qədər hicabı olduğu hal istisnadır

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil və Məkarim: İstifta

.Sistani: Eyni halda, günaha düşmək qorxusu ilə gərək olmasın. İstifta

NƏTİCƏDƏ: Deməli, üzü və əlləri də əgər zinətlidirsə, naməhrəmdən örtməlidirlər, ⁕ .lakin yaxşı olar ki, kişi məclisinə daxil olmaqdan çəkinsinlər

Məsələ ٣٢٠: Əgər bəy, qadınların məclisinə getdiyi halda zinətlənmiş naməhrəmə baxacağını bilirsə, qadınların məclisinə getməməlidir, hətta bu baxış ləzzət və reybə .qəsdilə yanaşı olmasa belə

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

NƏTİCƏDƏ: Bəyin qadın məclisinə, hətta əgər bir anlığa olsa belə, misal üçün, şəkil ⁕ çəkdirmək, yaxud üzük salmaq və s. üçün getməsi, zinətlənmiş naməhrəmə baxışı lazım tutursa, haramdır, amma əgər qadınlar tamamilə özlərini örtsələr və bəy də

.onlara baxmasa, işkalı yoxdur

Məsələ ۳۲۱: Kifayət qədər örtüyü olmasa, yaxud üzü və əlləri zinətli olduğu halda gəlinə baxmaq naməhrəm kişilər üçün caiz deyildir.

.İmam, Fazil, Məkarim: Ürvə, nikah, ۳۱-ci məsələdən istifadə etməklə

.İmam: Təhrir, nikah, məsələ: ١٨

.Bəhcət: Tovzihul-məsail, ١٩٣١-ci məsələdən istifadə etməklə və İstifta

.Təbrizi və Xamenei: İstifta

Sistani: Əgər qadınlar hicaba riayət edirlərsə və əgər onları hicaba riayətə əmr etdikdə etina edirlərsə, o məclisə getmək caiz deyil, əks halda işkalı yoxdur, bu şərtlə ki, baxış .ləzzət və reybə qəsdilə olmasın

Minhacus-salihin, nikah, ١۴ və ٢۶-cı məsələlərdən istifadə etməklə; Tovzihul-məsail, .٢۴۴٢ və ٢۴۴٣-cü məsələlər

NƏTİCƏDƏ: Gəlinə baxmaq hətta ləzzət və reybə qəsdilə olmazsa, caiz deyildir. * .Hətta əgər təbrik, yaxud sağollaşmaq üçün olsa da belə

Məsələ ٣٢٢: Əqd və toy mərasimində qadın və kişinin bir-birinə qarışması əgər naməhrəmin gəlinə və ya başqa qadınlara baxmasına səbəb olarsa və onlar da kifayət qədər hicablı olmazsa, yaxud zinətlənmiş olarsa, haramdır və ondan çəkinmək .lazımdır

.İmam, Təbrizi, Xamenei, Məkarim: İstifta

:Bəhcət və Sistani

Bəhcət: Üstəlik qadınla naməhrəm kişinin bir-birinə qarışması hər bir halda haramdır. .İstifta

Sistani: Həmçinin əgər harama düşməkdən qorxu olarsa, bu cür qarışıqlıq caiz deyildir. .İstifta

## ÜMUMİ MƏSƏLƏLƏR

Məsələ ٣٢٣: Üzü qırxmaq, yaxud maşınla vurmaq, əgər qırxmaq sayılırsa, ehtiyat-vacibə görə caiz deyildir, bu hökmdə bütün kişilər eyni hökmdədir, Allahın hökmü camaatın məsxərə etməsi, yaxud məclisə hakim olan fəzanın səbəbilə dəyişdirilmir. Deməli, həddi-büluğa təzə çatan şəxs, yaxud üzü qırxmadığı halda camaatın onu

məsxərə edəcəkləri şəxs, yaxud toy gecəsində olan kişi və sair kimi hallarda üzünü qırxarsa, yaxud qırxmaq sayılacaq dərəcədə üzünü maşınla götürərsə, ehtiyat-vacibə .görə caiz deyildir

.İmam: Tovzihul-məsail, müxtəlif məsələlər, səh.۲۶; İstiftaat, ۲-ci cild, səh.۲۱ və ۳۰

.Təbrizi: Tovzihul-məsail, ۲۸۳۳-cü məsələdən istifadə etməklə

.Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ۱-ci cild, ۹۵۵, ۹۵۶ və ۹۵۷-ci suallardan istifadə etməklə

Bəhcət: Üzün tükünü qırxmaq caiz deyildir. Tovzihul-məsail, müxtəlif məsələlər, .məsələ: ۴

Sistani: Üzü qırxmaq ehtiyat-vacibə görə haramdır, amma əgər üzün qırxılmaması şəxs üçün ağır çətinlik törədəcəksə, məsələn, onun şiddətli məsxərəyə və istehzaya tutulacağına səbəb olarsa, bu halda üzü qırxmağın işkalı yoxdur. Məkasibi .mühərrəmə, məsələ: ۴۶

Məkarim: Üzü qırxmaq və s. kimi şeylər ehtiyatın xilafınadır, əgər yeniyetmənin .üzündə kifayət qədər tük bitməyibsə, onu qırxmağın eybi yoxdur. İstifta

Məsələ ۳۲۴: Üzün bir hissəsini qırxmağın hökmü onun hamısını qırxmağın .hökmündədir

.İmam: İstiftaat, məkasibi mühərrəmə, Sual: ۸۴

.Bəhcət: Tovzihul-məsail, müxtəlif məsələlər, məsələ: ۴

.Xamenei: İstifta

Təbrizi: Ehtiyat-vacibə görə, gərək çənə və onun ətrafını da qırxmasınlar və dibdən vurmasınlar, belə ki, ona saqqalı vardır-deyilə bilsin, üzün qalan hissəsini qırxmasının .eybi yoxdur. İstifta

Fazil: Saqqalın ətraflarını ülgüclə və yaxud onun kimi şeylərlə təmizləməyin işkalı .yoxdur. İstifta

Məkarim: Lakin professor və s. kimi şəxslərin (çənə və onun ətrafında) qoyduğu .saqqalın işkalı yoxdur

NƏTİCƏDƏ: Kişilər ehtiyat-vacibə görə öz saqqallarının bir hissəsini qırxa bilməzlər, ❊

.amma saqqalı səliqəyə salmaq üçün qırxılan miqdar istisnadır

?Məsələ (Sual) ۳۲۵: Boğazın altında və yanaqlarda olan tükləri qırxmaq caizdirmi

Cavab: Əgər saqqalı qırxılmaq aid edilməyəcək miqdarda olarsa, əksinə, onun səliqəyə .salınması hesab olunarsa, işkalı yoxdur

.İmam, Təbrizi, Xamenei: İstifta

.Bəhcət: Tovzihul-məsail, müxtəlif məsələlər, məsələ: ۴

səh:۱۴۷

.Fazil: Camiul-məsail, ٢-ci cild, ٧٥٥-ci sualdan istifadə etməklə

.Məkarim: Bu hissələrin qırxılmasının işkalı yoxdur. İstifta

?Məsələ (Sual) ٣٢٦: Saqqalın həddi nə qədərdir ki, ondan qısa olmamalıdır

.Cavab: Camaat arasında saqqalı vardır-deyiləcək miqdarda saxlamaq kifayətdir

.İmam, Bəhcət, Təbrizi, Fazil və Məkarim: İstifta

.Məsələ ٣٢٧: Bığları qırxmağın işkalı yoxdur

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil, Məkarim: İstifta

.İmam: İstiftaat, məkasibi mühərrəmə, ٨٢-ci sualdan istifadə etməklə

?Məsələ (Sual) ٣٢٨: Müsəlmanın saqqalını qırxmaq işi haram sayılırmı

.Bəhcət: Haramdır və onun müqabilində pul almaq caiz deyil

Sistani: Saqqal qırxmağın ehtiyat-vacibə görə caiz olmadığı hallarda, ehtiyat-vacibə .görə onun müqabilində muzd almaq caiz deyildir

.Minhacus-salihin, Məkasibi mühərrəmə, məsələ: ٤٦

.Fazil və Xamenei: Ehtiyat-vacibə görə caiz deyildir

Məsələ (Sual) ٣٢٩: Mənim işim toz-torpaqla yanaşıdır və üzümü qırxmağa məcburam, çünki əgər üzümü qırxmasam, toz-torpaq onun üstünə hopacaqdır. Mənim işim ?haramdırmı

Cavab: Saqqalı qırxmaq əhvətə görə haramdır və qeyd olunan dəlil üz qırxmaq üçün .əsas deyildir. Siz bu hökmdə başqaları ilə fərqlənmirsiniz

.İmam: İstiftaat, məkasibi mühərrəmə, Sual: ٨٧

.Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ۱-ci cild, Sual: ۹۵۹

Bəhcət: Üzü qırxmaq haramdır və qeyd olunan dəlil üzü qırxmağın halal olmasına bir .əsas deyildir. İstifta

.Sistani: Əgər həddindən artıq çətinlik yaradırsa, üz qırxmağın işkalı yoxdur. İstifta

.Məkarim: Əgər zərurət tələb edərsə, üz qırxmaq caizdir. İstifta

?Məsələ (Sual) ٣٣٠: Tükün daha inkişaf etməsi üçün onu qırxmaq olarmı

.Bəhcət: Caiz deyildir

.Xamenei: Ehtiyat-vacibə görə caiz deyildir

Məsələ ٣٣١: Əqd və toy məclislərində bir növ oyun vardır ki, çubuqbazlıq (çubuq oyunu) adlanır. İki nəfər bir-birinin qarşısında oturur və bacardığı qədər başqasının ayağına ?vurur, bəzi hallarda ayağın sınması ilə nəticələnir. Bu oyunun hökmü nədir

.Bəhcət: Bu iş haramdır, qisasa, yaxud diyəyə səbəb olur. İstifta

.Məkarim: Hər növ təhlükəli iş şərən haramdır. İstifta

Məsələ (Sual) ٣٣٢: Kart, nərd taxtası və s. kimi qumar alətləri ilə oynamaq əgər udub-?uduzmaq məqsədi ilə olmazsa və yalnız oyun olarsa, nə hökmü vardır

.Cavab: Caiz deyildir

.İmam: Tovzihul-məsail, müxtəlif məsələlər, səh.٢٧

.Təbrizi: Siratun-nəcat, Sual: ١٠٢٩

.Xamenei: İstifta

.Fazil: Camiul-məsail, ١-ci cild, ٩٥١-ci sualdan istifadə etməklə

?Məsələ (Sual) ٣٣٣: İslam nəzərindən bəyin qalstuk taxmasının hökmü nədir

.Behcət: Kafirlərin paltarına özünə oxşatmaq caiz deyil. İstifta

Xamenei: Ümumi şəkildə qalstuk və yaxud qeyri-müsəlmanlara məxsus olan başqa paltarları geymək, belə ki, onun geyilməsi azğın mədəniyyətin yayılmasına səbəb .olarsa, caiz deyildir. İstifta

Fazil: Qalstuk məsihilərə aiddir və onların şüarı sayılır. Buna görə də yaxşı olar ki, müsəlmanlar ondan uzaqlaşsınlar. Hətta əgər onların mədəniyyətləri müsəlmanların arasında yayılması ilə həmin yöndən xaric olsa da. Camiul-məsail, ٢٥٣ və ٢٢٣٧-ci

.suallar

səh:۱۴۹

## QADINLARA MƏXSUS OLAN ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ

.Məsələ ۳۳۴: Qadınlar üçün toy məclislərində əl çalmağın işkalı yoxdur

.İmam, Təbrizi, Məkarim: İstifta

.İmam: İstifta, Əhkami banovan kitabı, Sual: ۲۴, səh.۲۸

.Təbrizi: Siratun-nəcat, Sual: ۱۰۲۰

Bəhcət: Şənlik mərasimlərində və çıxışlarda, ayrı-ayrı şəxsləri təklif etmək məqsədilə və ləhv həddinə çatmamaq şərtilə, eybi yoxdur. Tovzihul-məsail, müxtəlif məsələlər, .məsələ: ۳۰

Xamenei və Sistani: Adi qaydada olan əl çalmağın öz-özlüyündə, hətta əgər naməhrəm onun səsini eşitsə də, eybi yoxdur

.Xamenei: Əcvibətül-İstiftaat, Sual: ۱۰۰

.Sistani: İstifta

Fazil: Bayram şənliklərində və toyda əl çalmağın – öz-özlüyündə əgər haram işlə yanaşı olmazsa – işkalı yoxdur, bu şərtlə ki, məsciddə, yaxud Hüseyniyyədə olmasın. .Camiul-məsail, ۱-ci cild, Sual: ۱۷۳۴

Məsələ (Sual) ۳۳۵: Toy məclislərində uşaqların oynamalarının və qadınların əl ?çalmalarının hökmü nədir

.Cavab: Uşaqların təklifi yoxdur və qadınların toy məclisində əl çalmasının işkalı yoxdur

.İmam və Məkarim: İstifta

.Fazil: Camiul-məsail, ۱-ci cild, ۱۷۳۴-cü sualdan istifadə etməklə

Bəhcət: Uşaqların təklifi yoxdur, əgər bu iş fitnə və fəsada səbəb olarsa, işkalsız .deyildir. İstifta

Xamenei və Sistani: Adi və normal halda əl çalmağın öz-özlüyündə işkalı yoxdur, hətta

.əgər naməhrəm onların səsini eşitsə belə

Fazil: Bayram şənliklərində və toy mərasimlərində əl çalmaq haram bir işlə yanaşı .olmazsa, işkalı yoxdur, bu şərtlə ki, məsciddə və ya Hüseyniyyədə olmasın

.Məsələ ۳۳۶: Ləhv və ləib olan toy məclislərində qalmaq caiz deyildir

səh:۱۵۰

.İmam, Xamenei, Məkarim: İstifta

.Fazil: Camiul-məsail, ۱-ci cild, Sual: ۹۹۰

Bəhcət: Əgər ləhvin tərk olunması məclisin tərk olunmasındadırsa, orada qalmaq caiz .deyildir

.Təbrizi: Əgər haram işə səbəb olmazsa, işkalı yoxdur. Siratun-nəcat, ۱۰۲۰-ci sual

.Xamenei və Sistani: Əvvəlki sualın cavabından bu məsələ də aydın olur. İstifta

NƏTİCƏDƏ: Əgər bir qadın toy məclisində başqa qadınların oynadığını görsə, yaxud ⁕ kişilərin naməhrəmlərlə qarışdığını görsə, yaxud naməhrəmin qarşısında mütrib musiqinin çalındığını görsə, əvvəlcə onları nəhy əz münkər etməli və təsir qoyacağına .ümidvar olmadığı halda məclisi tərk etməlidir

Məsələ (Sual) ۳۳۷: Saz, təbil, rəqs, xanəndəlik olan toy məclislərində – bir-birilə ?qohumluq və beləliklə də bu işə məcbur olmaq bəhanəsilə iştirak etmək caizdirmi

Cavab: Ləhv və ləib məclisində olmaq və iştirak etmək haramdır və qohumluq əlaqələri .buna əsas ola bilməz

.İmam, Xamenei və Məkarim: İstifta

.Fazil: Camiul-məsail, ۱-ci cild, ۹۹۰-cı sualdan istifadə etməklə

Bəhcət: Əgər ləhvin tərk olunması məclisin tərk olunmasına bağlıdırsa, orada qalmaq .caiz deyildir. İstifta

?Məsələ (Sual) ۳۳۸: Toy məclisində nağara (dəf) çalmağın hökmü nədir

.Cavab: İşkallıdır

.İmam: Əhkami banovan kitabının istiftası, Sual: ۴۱, səh.۳۲

.Xamenei və Fazil: Əgər mütrib şəkildə vurulsa, caiz deyil. İstifta

Məkarim: Ləhv və fəsad məclisləri ilə münasib olan bütün ahənglər və səslər haram,

.ondan başqaları halaldır. Onun ayırd edilməsi də ürf əhlinə həvalə edilir

.İstifta

Məsələ ۳۳۹: Qadınların məclisində mütrib musiqili lent yazılarından istifadə etmək caiz .deyildir və bundan çəkinmək lazımdır

İmam, Bəhcət, Təbrizi, Xamenei, Sistani, Fazil və Məkarim: İstifta

Məsələ ۳۴۰. Kürəkən olmaq istisnalardan deyildir və nəticədə naməhrəm qadınlar .kürəkənin qarşısında olduqları zaman kamil hicaba riayət etməlidirlər

İmam, Fazil və Məkarim, Ürvə, sətr və satir, birinci məsələdən əvvəl və beşinci .məsələ

.İmam Əhkami banovan kitabından istifadə etməklə, səh.۱۱

.Bəhcət Tovzihul-Məsail, ۱۹۳۷-ci məsələdən istifadə etməklə

.Təbrizi: Siratun-Nəcat, ۱۴۸۵-۱۴۸۶ və ۸۸۲-۸۸۳-cü suallardan istifadə etməklə

.Xamenei: İstifta

Sistani: Tovzihul-məsail,. ۲۴۴۴-cü məsələdən istifadə etməklə. Minhacus-Salehin, .Nikah, məsələ: ۱۸

NƏTİCƏDƏ: Əgər kürəkən qadınların yığıncağına daxil olsa üzünü və əllərini ⁕ zinətləndirən qadınlar bütün bədənlərini, o cümlədən üzlərini və əllərini ondan örtməlidirlər. Hətta kürəkən bir neçə anlığa, misal üçün gəlinə üzük taxmaq, yaxud şəkil çəkdirmək və s. üçün qadınların yığıncağına daxil olmuş olsa belə. Hər bir halda .üstün nəzər qadınlar məclisinə hər növ naməhrəmin daxil olmasını tərk etməkdir

Məsələ ۳۴۱: Naməhrəmə özünü göstərmək üçün qadınların zinətlənməsi, bəzənməsi .caiz deyildir

.İmam, Bəhcət, Təbrizi, Xamenei, Fazil, Məkarim, Sistani İstifta

Sual ۳۴۲: Qadınların özlərini naməhrəmə göstərəcəyini bildiyi halda onları bəzəyən .parikmaxir şəxslərin hökmü nədir

Cavab: Əgər onu naməhrəmə göstərmək məqsədi ilə günaha kömək etmək və .haramdır lakin əgər qəsdi olmadan sadəcə bilirsə eybi yoxdur

.İmam, Sistani, Fazil, Məkarim İstifta

Xamenei və Bəhcət: Əgər naməhrəmə göstərilmək üçün onu bəzəyirsə yəqin şəkildə .haramdır, lakin əgər elmi varsa qəsd olmadan ehtiyat onun tərk edilməsidir

.İstifta

Məsələ ٣۴٣: Naməhrəm kişi gəlin və bəyin, yaxud başqa qadınları videoya, yaxud şəkilini çəkməməlidir hətta əgər onun

səh:١۵٢

yaxın qohumlarından olsa da belə (əlbəttə, əgər qadınlar kamil hicaba riayət etməmişlərsə).

İmam, Fazil, Məkarim Ürvə, sətr və satir, ۱-ci məsələdən qabaq və ۵-ci məsələdən istifadə etməklə.

İmam, Xamenei İstifta.

Təbrizi, Siratun-Nəcat, ۱۴۸۸-۸۶, ۸۸۲-۸۳ cü suallarda istifadə etməklə.

Sistani Tovzihul-Məsail, ۲۴۴۴-cü məsələdən istifadə etməklə; Minhacus-salihin, Nikah, məsələ: ۱۸.

Məsələ ۳۴۴: Qadın kifayət qədər örpəyə malik olmadığı halda kürəkənin, yaxud naməhrəm şəxslərin olduğu bir yerdə video və ya şəkil çəkmək caiz deyildir.

İmam, Məkarim İstifta .

Fazil: Əgər naməhrəmin gözü ona düşəcəksə caiz deyildir. İstifta.

Məsələ ۳۴۵: Əgər bir qadın kamil hicabsız şəkildə şəkil çəkdirdiyi halda onun şəkli qohum-əqrəbasının arasında paylanacağını və naməhrəmin onu görəcəyini də bilirsə, hicabsız şəkil çəkdirməsi caiz deyildir.

İmam, Bəhcət İstifta.

Fazil: Onun yayılmasına icazə verməsinlər əgər bunun ardınca günah və fəsad gələrsə caiz deyildir. İstifta.

Məkarim: O öz şəkilini başqalarının ixtiyarında qoymazsa haram bir işə mürtəkib olmamışdır. İstifta.

Nəticədə: Misal üçün, gəlin kamil hicaba riayət etmədiyi halda şəkil çəkdirdikdə onun * şəkilinin naməhrəm qohumlarının əlinə düşəcəyini bilirsə gərək şəkil çəkdirməsin. Hətta şəkil çəkən şəxs qadın və gəlinə məhrəm olan kişi olarsa belə.

Məsələ (Sual) ۳۴۶: Toy məclislərində adətən şəkil, yaxud video qadınların vasitəsi ilə

çəkilir lakin şəkilin çıxarılmasında, yaxud başqa işlərdə mümkündür ki, naməhrəm də onu görsün. Gəlinin bəzənməsinə və lazımi qədər hicabı olmadığına diqqət yetirməklə ?bu filmlərin və şəkillərin hökmü nədir

Cavab: Əgər naməhrəm qadınları tanıyırsa onları görmək onun üçün caiz deyildir və .bundan qeyri hallarda əgər ləzzət və reybə qəsdi olmazsa işkalı yoxdur

səh:۱۵۳

.İmam İstifta Əhkami banovan kitabında ۴۴-۴۵-ci suallardan istifadə etməklə s. ۳۳

.Təbrizi, Siratun-Nəcat, ۸۷۶-cı sualdan istifadə etməklə

.Bəhcət və Xamenei İstifta

.Fazil, Cameul-Məsail, ۱-ci cild, ۱۷۲۸ və ۱۷۳۲-ci suallardan istifadə etməklə

Sistani və Məkarim: Əgər qadınlar mübtəzəl qadınlardan olmazsa: bəd hicab, yaxud hicabsız qadınlardır ki, onlara hicab örtməyi əmr etdikdə etina etmirlər istər müsəlman olsunlar istərsə də yox; və kişi də onu tanıyırsa ehtiyat-vacibə görə o şəkilə, yaxud videoya baxmamalıdır .Bundan qeyri hallarda ləzzət və reybə qəsdi olmadan .baxmağın işkalı yoxdur. Minhacus-Salehin məsələ ۲۷

NƏTİCƏDƏ: Əgər naməhrəm şəxs qadınları tanımazsa, yaxud qadınlar mübtəzəl ⁕ qadınlardan olsa onların şəkillərinə və videolarına ləzzət və reybə qəsdi olmadan .baxmağın işkalı yoxdur

Məkarim: Əgər qadın şəri hicabı qorumağa özünü iltizamlı bilirsə naməhrəmin onun şəkilinə, yaxud videosuna baxmasının işkalı vardır. Amma əgər onu tanımazsa və .baxmağın ardınca da heç bir fəsad gəlməzsə bu hal istisna olunur

.Tovzihul-məsail, ۲۰۸۷-ci məsələdən istifadə etməklə

NƏTİCƏDƏ: Ya naməhrəm kişi qadını tanıyır ya da tanımır. Əgər onu tanımırsa onun ⁕ şəkilinə və videosuna ləzzət və reybə qəsdi olmadan baxmağın işkalı yoxdur və əgər onu tanıyırsa bu halda əgər qadın islam hicabını qorumağa iltizamlıdırsa onun şəkilinə, yaxud videosuna baxmaq kifayət qədər hicabı olmadığı halda caiz deyildir. Əgər hicabı qorumağa iltizamli deyilsə bu halda kişi onu tanısada lakin onun şəkilə və videoya .baxması ləzzət və reybə qəsdi ilə olmazsa işkalı yoxdur

## MÜXTƏLIF MƏSƏLƏLƏR

Məsələ (Sual) ۳۴۷: Qadının özünü ərindən başqası üçün bəzi qadın məclislərində bəzəməsi o cümlədən toy məclislərində, yaxud qadın qonaqlıqlarında bəzəməsinin .hökmü nədir? Əgər həyat yoldaşı bundan razı olmazsa hökmü nədir

Cavab: Əgər naməhrəm onu görməzsə işkalı yoxdur lakin səy olunmalıdır ki, ərinin .razılığını qazansın

İmam izdivacın əhkamı kitabının İstiftası s. ۱۸۸

.Bəhcət, Təbrizi Sistani, Fazil İstifta

.Xamenei: Naməhrəm onu görməzsə, işkalı yoxdur. İstifta

.Məkarim: Məsələnin fərz olunduğu halda ərin razılığını qazanmaq vacib deyildir

Məsələ (Sual) ۳۴۸: Əgər xüsusi bir qonaqlıqda iştirak etmək üçün qadın xüsusi bir paltar geymək istəsə lakin həyat yoldaşı buna razı olmazsa, o paltarın geyilməməsi də o qadının hörmətinin aradan getməsinə səbəb olmazsa, eləcə də qadının o paltarlardan istifadə etdiyi surətdə ailəsinin narahatlığına və ixtilafın yaranmasına səbəb olarsa ?şəriət baxımından bu paltarın geyilməsinin hökmü nədir, caizdirmi

Cavab: Əgər bir paltarın geyilməsi ixtilafa və fəsada səbəb olarsa ondan çəkinmək lazımdır və ərin həyat yoldaşının tay-tuşları arasında geyilməsi adət olan paltarın .geyilməsinin qarşısını almasın

,İmam: Əhkami izdivac kitabının istiftası, səh. ۱۸۹

Fazil: İstifta

Bəhcət: Əgər əri həyat yoldaşının ümumiyyətlə getməsi ilə razı olsa o paltarı geyməyin .işkalı yoxdur

.İstifta

Sistani: Kişi qadının evdən çıxmasını xüsusi paltar geymək çadra salmaq və s. kimi şeylərlə şərtləndirə bilər. İstifta

Məsələ ۳۴۹: Müsəlmanın evi möhtərəm və toxunulmazdır, sahibinin izni və icazəsi olmadan ora girmək caiz deyildir. Hətta başqasının evinə baş çəkmək də ya baş uzatmaq da damın üzərindən, divarın deşiyindən, bacadan və s. kimi baxmaq caiz

.deyildir

.İmam, Bəhcət Fazil, Məkarim: İstifta

Məsələ ۳۵۰: Əgər bir kəs başqasının evinə boylanıb baxsa, orada onun üçün haram olan şeylərə baxmaq məqsədi ilə baş çəkib boylansa, (misal üçün: camaatın qızına və arvadına baxmaq üçün) ev əhli üçün caizdir, hətta vacibdir ki, onu bu

işdən çəkindirsinlər. Əgər bu işdən əl çəkməzsə döyməklə və s. kimi şeylərlə onun .qarşısını ala bilərlər

.İmam Təhrir fid-difai ənin-nəfs, məsələ ٣٠

.Fazil İstifta

Bəhcət: Əhvət nəzər nəhy əz münkərdə tərtibə riayət etməkdir və israr etdiyi surətdə xırda daşlarla və çubuqla bu işdən çəkindirmək olar və bu işdə zamin deyildir. Cameul ..Məsail, ٥-ci cild, s. ٢۶٨ və İstifta

.Məkarim: Sonuncu fərzdə ev əhli məhkəmə yolu ilə tədbir görməlidir. İstifta

## DIQQƏTLI OLMAQ

Diqqət yetirmək lazımdır ki, başqalarının evinin içinə baxmaq, naməhrəmlərə nəzər yetirmək məqsədi ilə caiz deyildir, istər bu baxış damın üstündən olsun istər hasarın üstündən, yaxud başqasının evinə açılan pəncərədən olsun, yaxud da qapı və pəncərənin arasından. Buna əsasən gərək Allah eləməmiş bu çirkin əmələ mürtəkib olan şəxsləri bu işdən çəkindirmək lazımdır. Əgər öz işlərini yenidən davam etdirsələr .vurmaqla və sair şeylərlə onun qarşısını ala bilərlər

Məsələ ٣٥١: Əgər baxan şəxs camaatın evindən, ev əhlinə nəzər salmağı mümkün olmadığı bir məsafədən nəzər salsa lakin uzaqdan yeni avadanlıqlar vasitəsi ilə (durbin ilə) baxsa yaxından baxan şəxsin hökmündədir və buna əsasən əvvəlki məsələdə .deyildiyi tərtiblə onu dəf etmək lazımdır

.İmam: Təhrirul-vəsilə, fid-difai ənin-nəfs, məsələ: ٣٨

Bəhcət: ... Əhvət – nəhy əz münkərdə ardıcıllığa riayət etməkdir. İsrar etdiyi təqdirdə xırda daşlarla, çubuqla və s. onun qarşısını almaq olar və (nəhy əz münkər edən şəxs .ona dəyən xəsarətlərə) zamin deyildir

Məkarim: Nəhy əz münkər, yaxud da məhkəmə ilə bu işdən çəkindirmmək lazımdır. .İstifta

Məsələ (Sual) ۳۵۲: İstifadə etmək üçün deyil sadəcə evdə saxlamaq üçün olduqda pasor (vərəq-kart oynamaq) icazə verilməyən film və video, spirtli içkilərin olduğu şüşə qablar

həmçinin nərd taxtası, biabırçı şəkillər, musiqi alətləri) şəxsin öz evində saxlanması) ?haram iş sayılır və buna mürtəkib olan şəxs dünyada cəzalandrılmalıdırmı

Cavab: Qumar alətlərinin və nəzərə çarpacaq mənfəətin haram işlərə məxsus olan hər bir şeyin aradan aparılması vacibdir və onu etmədikdə kəbirə günaha mürtəkib .olur

İmam Təhrir, Məkasibi Mühərrəmə, ٨-ci sualdan və istiftadan istifadə etməklə. .Məkasibi-Mühərrəmə, sual ۴۱

Bəhcət. İstifta

.Fazil, Cameul-Məsail, ١-ci cild, ١٠٠٠-ci sualdan istifadə etməklə

Sistani: Əlbəttə, əgər onlardan istifadə olunması qorxusu varsa onu aradan aparılması vacibdir. İstifta

.Məkarim: Bu kimi əşyaların saxlanması şərən caiz deyildir. İstifta

Məsələ ٣٥٣: Ata-analar üçün, heç bir dəlil olmadan və sadəcə olaraq əsəbiləşdiyinə, hövsələsiz olduğuna görə övladı vurması caizdirmi, yoxsa (vurduqları təqdirdə) onların ?boynuna həqqün-nas gəlir

Cavab: Bu iş caiz deyildir, lakin övladı ədəbləndirmək üçün bədənin qızarması, .göyərməsi və ya qaralmasına səbəb olamaycaq qədər adi tərzdə vurmaq caizdir

İmam: Əhkami izdivac kitabının istiftası, səh.١٨٠

Təbrizi: Siratun-nəcat, sual ١٢٧٩

Sistani: Əgər uşaq həddi-büluğa çatmayıbsa və onun ədəbləndirilməsi vurmağa bağlıdırsa, yüngülvari şəkildə vurmaq olar və ehtiyat-vacibə görə gərək üç zərbədən artıq olmasın, bədənin qızarmasına, göyərməsinə və qaralmasına səbəb olmasın. Amma əgər uşaq həddi-büluğa çatıbsa, ehtiyat-vacibə görə onu vurmaq caiz deyildir. .İstifta

Fazil: Ədəbləndirmə vurmaqdan başqa bir yolla mümkün olmazsa, eybi yoxdur, lakin .çalışmaq lazımdır ki, diyəyə səbəb olmasın. Camiul-məsail, ١-ci cild, ١٩٥٧-ci sual

Məkarim: Zərurət halları istisna olunmaqla, ədəbləndirmə ünvanı ilə fiziki güc tətbiq .edilməsi mümkün olan qədər, xüsusilə bizim dövrümüzdə tərk olunmalıdır. İstifta

səh:١٥٧

Məsələ ۳۵۴: Əgər uşağın xalası, dayısı, əmisi, bacısı, yaxud qardaşı onu vurarsa, ?məsələnin hökmü nədir

Cavab: Caiz deyildir; yalnız uşağın vəlisinin (şəri qəyyumunun) icazəsi ilə və bundan .əvvəlki məsələdə qeyd edilən şərtlərlə caizdir

.İmam: Əvvəlki məsələnin mənbəsindən və istiftadan istifadə etməklə

.Fazil: İstifta

Təbrizi: Əgər uşağın vəlisinin tərəfindən icazəli olsa və uşaq da mühüm bir pis iş görmüş olarsa, əvvəlki sualda qeyd edilən şərtlər əsasında ۵-۶ zərbə vurmağın işkalı .yoxdur. Siratun-nəcat, ۱۲۸۰-cı sual

.Məkarim: Bunun cavabı əvvəlki sualın cavabından aydın olur. İstifta

Məsələ (Sual) ۳۵۵: Həddi-büluğa çatan və aqilə (öz məsləhətini ayırd edə bilən) bir qız dindar və müsəlman bir oğlanla ailə qurmaq istəyir. Lakin onun atası maddi məsələlərə görə bu evlənməyə icazə vermir. Bu halda qız atasının icazəsi olmadan ?həmin oğlanla ailə qura bilərmi

Cavab: Bakirə qızın ərə getməsində atanın icazəsi şərtdir, amma əgər ata öz qızının, onunla münasib olan oğlanla ailə qurmasına maneçilik törətsə, qızın da ərə getməyə ehtiyacı olsa və bu evlənmə fikrindən dönəcəyi təqdirdə onun üçün yaxşı bir ər .(tapılmayacağından qorxsa, (bu halda atasının icazəsi olmadan ərə gedə bilər

İmam, Əhkami banovan kitabının istiftası, sual ۲۰, səh.۲۷

Bəhcət: Həddi-büluğa çatıb rəşidə olan, yəni öz məsləhətini ayırd edə bilən qız ərə getmək istəsə, əgər bakirədirsə, ehtiyata görə öz atasından, yaxud ata tərəfdən olan babasından icazə almalıdır – baxmayaraq ki, əzhər nəzər bu şəraitdə olan qızın müstəqil olmasıdır. Əgər atası, yaxud ata tərəfdən olan babası qaib olarsa və ərə getməməkdə zərər, yaxud hərəc, yəni şiddətli məşəqqət və çətinlik olarsa, qızın özü ərə gedə bilər. Həmçinin əgər atası və ya ata tərəfindən olan babası qızın, onunla münasib olan oğlanla ailə qurmasına – bütün şəraitlərin və müqəddimə

işlərinin mövcudluğu ilə və qızla oğlanın bu evlənməyə meyli olduğu halda maneçilik .törətsələr, qız ərə gedə bilər

Tovzihul-məsail, məsələ ١٨٩١

Xamenei: Ehtiyat vacibə görə bakirə qızın ərə getməsində atanın icazəsi şərtdir. Amma əgər ata öz qızının, ona münasib olan şəxsə ərə getməsinə maneçilik törətsə, qızın da ərə getməyə ehtiyacı olsa və həmin şəxslə ailə qurmadığı təqdirdə onun üçün .(yaxşı ər tapılmayacağından qorxsa (bu hala atasının icazəsi olmadan ərə gedə bilər

Sistani: Əgər qız bakirə olsa, amma atası və ya ata tərəfindən olan babası, şərən və camaatın nəzərində onunla münasib olan oğlana ərə getməsinə icazə verməsə, yaxud qızın ailə qurması işində qızın azacıq belə iştirak etməsinə razı olmasalar, yaxud da dəlilik və ya bu kimi səbəblər üzündən icazə verməyə slahiyyətləri olmazsa, bu kimi hallarda onların icazəsi lazım (vacib) deyildir. Həmçinin, onlardan icazə alınması qaib olmaları və s. kimi səbəblər üzündən mümkün olmazsa, qızın da ərə getməyə çox .ehtiyacı olsa, atasının və ya ata tərəfindən olan babasının icazəsi lazım deyildir

.Tovzihul-məsail, ٢٣٨۶-cı məsələ, Minhacus-salihin, nikah bölməsi, ۶٩-cu məsələ

Məkarim: Həddi-büluğa çatıb rəşidə olan, yəni öz məsləhətini ayırd edə bilən qız bakirə olarsa, ehtiyat budur ki, atasının, yaxud ata tərəfdən olan babasının icazəsi ilə ərə getsin. Amma əgər qız üçün münasib bir həyat yoldaşı tapılsa və atası da ona ərə getməsi ilə müxalifət etsə, bu halda onun icazəsi şərt deyildir. Həmçinin əgər atası və ya ata tərəfdən olan babasına əli yetişməzsə (onlarla əlaqə yarada bilməsə), qızın da (.ərə getməyə ehtiyacı olsa, (onların icazəsi şərt deyildir

:Fazil

Sual: Atam bizi boşlamış və bizə etina etmir. Bəzən uzun müddət vaxt keçir, amma bir-birimizdən xəbərimiz olmur. Ərə getməkdə ondan icazə almalıyammı, yoxsa icazə ?lazım deyil

Cavab: Ümumiyyətlə, əgər qızın vəlisi onu boşlayıb azad qoymuşsa və onun işləri ilə maraqlanmırsa, onun izn və icazəsi

lazım deyildir. Qız həddi-büluğa çatıb rəşidədirsə, yəni ərə getmək işində öz .məsləhətini ayırd edə bilirsə, ərə gedə bilər

.Camiul-məsail, ۲۰۳۷-ci məsələ

## BƏZİ ŞƏRİ İSTİLAHLARIN İZAHI

[۱] Müqəddəs İslam şəriətində mövcud olan hökmlər:

۱. Vacib: İslami nöqteyi-nəzərdən görülməsi gərəkli olan işdir ki, tərk olunması ilahi əzaba səbəb olur.

۲. Haram: İslam baxımından görülməsi qadağan olan işdir ki, mürtəkib olunması ilahi əzaba səbəb olur.

۳. Müstəhəb: Görüldükdə savabı olan, görülmədikdə əzabı olmayan işdir.

۴. Məkruh: Görülməsi qadağan olunmayan, lakin görülməməsi şəri baxımdan daha yaxşı olan işdir.

۵. Mübah: Şəri baxımdan yaxşı və ya pis olmayan və yuxarıda qeyd olunmuş dörd qism işlərdən başqa bir işdir.

Ehtiyat-vacib: O əməldir ki, ehtiyata müvafiqdir, amma fəqih onunla yanaşı fətva verməyibdir. Belə olan hallarda müqəllid sonrakı rütbədə gələn müctehidin fətvasına əməl edə bilər.

Ehtiyat-müstəhəb:

Ehtiyat-lazım: –O ehtiyatdır ki, müctehid ona riayət etməyi əqli dəlillər vasitəsi ilə isbat etmişdir.

Əzhər – Daha açıq-aydın olan fətvadır ki, mükəlləf ona müvafiq olaraq əməl etməlidir.

Vacibi-təxyiri: Bir neçə vacibdən, istədiyini görməkdə ixtiyar sahibidir.

Vacibi-eyni: Hər bir şəxsin özünə (başqalarını nəzərə almadan) vacib olan əməldir (namaz, oruc kimi).

[۲] Müctehid:

Camiuş-şərait müctehid: mərcəyi-təqlidlik məqamı üçün lazım olan bütün şərtlərə

.malik olan şəxs

.Şəri suallara cavab verilən yer [۳]

Zimmə əhli: İslam dövlətinin himayəsində yaşayıb onun qanunlarına itaət edən [ ۴]
.kitab əhli

Məhəlli-işkal: İşkalı var, onun səhih olması şübhəlidir. (Müqəllid bu kimi məsələlərdə [۵]
(.başqa müctehidə müraciət edə bilər

Müstəhcən: biabırçı, utandırıcı [۶]

.Ləhv: puç, faydasız, oynadıcı, batil işlər [۷]

Mütrib və ləhvi musiqi o musiqilərə deyilir ki, günah məclisləri ilə münasib olan xüsusiyyətlərə malik olduğuna görə adətən insanı Allahdan, əxlaqi fəzilətlərdən və insani keyfiyyətlərdən uzaqlaşdırır, onu açıq-saçıqlılığa, günaha doğru sövq edir. Mövzunun ayrıd edilməsində meyar, camaatın nəzəridir

Hərəc: Çətinlik, məşəqqət [۸]

Əhvət–ehtiyata müvafiq olan [۹]

Əqva – bir məsələ barəsində güclü ehtimal verilən aşkar fətvadır ki, ona müvafiq əməl .etmək lazımdır

Məhəlli təəmmül – Ehtiyat olunmalıdır. (Müqəllid belə məsələlərdə başqa [ ١٠] (.müctehidə müraciət edə bilər

.Satir: Ovrəteyni örtə biləcək miqdarda paltar və s [١١]

.Külli: Xarici nümunəsi konkret şəkildə təyin olunmayan pul və s [١٢]

Təzir: Şəriətdə müəyyən günah əməllər üçün təyin olunan cəzalara nisbətən şəriət [١٣] hakiminin məsləhət gördüyü miqdarda verilən cəzadır ki, onun miqdarı şəri cəzalardan .az və yüngüldür

.Əmr be məruf – İnsanları vacib, yaxşı və bəyənilən işlərə dəvət etmək [١۴]

.Nəhy əz münkər–İnsanları pis, yaramaz, haram və günah əməllərdən çəkindirmək

Hibə: əvəzsiz və ya əvəz almaqla başqasına verilən mal (birinciyə hibeyi-bila əvəz, [١۵] (.ikinciyə isə hibeyi müəvvəzə deylir

.Təəllüq: Aid və bağlı olma [١۶]

.Ləib: Ləhv ilə təqribən eyni mənanı daşıyır: puç, faydasız, oynadıcı, batil işlər [١٧]

Mütrib – O musiqiyə deyilir ki, ləhv və ləib məclisləri üçün münasib olsun, yəni insan [١٨] .üçün vəcdə gəlmək və ruh yüksəkliyi baxımından qeyri-adi bir halətin yaranmasıdır

.Tərci – Səsin boğaza salınması ilə olan səs [١٩]

səh:١۶٢

## MÜNDƏRICAT


BİRİNCİ FƏSİL ............................................ ۵

BAXMAĞIN HÖKMLƏRİ .......................... ۵

KİŞİNİN BAXMAĞI .................................. ۵

KIŞININ KIŞIYƏ BAXMASININ HÖKMLƏRI: ............................................. ۵

KİŞİNİN MƏHRƏM QADINLARA BAXMASI ............................................. ۷

KİŞİNİN NAMƏHRƏM QADINLARA BAXMASI ...................................... ۹

ÜMUMİ BİR QANUN ................................۱۳

B) QEYRİ-MÜSƏLMAN QADINLAR .......۱۹

KİŞİNİN UŞAQLARA BAXMASI ..............۲۱

QADININ BAXMASI .................................۲۵

QADININ BAŞQA QADINLARA BAXMASI .................................................۲۵

QADININ MƏHRƏM KİŞİLƏRƏ BAXMASI .................................................۲۷

QADININ NAMƏHRƏMƏ KİŞİLƏRƏ BAXIŞI ............................................۲۸

QADININ UŞAQLARA BAXMASI ...........۳۱

ŞƏKK HALINDA BAXMAĞIN HÖKMÜ ۳۳

FOTO ŞƏKLƏ BAXMAQ ...........................۳۵

KİŞİNİN NAMƏHRƏM QADININ ŞƏKLİNƏ BAXMASI ...........................۳۵

QADININ KİŞİLƏRİN ŞƏKLİNƏ BAXMASI .................................................۳۸

KİNOYA BAXMAQ ...................................۴۰

PALTAR VƏ ZINƏT ƏŞYALARININ HÖKMLƏRİ ....................................۴۴

KIŞI ÜÇÜN HARAM OLAN PALTARLAR VƏ ƏŞYALAR ..........................۴۴

KİŞİNİN MƏHRƏMLƏR VƏ BAŞQA KİŞİLƏR QARŞISINDAKI GEYİMİ ۴۹

KİŞİNİN NAMƏHRƏM QADINDAN ÖRTÜLMƏSİ ..................................۵۲

KİŞİLƏRİN UŞAQLARDAN ÖRTÜNMƏSİ .................................................۵۵

QADININ ÖRPƏYİNİN HÖKMLƏRİ ......۵۶

QADININ NAMƏHRƏMDƏN ÖRTÜNMƏSI ..............................................۵۶

ÇADRALARIN HÖKMLƏRİ ....................۶۲

ZİNƏTİN HÖKMLƏRİ ..............................۶۵

QADININ QADINDAN ÖRTÜLMƏSİ .....۷۲

QADININ UŞAQLARDAN ÖRTÜLMƏSİ .....................................................۷۴

QADIN VƏ KIŞILƏR ÜÇÜN GEYILMƏSI CAIZ OLMAYAN PALTARLAR ................۷۶

ŞÖHRƏT LIBASI ....................................۷۶-۱

XÜSUSI PALTAR ....................................۷۷-۲

TƏHRIKEDICI LIBAS ............................۸۱-۳

QƏSBI PALTAR ..................................... ۸۲-۴

KAFIRLƏRƏ MƏXSUS OLAN PALTARLAR ............................................ ۸۴-۵

CƏMIYYƏTDƏKI MÜNASIBƏTLƏRIN HÖKMLƏRI................................... ۸۶

SÖHBƏT ETMƏYIN HÖKMLƏRI ........... ۸۶

A) KIŞININ NAMƏHRƏM QADINLARLA SÖHBƏT ETMƏSI .................. ۸۶

DIQQƏT YETIRILMƏLI MƏSƏLƏLƏR ... ۸۸

DIQQƏTLI OLMAQ LAZIMDIR ............... ۸۹

TƏMASLARIN HÖKMLƏRI ...................... ۹۳

ÖPMƏYİN HÖKMLƏRİ ............................ ۹۷

ÜMUMİ BİR QANUN ................................ ۹۹

İSTİMNA .................................................... ۱۰۰

MƏCLİSLƏRİN, QONAQLIQLARIN, GEDİŞ-GƏLİŞLƏRİN HÖKMLƏRİ ۱۰۲

ÖZÜNÜ GÖSTƏRMƏYİN HÖKMLƏRİ ۱۰۴

ƏQD VƏ TOY MƏRASİMİNİN HÖKMLƏRİ ............................................... ۱۰۶

TƏHQIQAT APARMAĞIN HÖKMLƏRI .................................................... ۱۰۸

BİRİNCİ ŞƏRTƏ ƏSASƏN: ..................... ۱۰۹

İKİNCİ ŞƏRTƏ ƏSASƏN: ........................ ۱۱۰

ÜÇÜNCÜ ŞƏRTƏ ƏSASƏN .................... ۱۱۰

İSTİXARƏNİN HÖKMLƏRİ .................... ۱۱۲

NİŞANLI OLMAĞIN HÖKMLƏRİ ......... ۱۱۴

DAİMİ ƏQDDƏN QABAQ MÜVƏQQƏTİ ƏQD SİĞƏSİ ........................... ۱۱۴

ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ ...................................... ۱۱۶

DƏVƏT ETMƏYİN HÖKMLƏRİ ............ ۱۱۹

ƏQD VƏ TOY MƏCLİSİNİN MÜQƏDDİMƏ İŞLƏRİNƏ TƏDARÜK GÖRÜLMƏSİNİN HÖKMÜ ..................... ۱۲۵

ÜMUMİ BİR QANUN ............................... ۱۲۵

ƏQD VƏ TOY MƏCLİSLƏRİNİN HÖKMLƏRİ ........................................... ۱۲۶

RƏQS ... ۱۲۶

MUSİQİNİN HÖKMLƏRİ ......................... ۱۳۲

ÜMUMİ BİR QANUN ............................... ۱۳۵

AVAZ OXUMAQ ...................................... ۱۳۸

KİŞİLƏRƏ AİD OLAN ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ۱۴۴

ÜMUMİ MƏSƏLƏLƏR ............................. ۱۴۶

QADINLARA MƏXSUS OLAN ƏQD VƏ TOY MƏRASİMLƏRİNİN HÖKMLƏRİ ................................................. ۱۵۰

MÜXTƏLIF MƏSƏLƏLƏR ....................... ۱۵۴

DIQQƏTLI OLMAQ ................................. ۱۵۶

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər sürəsi, ayə ۹

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ۲۰۰۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.۱

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.۲ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .۳ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.۱

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
WWW
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098)0913 2000 109